***İxtisas : Məktəbəqədər təhsil***

***Kafedra : Psixologiya pedaqogika və sosial fənlər***

***Fənn : Məktəbəqədər təhsil müəssisələrində əmək və onun təşkili metodikası***

***Müəllim : Kazımova Şəfa***

***Mühazirə.***

# Tərbiyənin yaranması və Əmək tərbiyəsi.

## Plan:

1. Tərbiyə haqqında ilkin anlayış.
2. Əmək tərbiyəsinin əsasları.
3. Əmək tərbiyəsi və onun mahiyyəti haqqında.

## Ədəbiyyat:


1. Z.Qaralov.Tərbiyə. Bakı-Pedaqogika.2003.
2. Məktəbəqədər pedaqogika-1964.
3. R.Mursaqulova. N.Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı-2012.
4. Uşaq bağçası. Bakı-Maarif .1988
5. A.Həsənov. Məktəbəqədər pedaqogika. Bakı-2000.

6. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı.” Maarif” 1989.
7. M.Muradxanov. Uşaqların tərbiyəsində ailə mühüm ocaqdır.

**Tərbiyə haqqında ilkin anlayış.**

Tərbiyə -dinamik proses olmaqla bərabər , eyni zamanda idarə edilən mürəkkəb sistemdir. Bu sistemdə daimi təsir göstərən və dəyişən elementlər var. Hər elementin təsir gücünü tənzimləyən müvafiq amillər qrupu mövcuddur. Bunları nəzərə almadan sistemin hərəkətini düzgün idarə etmək mümkün deyil.

Sistemin hərəkətini müntəzəm təhlil etmək, vəziyyəti düzgün qiymətləndirmək,müxtəlif amillərin təsir gücünü bilmək əsasında daim təkminləşdirmə işləri aparmaq lazım gəlir.

Tərbiyə sistemi təhsil sisteminin mühüm tərkib hissəsi olduğundan, yeni təsir amilləri və elementləri ilə zənginləşdirilir.

Tərbiyə ictimai hadisə olduğundan və insanların birgə yaşayış normalarına uyğun davranışları tənzimləməyə xidmət göstərdiyindən, cəmiyyətin ümumi inkişaf stradegiyasının tərkib hissəsinə daxildir və ciddi dövlət əhəmiyyətli problemdir.

Tərbiyə sisteminə bir çox amillər təsir edir. Mikromühüt ( ailə mühiti, məhəllə mühiti, bağça-məktəb mühiti) ictimai-sosial mühit, informasiya mühiti,özünü dərk səviyyəsi, təhsil sistemi, yaş həddi, fizioloji və psixoloji inkişaf səviyyəsi,ailənin güzəranı,irsi əlamətlər və s. bu prosesdə xüsusilə mühüm rol oynayır.

İnsanı öyrənmək ücün onun mahiyyətini, keyfiyyətini arayıb ortaya çıxarmaq gərəkdir. Bu, çox çətin, lakin zəruri məsaələdir. Mahiyyəti və keyfiyyəti açmaq üçün isə əvvəlcə onun sifətlərini və əməllərini öyrənmək, təhlil etmək və ümumiləşdirmək lazımdır.

İnsanı öyrənmək belə sxemlə aparıla bilər:

Sifətlərdən-əməllərə-mahiyyətə-keyfiyyətə.

Sağlam, təmiz insan daxilində şəkk-şübhəyə, küfrə və nifaqa yer olmayan adamdır.

Hər insanın iki aləmi var: daxili və zahiri. Çox zaman insanlara ancaq zahiri aləminə görə qiymət verirlər. Bu səhvdir, daxili öyrənmədən insana qiymət vermək qəbahətdir.

Təzahür formasına görə insanın əməlləri üç cür olur: açıq-aşkar, yarıgizli-yarıaşkar, tamam gizli.Odur ki, təktəkcə açıq –aşkar və yarıgizli-yarıaşkar əməllərin müşahidəsinə əsasən insana verilən qiymət tam ola bilməz. Bunun üçün gizli əməlləri də öyrənib təhlil etmək gərəkdir. Yalnız bu zaman insanın tam mahiyyətini üzə çıxarmaq, qiymətləndirmək mümkün olar.

" Hər insan bir aləm, bir dünyadır "müddüasına biz şərikik. Həqiqətən insan dünyaya gəldiyi gündən dünyadan köçən gününə qədər ( az və ya çox yaşamasından asılı olmayaraq) özünəməxsus yol kecir, özünəxas tarix yaradır. Elə iki insan tapmaq olmaz ki, onların bütün göstəriciləri, keyfiyyətləri, həyat tərzi, baxışları tamamilə üst-üstə düşsün. Dünyada tamamilə eyni iz qoyub gedənlər də olmayıb. Bununla belə elə bil hər bir insan özünün tək, vahid daxili dünyasında eyni vaxtda bir-birilə ziddiyyət,təzad təşkil edən iki dünyanı yaşadır. Bunlardan biri ülvi amallara, haqq-ədalətə tapınmaq,cəmiyyətə xeyir gətirmək üzrə fəaliyyət dünyasıdır. İkincisi, heyvani hisslərdən, nəfsdən doğan tələbatı ( həvəs,şəhvət,paxıllıq,acgözlük, hərislik,qəddarlıq və s.) ödəmək üzrə fəaliyyət dünyasıdır.

İnsanın əsl mahiyyəti, əsas vəzifəsi isə özünə, xalqına, bəşəriyyətə vicdanla, ağıl-kamalla xidmət etmək, yaradılmışlardan ləyaqətlə faydalanmaq, yaratmaq, özü ilə birlikdə başqalarını da yaratmaqdır.

Nizami Gəncəvinin tərbiyə nəzəriyyəsi insanın bu iki daxili dünyasındakı ziddiyyətlərin kökünü araşdırmaq əsasında vahid dünya-təmiz, ülvi, insansevər dünya formalaşdırmaq məqsədinə xidmət göstərir. O, fərdin daxili aləmi üçün yaratdığı təmiz, saf, ülvi dünya modelini əsərlərində cəmiyyət həyatına da tətbiq etmiş, ədalətli və sağlam cəmiyyət modeli formalaşdırmışdır. Nizami irsinin ümumbəşəri dəyəri də bununla bağlıdır.

Tarixə insana müxtəlif təriflərə verilib. Onlardan bir neçəsini göstəririk:

-İnsan Yerin-Göyün san-çöhrətidir.

-İnsan-aləmin bəzəyidir.

-İnsan-dünyanın birinci varlığıdır.

-İnsan- dünyanın əşrəfidir.

-İnsan-dünyanın incisidir.

-İnsan-dünyanın gözüdür.

-İnsan-dünyanın özüdür.

-İnsan- ülviyyət səmasıdır.

-İnsan –cahanın tacidarıdır.

-İnsan- peyğəmbər qüdrətli varlıqdır.
-İnsan-təbiətin bir hissəsidir.
-İnsan-könül quşudur.
-İnsan-əsl və müstəqil bir varlıqdır.
-İnsan- öz hərəkətlərində azad və sərbəst varlıqdır.
-İnsan-düşünən və müdrik varlıqdır.
-İnsan- yaradıcı varlıqdır.
-İnsan-idealist varlıqdır.
-İnsan- əxlaq sahibi olan varlıqdır.
-İnsan tanrının yer üzündə xəlifəsi-canişinidir.
-İnsan allahın bəndəsidir.

Göründüyü kimi, təriflər bir-birindən fərqlidir və heç biri insanın mahiyyətini tam dolğunluğu ilə ifadə edə bilmir. Buradan da nəticə çıxır ki, təxminən milyard illik mövcudluq tarixi olan insan hələlik öz kimliyini sona qədər dərk etməmişdir. Bu səbəbdəndir ki. insanın mahiyyətini formulə etməyə cəhd göstərmiş mütəffəkkir, din xadimi və filosofların heç biri " İnsan nədir?" sualına birmənalı cavab tapa bilməmişdir.

Bununla belə, insanın mahiyyətinə daxil olan bir sıra parametrləri düzgün müəyyənləşdirmişlər.

**Əmək tərbiyəsinin əsasları.**

Uşaqlarda erkən yaşlardan zəhmət çəkmək adətinin və bacarığının, əməyə məhəbbət və zəhmətkeş adamlara hörmətin tərbiyə edilməsi məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin əsas vəzifələrindən biridir. Uşaq bağçasında əmək tərbiyəsi böyüməkdə olan bütün nəslin ümumi tərbiyəsinin ümumi məqsədlərinin həyata kecirilməsinə -uşağın şəxsiyyətinin hərtərəfli inkişafına və onun cəmiyyət xeyrinə əməyə hazırlanmasına yönəldilmişdir.

Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi uşağın əxlaqi-iradi keyfiyyətlərinin: məqsəd ardıcıllığının, cətinliyi aradan qaldırmaq və təşəbbüs göstərmək adətlərinin,işi axıra catdırmağın, yaşıdlar kollektivində mütəşəkkil və şən işləməyin formalaşması vəzifəsini qarşıya qoyur.

Məktəbəqədər ya-başlıca olaraq,uşağın oynamaq dövrüdür, oyunla müqayisədə əmək uşaqların həyatında hələ az yer tutur. Bu dövrdə əməyin elementləri uşağın ağlı, hissi və iradəsinin formalaşmasına getdikcə artan təsir göstərir.

N.K.Krupskaya və A.S.Makarenko hesab edirdilər ki, əmək keyfiyyətləri və uşağın davranışının ümumi əmək istiqaməti, onun təşkilat adətləri uşaq bağçası və ailə şəraitində məktəbdən xeyli əvvəl tərbiyə edilməlidir.

Məktəbəqədər yaşda uşaq ətrafdakı bütün seylərə canlı maraqla yanaşır və fəal hərəkət etməyə səy edir. Düzgün qoyulan əmək tərbiyəsi prosesində uşaq, fəaliyyət göstərərək,onu əhatə edən seylər haqqında ilk təsəvvürlər əldə edir; onda əməyə məhəbbət, ona şən və yaradıcımünasibət formalaşır, ( bu da uşağın bütün həyatı boyu saxlanılmalıdır) yoldaşlarının kollektivində işləmək vərdişi və bacarığı tərbiyə edilir.

Əmək tərbiyəsinin böyük əhəmiyyətinin təbii-elmi cəhətdən əsaslandırılması yüksək əsəb fəaliyyəti haqqında təlimdə, pedaqogika və psixologiya sahəsindəki bir sıra tədqiqatlarda öz ifadəsini tapmışdır.

Müasir fiziologiyanın məlumatları əmək fəaliyyəti zamanı uşağın orqanizmində baş verən proseslərin daxili mexanizmlərini aşkara cıxararaq, uşağın fiziki və psixi inkişafının vəhdətini əsaslandırır. İ.M. Secenovun və İ.P.Pavlovun təlimi əzələ hərəkətinin uşağın nəinki fiziki inkişafı üçün,əhəmiyyətini aşkara cıxarır. Əzələ sferasının işləməsi ürəyin, tənəffüsün işinə səbəb olur. İ.M. Secenovun dediyinə görə, bu zaman mərkəzi sinir sistemi hər seyi öz üzərinə götürərək və xarici mühitin bütün təmaslarına və təsirinə öz münasibətini bildirərək, həmin prossesdə bütün orqanların,toxumaların, hüceyrələrin iştirakına sanki yekun vurur.

Əmək, əzələlərin və bütün daxili orqanların fəaliyyətini gücləndirərək, bütün orqanizmin iş qabiliyyətini və həyat fəaliyyətini artıraraq, sinir sistemini inkişaf etdirir və təkminləşdirir.Əmək prosesində bütün analizatorlar inkişaf edir, nəinki görmə, eşitməlamisə, iybilmə, həm də beyin fəaliyyətinin inkişafında böyük rol oynayan “ əzələ hissi ” də məşq edir. Uşaqların əmək hərəkətlərində hiss orqanlarının və əzələ aparatının uyğunlaşmış fəaliyyəti onu elementar əməyə daha cox qabiliyyətli edir. Əlin, hiss orqanlarının və beynin birgə fəaliyyəti şəraitində əmək uşağın nəinki fiziki, həmçinin zehni inkişafının mühüm amilinə cevrilir.

Özünə həm fiziki, həm də zehni qüvvəni daxil edən bütün əmək prosesi ixtiyari diqqəti, düşüncəliliyi, müşahidəciliyi, hazırcavablılığı inkişaf etdirir. N.K.Krupskayanın dediyi kimi, uşaqları “ başla və əllə ” işləməyə öyrədir. N.K.Krupskaya yazır: “ Beş yaşlı oğlan uşağı taxta bellə daş pilləkəni taqqıldadır və xidmətci qadın ona deyir: “ Bax, pilləkanı sındırarsan”,o isə qadına ciddi halda baxır (oğlan uşaq bağçasında olmuşdur) və cavab verir: “ Sən niyə belə deyirsən, məğər taxta ilə daşı sındırmaq olar?” Bunu mən böyük nailiyyət hesab edirəm. Materialları öyrənmək, materiallarla tanışlıq cox mühümdür.

Beləliklə, uşaqlarda 3 yaşına qədər ba.lıca olaraq əməyə fizioloyi hazırlıq gedir. Daha böyük yaşda əmək fəaliyyəti dərketmə prosesi ilə əlaqələndirilir. Əmək, uşaqlarda bilik almaq marağının inkişafına,əqli görüş dairəsinin genişləndirilməsinə, beləliklə, də təfəkkür və nitqin inkişafına imkan yaradır. Bundan başqa, uşaqların birgə əmək fəaliyyətində kollektiv adətlər və hisslər tərbiyə edilir.

Uşaqların fikri birgə əməkdə də, uşaq tək işləyəndə də fəallaşır.

Uşağın əxlaq tərbiyəsində əməyin rolu xüsusilə mühümdür. Uşaqların yaş xüsusiyyətləri və maraqlarının nəzərə alınması ilə təşkil edilmiş əmək fəaliyyəti ən sevindirici və dərin hisslər yaradır. Bunlar uşaq fəaliyyətinin emosional cəhətdən bəzəyir,gələcəkdə əməyə əsl insanlıq münasibəti tərbiyə etmək üçün əsas yaradır.

Əmək prosesində uşağın həyacanları həmişə onun başqa adamlara münasibətinin formalaşması ilə, onda kollektiv hisslərin ilk rüşeymlərinin tərbiyə edilməsi ilə bağlıdır.

Psixologiya məlumatları göstərir ki, artıq erkən yaşda davranışın oldüqca mürəkkəb təşkili formalaşmağa başlayır:uşağı fəaliyyətə ayrı-ayrı təsadüfi motivlər deyil, onun daha mühüm, daha başlıca hesab etdiyi motivlər təhrik edir. Həyatının 3 cü ilinin axırında uşaqlar öz hərəkətlərini əvvəlcədən qoyulmuş məqsədə tabe etməyə calışırlar. Daha böyük yaşda uşaqlarda faydalı iş görmək arzusu-xidmətçi qadına, yaxud tərbiyəciyə kömək etmək, balacalar üçün bir sey düzəltmək arzusu meydana cıxır.

Uşaq bağçasında və ailədə düzgün təşkil edilmiş əmək nəinki uşağın davranışının ümumi mənəvi istiqamətini tərbiyə edir, eləcə də xarakterin iradi cəhətlərinin- məqsəd ardıcıllığının, təkidliliyin tərbiyə edilməsinə komək edir, əməyə səy göstərmək adəti yaradır.

Tərbiyə prosesində uşaqların əməyə marağı davranışın əxlaq motivlərinin təsiri ilə inkişaf edir və onun şəkli dəyişilir.

Əmək insan həyatının əsasını təşkil edir. Ləyaqət və xışbəxtliyin bünövrəsi əməklə qurulur. Yaxşı tərbiyənin birinci şərti odur ki, uşaq bütün istifadə etdiyi maddi nemətlərin göydən düşmədiyini dərk etsin və onun kiminsə əməyinin bəhrəsi olduğunu bilsin. Azərbaycanın görkəmli maarifpərvərlərindən biri olan Həsən bəy Zərdabi bu fikirləri inkişaf etdirərək yazırdı:" ... Fiziki əmək necə deyərlər, xəstəlikləri müalicə edir,şərə qalib gəlir, insanda intibah əmələ gətirir."

Uşaqlar hələ məktəbəqədər yaşdan öz güclərinə müvafiq əmək işlərinə cəlb olunurlar. Getdikcə onların əmək fəaliyyətinin hüdud dairəsi genişləndirilərək mürəkkəbləşdirilir. Əmək uşaqlarda zəhmətsevərliklə yanaşı, dözümlülk, cəsarət,yoldaşlıq, dostluq,qayğıkeşlik, xeyirxahlıq, qeyrətlilik və vətənpərvərlilik kimi əxlaqi keyfiyyətlər formalaşdırır.

Düzgün təşkil olunan və məqsədyönlü həyata keçirilən əmək uşağın bütün şəxsi keyfiyyətlərinə müsbət təsir göstərir, onun gələcək həyat yolunun müəyyənləçdirilməsində həlledici rol oynayır.

Fiziki əmək orqanizmin həm fizioliji inkişafında, həm də mənəvi yüksəlişində mühüm rol oynayır, insanın əzələlərinin, qan damarlarının və sinir sisteminin normal işləməsinə müsbət təsir göstərir. Bu onunla izah edilir ki, fiziki iş zamanı insan tez-tez nəfəs alır, bununla da bədənə daxil olan oksigenin miqdarı artır.

Dahi Nizami Gəncəvi öz əsərlərində əməyə və əməkçi insanlara yüksək qiymət vermişdir. “ Sirlər xəzinəsi” poemasında yaratdığı “ Kərpickəsən kişinin dastanı”nda qoca kərpickəsənin dili ilə gənc oğlana belə deyior:

“ Onunçün öyrətdim ki, əlimi bu sənətə,

Bir gün sənə əl acıb düşməyim xəcalətə.”

Qoca kərpickəsən öz əlinin halal zəhməti ilə yaşamağı hər şeydən üstün tutur, çünki onda insan heç kimdən asılı olmur.

Tərbiyəçilər görkəmli klassiklərimizdən, sifahi xalq ədəbiyyatından, müasir şair və yazıçıların yaradıcılığından nümunələr gətirməli, məktəbəqədər yaşlı uşaqları əməyə, halal zəhmətə məhəbbət ruhunda tərbiyə etməlidirlər. Uşaqlar başa düşməlidirlər ki, faydalı və şərəfli əmək insana əsl başucalığı gətirir.

Y.A.Komenski uşağı kiçik yaşından namuslu əməkdə, xeyirxah işlərdə calışmağı, bununla da onda müsbət adət və vərdişlər tərbiyə etməyi tələb rdirdi: “ Xeyirxahlıq boşboğazlıq sayəsində deyil, iş görmək nəticəsində inkişaf edir.”

Rus pedaqoqu K.D.Uşinski qeyd edirdi ki, həqiqi və azad əmək insanın həyatında o qaədər böyük əhəmiyyətə malikdir ki, bunsuz o bütün qiymətini və ləyaqətin dərəcəsini mühafizə etmək üçün lazımdır. “ Şəxsi əməksiz insan irəliyə doğru hərəkət edə bilməz, bir yerdə dayana bilməz, o geri getməlidir. Əmək insan xöşbəxtliyinin zəruri şərtidir.

Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi düzgün qurulmalıdır. Bu onlarda fiziki iş görmə qabiliyyətinin tədricən formalaşmasına səbəb olur. Beləliklə,

onlar fiziki iş prosesində əşyaların xassələri, qulluq etdikləri bitki, heyvan və quşlar haqqında geniş bilgilər alırlar. Bu da uşaqlarda tədricən fərdi psixi xüsusiyyətləri formalaşdırır.

**MÖVZU: 2. Əmək tərbiyəsinin əhəmiyyəti və uşaq əməyinin xatakteri haqqında.**

**PLAN:**

1. **Əmək tərbiyəsinin əhəmiyyəti**
2. **Uşaq bağçasında əmək tərbiyəsinin məqsədi**
3. **Məktəbəqədər yaşlı uşaqların əməyinin planlaşdırlması**
4. **Uşaqların əməyinin nəticəsi və qiymətləndirilməsi**

**ƏDƏBİYYAT:**


1. **Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.**
2. **Məktəbəqədər pedaqogika.“Maarif”, Bakı, 1964.**
3. **A.Həsənov. Kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsi. Bakı, 1987.**
4. **A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.**
5. **A.Həsənov. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi ( tədris- metodik vəsait) Bakı, 1993.**
6. **Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.**

**1. Əmək insan həyatının əsasını təşkil edir. Ləyaqət və xoşbəxtliyin bünövrəsi əməklə qurulur. Uşaqlar hələ məktəbəqədər yaşdan öz güclərinə müvafiq əmək işlərinə cəlb olunurlar. Getdikcə onların əmək fəaliyyətinin hüdud dairəsi genişləndirilərək mürəkkəbləşdirilir. Əmək uşaqlarda zəhmətsevərliklə yanaşı, dözümlülük, cəsarətlilik, qayğıkeşlik, vətənpərvərlik kimi əxlaqi keyfiyyətlər formalşdırır.**

**Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi düzgün qurulmalıdır. Bu onlarda fiziki işgörmə qabiliyyətinin tədricən formalaşmasına səbəb olur. Beləliklə, onlar fiziki iş prosesində əşyaların xassələri, qulluq etdikləri bitki, heyvan və quşlar haqqında geniş bilgilər alırlar. Əməksevərliyin inkişafına məktəbəqədər yaş dövründən başlamaq lazımdır. Əgər bu yaşdan uşaqlarla əməksevərliyin inkişafı istiqamətində iş aparılmazsa, onlarda tənbəllik və ya əməyə laqeyd münasibət yarana bilər.**

**Məktəbəqədər yaşlı uşaqların əməyi özünəməxsus xüsusiyyətlərə malikdir. Onların əməyi çox vaxt oyunla əlaqədar olur. Bu, özünü müxtəlif formada göstərir. Bəzən oyun yaşlıların əməyini əks etdirir, bəzən də əmək elementləri oyunda əks olunur. Məsələn, “Vaqon nəzarətçisi” oyununda uşaqlar nəzarətçi rolunda sərnişinlərə mədəni xidmət edir. “Aşpaz” oyununda aşpaz “dadlı xörək” bişirməyə çalışır. Kiçik qrup uşaqları sanki, konkret əmək qüvvəsi sərf etmir, sadəcə oyun keçirirlər. Böyük qrup uşaqları isə oyun prosesində fiziki iş görmək zərurətini hiss edirlər. Əmək prosesində bəzən uşaqlar qarşıya məqsəd qoyur, əvvəldən işi planlaşdırır, öz fəaliyyətini ona müvafiq qurur və müəyyən nəticə əldə edənə kimi işləyirlər. Böyük qrup uşaqları bəzən öz əməklərinin ictimai mahiyyətini də dərk edirlər. Onlar həvəslə məişət və təsərrüfat işlərinə qoşulurlar. Tərbiyəçinin təklifi ilə Böyük qrup uşağı kiçik dostu üçün oyuncaq hazırlayır. Uşaqlar hazırladıqları oyuncaqları öz kiçik dostlarına hədiyyə verirlər. Başlıcası isə budur ki, uşaqlar öz əməkləri ilə başqalarına xeyir verməkdən həzz alırlar.**

**Uşaqlar gündəlik əmək fəaliyyətlərində həyati əhəmiyyət kəsb edən bir çox bacarıq və vərdişlərə yiyələnirlər, müstəqil işləmək bacarığına sahib olurlar. Əmək prosesində uşaqlar onları əhatə edən əşyaları**

**öyrənir, bitkilərin böyüməsini, inkişafını müşahidə edirlər. Onlar heyvanlara qulluq edir, onların həyat tərzi ilə tanış olurlar.**

**2. Məktəbəqədər pedaqogika uşaq əməyi qarşısında müəyyən məqsədlər qoyur: yaşlıların əməyi iləuşaqları tanış etmək, uşaqlarda onların əməyinə hörmət aşılamaq, əməyə maraq formalaşdırmaq, əməyin ictimai mahiyyət daşıdığını öyrətmək.**

**Yaş yarımlıq - iki yaşlı uşağın paltarını, ayaqqabısını geyinib soyunması, başını daraması primitiv olsa da, onun əhəmiyyəti olduqca böyükdür. Bu hərəkətləri yerinə yetirməklə uşaq qarşısına qoyulmuş əmək məqsədinə nail olur. Üç - dörd yaşında isə o, daha mürəkkəb məişət işlərinə qoşulur. Nə isə etmək cəhdi uşaq xarakterində fəallıq, müstəqillik, fiziki qüvvə və ağıl gərginliyinin inkişafına müsbət təsir göstərir.**

**Uşaqların qarşısına qoyulan əməyin məqsədi onların yaşı ilə əlaqədar olamlıdır. 2-3 yaşlı uşağın fəaliyyəti üçün qarşısına məqsəd qoyulduqda, onların yaş xüsusiyyəti mütləq nəzərə alınmalıdır. Çünki onlar bir işi görə bilmədikdə, bəzən onu yerinə yetirməkdən imtina edirlər. Tərbiyəçi çalışmalıdır ki, yalnız çətinlik çəkdikə uşağa köməklik göstərib istiqamət versin. Fəaliyyət zamanı işləyə bilməyən uşaqları da işə qoşmaq, onlarda faydalı bacarıq və vərdişlər yaratmaq yüksək tərbiyəvi əhəmiyyət kəsb edir. Eyni işi bir neçə gün gördükdə qrup və yarımqrupda olan uşaqların iş növünü dəyişmək də çox əhəmiyyətlidir. Məsələn, əgər bu gün oyun otağını səliqəyə salırsa, çalışmaq lazımdır ki, sabah onlar dibçəkdəki güllərin sulanmasında iştirak etsin. Yaxud Novruz bayramı üçün qrup otağını səliqəyə salarkən tərbiyəçi uşaqlara deyir ki, bayramqabağı qrup otağının bəzəkləri gözəl olmalıdır. Uşaqlar tərbiyəçinin tapşırığını həvəslə yerinə yetirir, hər işi səliqəli və vaxtında görməyə çalışırlar. Kiçik qrupdan başlayaraq, uşaqlar məqsədə nail olmaqdan dərin həzz alır və gördükləri işin nəticəsini sevinclə tərbiyəçiyə göstərirlər. Məktəbəqədər orta və böyük qrupun uşaqları qarşıya müstəqil məqsəd qoymağı (məsələn, tikinti materialarını yığışdırmağı, gəlinciyin paltarını yumağı və s.) tərbiyəçidən öyrənirlər. Bu yaş dövründə də uşaqlar həmişə hər iş üçün qarşıya məqsəd qoymaq vərdişinə malik olmurlar. Onlar ən çox adət və vərdiş qazandıqları əmək sayəsində qarşıya məqsəd qoya bilirlər. Məs., "Gəzintiyə nə vaxt gedəcəksiniz?" – sualına uşaqlar belə cavab verirlər: "Oyuncaqları yığışdırıb, otağı səliqəyə salıb gəzintiyə gedəcəyik". Uşaqlar dediklərinə əməl edib bu işləri gördükdən sonra gəzintiyə hazırlaşırlar.**

**3. Məktəbəqədər yaşlı uşaqların əmək fəaliyyətinin təşkili işin planlaşdırılmasından və düzgün başa düşülməsindən çox asılıdır. Uşaq nəyin necə və nə üçün icra olunması arasındakı əlaqəni görməlidir. Tərbiyəçi uşaq əməyini planlaşdırarkən mövcud olan çətinliklərin uşağın həyat təcrübəsinə müvafiq olmasını nəzərə almalı və onların aradan qaldırılması yolarını görməlidir.**

**Əməyi planlaşdırma görüləcək işin ardıcıl icrası ilə bağlı olur. Nəyi əvvəl, nəyi sonra, nə üçün başqa cür deyil, belə işləmək kimi vəzifələr əsasən işi sistemlə qurmağı tələb edir. Məsələn, əl-üzü yumaq üçün əvvəlcə paltarın qollarını çırmalamaq, sonra əlləri və nəhayət üzü yumaq ardıcıllığını uşaqlar aydın başa düşəndə, işi daha səmərəli icra edirlər. Beləliklə, işin ardıcıllığını tərbiyəçi müəyyən edir, uşaqlar isə fəaliyyət prosesində bu ardıcıllığa riayət edirlər.**

**Orta və böyük qruplarda otaq bitkilərinə qulluq etmək işin sistemli və planlı aparılmasına nümunə göstərilə bilər. Bitkilər elə yerləşdiriliməlidir ki, onları silmək və sulamaq rahat olsun. Bunun üçün güllər əvvəlcə pəncərənin qabağından stolun üstünə keçirilir, onların yarpaqları, altlıqları silinir, pəncərənin qabağı təmizlənir və bütün bunlardan sonra bitkilər öz yerlərinə qoyulur. İşin belə planlı yerinə yetirilməsi uşaqlarda sərbəstlik, səliqəlilik və məqsəd aydınlığı yaradır.**

**Böyük qrupun uşaqları çox vaxt verilən işin planını özləri hazırlayırlar. Tətbiyəçinin əsas məqsədi uşağa bacarmadığı işi öyrətməkədn ibarət olmalıdır. Əlbəttə, uşağa öz fəaliyyətini planlaşdırmaq üçün ona nümunə vermək, əvvəlki planlaşdırmadan istifadə etmək, öz fəaliyyəti haqqında onu əvvəlcədən fikirləşməyə alışdırmaq lazımdır. Belə iş prosesində uşağa əvvəldən suallar da verilə bilər: "Nədən başlamaq lazımdır? Əvvəlcə hansı alətlə işləyəcəksən? Sənə nə qədər material lazım olacaq?" və s.**

**Böyük qrup uşaqları əməyin məqsədini aydın bildikdə sərbəst və müstəqil işə qoşulurlar. Bəzən də uşaqlar iş prosesində əməyin məqsədini müəyyən edir və qarşıya qoyulmuş vəzifəni müəyyənləşdirirlər.Uşaqların əmək fəaliyyəti nə qədər məqsədyönlü və aydın olarsa, onun yerinə yetirilməsi bir o qədər maraqlı və səliqəli olar.**

**4. Əmək müəyyən qədər fiziki və əqli qüvvə sərf edilməsini tələb edir. Lakin onun nəticəsi cox vaxt sərf edilmiş səylərin , eləcə də bacarıq və vərdişlərin mənimsəmə səviyyəsindən asılıdır.**
**Əməkdə nəticə -fəaliyyətin məcburi komponentidir. Lakin onun əldə edilməsinə baş vəzifə kimi baxmaq olmaz. Bu vəzifəyə görə uşaq bağçasında fəaliyyət onun naminə təşkil edilmir. Nəticənin əldə**

**edilməsi, hər şeydən əvvəl, uşaqlarda əməyə maraq tərbiyə etməyə kömək edən pedaqoji amil kimi əhəmiyyət kəsb edir.**
**Nəticə məqsədin əldə edilməsi üçün zəruri olan səylərin sərf edilməsinin dərəcəsi kimi meydana cıxır. Nəticənin əldə edilməsi prosesində uşaq şəxsiyyətinin inadcıllıq,hazırcavablıq, ixtiraçılıq,qrdıcıl hərəkət etmək qabiliyyətivə s. kimi fərdi keyfiyyətləri özünü biruzə verir.**
**Uşaqlarda əməyə maraq tərbiyə edilməsində onların fəaliyyət nəticələrinin müqayisəsi böyük pedaqoyi əhəmiyyətə malikdir.**
**Uşaqlar işin yaxşı və pis cəhətlərini görürlər. Əyani müqayisə müvəffəqiyyətin səbəbləri üzərində onları düşünməyə məcbur edir:" O, bacarır , o öyrənmişdir, o calışırdı",-deyə uşaqlar nəticəyə gəlirlər.**
**İşin sonunda nəticə cıxarma uşaqlara müəyyən təsir göstərir. " Uşaqlar bir baxın, oyuncaqları necə də təmiz yumuşuq, hamımız bir yerdə, mehribanlıqla, hər şeyi vaxtında görmüşük"-deyə tərbiyəçi onlara müraciət edir. Əməyin nəticəsini dqzgün qiymətləndirmək, öz nailiyyətlərini basqalarının nailiyyətləri ilə müqayisə etmək qabiliyyəti uşaqlarda müqayisə təcrübəsi toplandıqda və fəaliyyət nəticələrinin analizi gedişində inkişaf edir. Pedaqoq uşaq əməyini nə qədər ədalətlə qiymətləndirərsə, onda böyük maraq və tələbkarlıq göstərərsə, onun nəticələrinin tərbiyəvi əhəımiyyəti bir o qədər effekli olar.**
**Uşaqlarda əmək nəticələrinə nail olmaq cəhdinin inkişafında bu fəaliyyətin motivi xüsusi əhəmiyyət kəsb edir. Məsələn, oyun üçün oyuncaqkların hazırlanması uşağın əməyə olan marağını artırır,fəaliyyəti daha məqsədyönlü edir, bu zaman o, inadkarlıq, səy gösrərir. Uşağın maraq dairəsinə daxil olan motivlərin təsiri ilə əməyə münasibətin necə dəyişilməsini görmək olar, bunlar uşağın qəbul edə biləcəyi və uşaqda aktiv fəaliyyətə hazırlıq yaradacaq motivlərdir.**
**Uşaqların arzu olunan nəticəni əldə etməkmeylinin özü fəaliyyət motivinə cevrilir.**
**Fəaliyyətin müvəffəqiyyəti və təkcə fərdi yox, ən başlıcası bütövlükdə qrupun uşaq kollektivinin müvəffəqiyyəti motivdən asılıdır. Əməkdə ictimai motivə tabe olan sərbəst davranışın formalaşdırılması uşağı fəallaşdırır, o, əmək vərdişlərinə yiyələnməyə. Tapşırığı nəinki düzgün, həm də səliqə ilə yerinə yetirmək bacarığı əldə etməyə calışır.**
**Yaşlıların əməyinin nəticələri uşaqlara böyük təsir göstərir. Uşaqlar onları müşahidə edərək öz " səyləri ilə eyni nəticəni əldə etmək imkanı haqqında fikirləşirlər. "**
**Beləliklə, məktəbəqədər yaşlı böyük uşaqların əməyə marağı, yerinə yetirilən işin keyfiyyətinə tələbkarlığı artır.**

**Əmək prosesində müəyyən nəticə əldə edilməlidir. Nəticə işin səmərəli gedişi ilə əlaqədar olur. İş keyfiyyətlə, sistemlə icra edilibsə, nəticə də yaxşı olur. Əməkdə nəticə fəaliyyətin məcburi komponentidir. Əməyin nəticəsi əvvəlki bacarıq və vərdişlərin qazanılması, keçirilən tədbirlərin pedaqoji cəhətdən düzgün təşkili, uşağın marağı, səyi, iş qabiliyyəti, səriştəsi və s. fərdi fərqlərdən də çox asılıdır. Uşaqlar tərəfindən əldə edilmiş nəticə müqayisə edildikdə və bu yolla hər kəsin işi qiymətləndirildikdə, onlar öz əmək fəaliyyətinin üstün və qüsurlu cəhətlərini görür və gələcək əmək prosesində bunları nəzərə alırlar. İşin sonunda çıxarılan nəticə uşaq aləminə güclü təsir göstərir.**

**Əməyin nəticəsini düzgün qiymətləndirmək, qazanılan nailiyyətləri bir-biri ilə müqayisə etmək yüksək tərbiyəvi əhəmiyyət kəsb edir. Bunun təsiri ilə uşaqlarda getdikcə bir-birinin əməyini qiymətləndirmək bacarığı əmələ gəlir.**

**3-4 yaşlı uşaqlar tərbiyəçi tərəfindən əməklərinə verilən qiymətdən sevinir və tədricən öz əməyinin nəticəsini başqasının əməyi ilə müqayisə etmək bacarığına yiyələnirlər. Belə müqayisə uşağı işi yenidən daha yaxşı icra etməyə sövq edir.**

**5-6 yaşlı uşaqları isə fəaliyyətin praktik cəhəti daha çox maraqlandırır. Uşaqlarda əmək nəticələrinə nail olmaq cəhdinin inkişafında bu fəaliyyətin motivi xüsusi əhəmiyyət kəsb edir. Bu zaman əmək prosesi öz-özlüyündə uşaqlara sevinc gətirir.**

**Əmək prosesində işin müvəffəqiyyətlə başa çatdırılmasına nail olmaq uşaq üçün vacib şərtdir. Bu, tərbiyəçinin uşağın əmək fəaliyyətindəki müsbət cəhətləri vaxtında görməsi və onları qiymətləndirməsindən çox asılıdır. İşi bəyənmə, tərifləmə uşağı daha yaxşı işləməyə ruhlandırır. İş müstəqil icra edildikdə uşaqda öz əmək qabiliyyətinə inamını artırır. Bütün əmək işləri prosesində tədricilik tələbinə riayət etmək lazımdır.**

**Uşaqlarda əməyə maraq tərbiyə edərkən yadda saxlamaq lazımdır ki, onlardan yüksək keyfiyyətli nəticə əldə etməyi tədricən, onların qüvvə və formalaşan vərdişlərinə müvafiq tələb etmək lazımdır. Sadə əmək proseslərinin səliqəli yerinə yetirilməsi lap əvvəldən tərbiyə edilməlidir. Daha mürəkkəb işlərdə müvəqqəti olaraq əmək nəticəsinin natamamlığı ilə barışmaq olar.**

**Uşağın öz nailiyyətlərini dərk etməsi olduqca vacibdir. Bu nailiyyətləri qeyd etmək lazımdır. Pedaqoq onları uşağın zirəkliyində , iş prosesində onun hərəkətlərinin sürətində və yayınmadan ,xatırlatmadan işi axıra catdırmaq qabiliyyətində, nəticənin daha yüksək keyfiyyətində görür.**

Uşaqların əməkdəki nailiyyətlərini pedaqoq ədalətlə qiymətləndirməlidir. Bu qiymət həmişə xeyirxah olmalıdır. Əgər uşaq nəyi isə etməkdə müfəffəq olmamışsa, bunun yalnız müvəqqəti olmasına onda inam yaratmaq lazımdır. Eyni zamanda uşağı mükəmməl yiyələnmədiyi vərdişə alışdırmaqdan ötrü müxtəlif situasiyalardan istifadə etmək lazımdır.

**Mövzu :3. Azərbaycan Respublikasının təhsil sistemi və məktəbəqədər tərbiyə.**

**PLAN:**

1. Təhsil sisteminin məzmunu
2. Təhsil müəssisələrinin formaları və tipləri
3. Məktəbəqədər təhsil
4. Müəllim və uşaq bağçası tərbiyəçisinə verilən tələblər
5. Müəllimlik və tərbiyəçilik işinin xüsusiyyətləri
6. Uşaq bağçası tərbiyəçisinin və müəllimin hüquqları

**ƏDƏBİYYAT:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Ə.Seyidov. Pedaqogika tarixi, Bakı, 1968.
4. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.
5. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
6. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.

**1.Azərbaycan Respublikasında təhsil sistemi dedikdə, ölkəmizdə insanı həyata hazırlayan təlim tərbiyə müəssisələrinin qarşılıqlı fəaliyyəti sayəsində meydana çıxan böyük bir qurum nəzərdə tutulur. Başqa sözlə, təhsil sistemi ölkə daxilində mövcud olan təlim tərbiyə müəssisələrinin məcmuyudur. Buraya dövlət və özəl statuslu məktəbəqədər tərbiyə müəssisələri, ümumtəhsil məktəbləri, kollec, peşə və ixtisas məktəbləri, gimnaziya, lisey, ali ixtisas məktəbləri, institutlar, universitetlər, məktəbdənkənar tərbiyə ocaqları və s. daxildir.**

**Ölkəmizdə təhsil sistemi Azərbaycan Respublikasının Konstitusiyası və Təhsil Qanunu əsasında idarə olunur. Qanunda qeyd olunur: təhsil sistemi müxtəlif pilləli təhsil proqramlarını ardıcıl həyata keçirən təhsil müəssisələri şəbəkəsindən, təhsil idarəetmə orqanlarından, təlim tərbiyə prosesi ilə məşğul olan digər müəssisə və təşkilatlardan ibarətdir. Təhsil sisteminin əsas məqsədi dövlət təhsil standartlarına uyğun biliyə, bacarığa, praktik hazırlığa, mütərəqqi dünyagörüşünə malik olan, xalqın milli, mənəvi, mədəni dəyərlərinə dərindən yiyələnən, insan hüquqlarına hörmət edən vətənpərvər və yaradıcı düşünən şəxsiyyət tərbiyə etməkdir.**

**Ölkəmizdə təşkil edilən təlim tərbiyə müəssisələri arasında sıx əlaqə vardır. Məsələn, məktəbəqədər tərbiyə müəssisələrində uşaqların əqli inkişafına, əxlaqi cəhətdən formalaşmasına, fiziki cəhətdən gümrah böyüməsinə nə qədər çox diqqət verilsə, bu ümumtəhsil məktəblərinin işini bir o qədər asanlaşdırmış olar. Eləcə də, ümumtəhsil məktəblərində işin keyfiyyəti nə qədər yüksək olarsa, ali məktəblərin işi də bir o qədər yaxşı nəticə verər və s. Buradan aydın olur ki, bu təhsil müəssisələri həqiqətən də sistem təşkil edir.**

**Respublikamızda təhsil sisteminin əsas prinsipləri dövlətimizin Konstitusiyasında və Təhsil Qanununda təsbit edilmişdir: irqi və milli mənsubiyyətindən, cinsindən, dinə münasibətindən və s. asılı olmayaraq bütün vətəndaşlar təhsil almaq hüququna malikdirlər; bütün uşaqlar üçün təhsil icbaridir və s.**

**Təhsil sistemi vahiddir və bütün tədris müəssisələri arasında qarşılıqlı əlaqə, ardıcıllıq vardır ki, bu da təlimin aşağı pilləsindən yuxarı pilləyə keçməsini təmin edir.**

**2. Təhsil müəssisəsi bir və ya bir neçə təhsil proqramı əsasında təlim tərbiyə prosesini həyata keçirir. Respublika qanunvericiliyində müəyyən edilmiş qaydada dövlət və qeyri dövlət strukturlu təhsil müəssisələri fəaliyyət göstərir.Bu müəssisələrdə təhsil ödənişsiz və ödənişli əsaslarla həyata keçirilir. Eyni zamanda, özəl təhsil müəssisəsi**

**müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatından keçdikdən sonra hüquqi status alır.**

**Azərbaycan Respublikasında təhsilalma prosesi aşağıdakı formalarda həyata keçirilir: əyani təhsil, qiyabi təhsil, evdə təhsil, məsafədən təhsil və s. Təhsil sistemində təhsilalma formalarının əlaqələndirilməsinə yol verilir.**

**Respublikamızda təhsil müəssisələrinin aşağıdakı tipləri vardır: məktəbəqədər təhsil, ümumi təhsil ( ibtidai, natamam orta, orta), ibtidai peşə - ixtisas, orta peşə - ixtisas, ali peşə - ixtisas, əqli və ya fiziki qüsurlu uşaqlar üçün xüsusi təhsil müəssisələri, əlavə təhsil ( məktəbdənkənar təhsil, ixtisasartırma və yenidənhazırlanma) müəssisələri.**

**3. Məktəbəqədər təhsilin məqsədi uşaqların erkən yaşlarından fiziki, əqli, mənəvi və psixi inkişafını pedaqoji qanunlar əsasında ilkin bilik, bacarıq və vərdişlərin formalaşdırılması, özülün qoyulması və uşaqların gələcək normal inkişafının istiqamətini təmin etməkdir. Məktəbəqədər təhsil ailədə və məktəbəqədər tərbiyə müəssisələrində həyata keçirilir.**

**Azərbaycan Respublikasının "Məktəbəqədər tərbiyə müəssisələri haqqında əsasnamə"sinə görə məktəbəqədər tərbiyə müəssisələrinin strukturu, tipləri və fəaliyyətinin əsasları aşağıdakı qaydada müəyyən edilmişdir. Məktəbəqədər tərbiyə müəssisələri dövlət və qeyri dövlət müəssisəsi ola bilər. Məktəbəqədər tərbiyə müəssisələrinin tipləri bunlardır: körpələr evi; körpələr evi-uşaq bağçası;uşaq bağçası; əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün məktəbəqədər tərbiyə müəssisələri; məktəb uşaq bağçası.**

**Bu tərbiyə müəssisələrində uşaqların yaşından asılı olaraq qruplar aşağıdakı qaydada təşkil olunur:**

- **kiçik yaşlı körpələr qrupu – 2 aylıqdan 1 yaşadək;**
- **orta yaşlı körpələr qrupu – 1 yaşdan 2 yaşadək;**
- **böyük yaşlı körpələr ürupu – 2 yaşdan 3 yaşadək.**

**Uşaq bağçasında və körpələr evi - uşaq bağçasında məktəbəqədər qruplar belə təşkil olunur: - bağçada kiçik yaş qrupu – 3 yaşdan 4 yaşadək;**

- **bağçada orta yaş qrupu – 4 yaşdan 5 yaşadək;**
- **bağçada böyük yaş qrupu – 5 yaşdan 6 yaşadək**
- **məktəbə hazırlıq qrupu.**

**Əsasnaməyə görə əqli və fiziki inkişafında qüsurlar olan uşaqlar üçün aşağıdakı müəssisələr təşkil olunur: nitqi qüsurlu uşaqlar üçün,**

**eşitmə qabiliyyəti pozulmuş uşaqlar üçün, görmə qabiliyyəti pozulmuş uşaqlar üçün, dayaq hərəkət orqanları qüsurlu uşaqlar üçün, zehni inkişafı geri qalan uşaqlar üçün, tez-tez xəstələnən uşaqlar üçün məktəbəqədər müəssisələr və qruplar.**

**Məktəbəqədər tərbiyə müəssisəsi ailənin və cəmiyyətin mənafeyinə uyğun olaraq uşaqların hərtərəfli inkişafına nail olmaq, təhsilə hazırlamaq, fiziki və psixi sağlamlıqlarını mühafizə etmək və möhkəmləndirmək kimi vəzifələri yerinə yetirir.**

**4. Müəllim və tərbiyəçinin vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır. Şübhəsiz ki, birinci növbədə müəllim və tərbiyəçiözü bu xüsusiyyətlərə malik olmalı, pedaqoji səviyyəsini daim təkmilləşdirməli, öz üzərində müntəzəm işləməlidir. Müəllim tərbiyəçi təlim tərbiyə işində başlıca simadır. Bəs əsl müəllim və tərbiyəçi necə olmalıdır? Müasir müəllimə və tərbiyəçiyə hansı tələblər verilir? Müasir müəllimə və tərbiyəçiyə tətbiq edilən bir sıra aparıcı tələblər vardır. Bu tələblərə konstruktiv, kommunikativ, qnostik və təşkilatçılıq bacarığı daxildir.**

**Konstruktiv tələb aşağıdakıları əhatə edir: təlim tərbiyə materialını qarşıya qoyulmuş məqsədin tələblərinə uyğun seçə bilmək, sistemləşdirmək, məktəbdə şagirdlərin, uşaq bağçasında uşaqların imkanlarına uyğunlaşdırmaq, şagird və ya uşaq tərəfindən yol verilə biləcək səhvləri, uşağın müəyyən situasiyada özünü necə aparacağını əvvəlcədən görə bilmək bacarığı; şagirdin və uşağın inkişaf layihəsini hazırlaya bilmək, yaranmış vəziyyətdən çıxmaq, işi planlaşdırmaq, maddi bazanı möhkəmləndirmək bacarıqları və s.**

**Kommunikativ bacarığa aşağıdakılar daxildir: uşaqların qəlbinə yol tapa bilmək, özünü onlara sevdirmək, uşaqlar arasında düzgün münasibətləri tənzim edə bilmək, valideyn və ictimaiyyətlə ümumi dil tapa bilmək, pedaqoji mərifətə malik olmaq, yeri gələndə gülməyi, hirslənməyi bacarmaq, ağır vəziyyətə düşdükdə ani müddətdə düşünüb düzgün tərbiyə yolu seçmək, bir sözlə münasibətlərin nizama salınması və s.**

**Qnostik bacarığa aşağıdakılar daxildir. Qnostik yunanca qnozis sözündən götürülüb, mənası idrak deməkdir. Qnostik bacarıqlara pedaqoji nəzəriyyəni bilmək və ondan yaradıcı şəkildə istifadə etmək, özünün və yoldaşlarının təcrübəsini ümumiləşdirə bilmək, elmi tədqiqat**

**işlərində iştirak edə bilmək, psixologiyanı bilmək və ondan istifadə etməyi bacarmaq, bir sözlə pedaqoji prosesin nəzəri əsaslarını bilmək bacarığıdır.**

**Təşkilatçılıq bacarıqlarına aşağıdakılar daxildir: uşaqları ictimai işlərə cəlb edə bilmək, bağçada uşaqları yaşlarına uyğun ictimai işlərə cəlb etmək, uşaqlar arasında düzgün vəzifə bölgüsü aparmaq, onların boş vaxtını günün tələbləri səviyyəsində düzgün təşkil etmək bir sözlə uşaqların fəaliyyətinə rəhbərlik etməyi bacarmaq və s.**

**5. Müəllimlik və tərbiyəçilik işinin özünəməxsus xüsusiyyətləri vardır. Müəllim tərbiyəçi məhdud görüş dairəsinə malik uşaqların gözünü dünyaya aşır, onlara bilik, bacarıq və faydalı vərdişlər aşılayır, Vətənin sabahı üçün ləyaqətli vətəndaş formalaşdırır. Müəllim və tərbiyəçidən yüksək yaradıcılıq, təşəbbüskarlıq, pedaqoji bacarıq və dözümlülük tələb olunur, çünki müəllim və tərbiyəçi müxtəlif xarakterə, fərdi xüsusiyyətlərə malik uşaqlarla işləyir. Bu işdə müvəffəqiyyət qazanmaq üçün müəllim və tərbiyəçidən uşaq psixologiyasının fərdi əlamətlərini məharətlə öyrənmək, fəalyyətdə onları nəzərə almaq qabiliyyəti tələb olunur. Bunun üçün müəllim və tərbiyəçi bir sıra mühüm fərdi keyfiyyətlərə malik olmalıdır. 1. Müəllim və tərbiyəçi dərin elmə, siyasi və pedaqoji nəzəriyyəyə yiyələnməli, sarsılmaz əqidəyə malik olmalıdır. Müəllim və tərbiyəçi Azərbaycan dövlətinin qarşıya qoyduğu məqsədə çatmaq üçün, xüsusilə, dövlət quruculuğu işində, müstəqillik, demokratiya uğrunda aparılan mübarizədə qabaqcıl olmalıdır. 2.Müəllim və tərbiyəçi geniş məlumata, yüksək mədəniyyətə malik olmalı, ölkəmizdə gedən iqtisadi və siyasi dəyişiklikləri, onların başvermə səbəblərini bilməli, meydana gələn elmi pedaqoji yenilikləri müntəzəm öyrənməlidir. 3. Müəllim və tərbiyəçi öz sənətinin peşəkar ustası olmalı, uşaqları təşkil və tərbiyə etmək texnikasına dərindən yiyələnməlidir. Bunun üçün o, pedaqogikanı, psixologiyanı, metodikanı və öz ixtisasını dərindən bilməli, bu sahədəki biliyini artırmalıdır. 4. Müəllim və tərbiyəçi pedaqoji fəaliyyətdə ancaq bilik verməklə kifayətlənməməli, eyni zamanda uşaqları sevməlidir. Bu məqsədlə müəllim və tərbiyəçi uşaq şəxsiyyətinə hörməti güzəştsiz pedaqoji tələbkarlıqla əlaqələndirməlidir. 5. Müəllim və tərbiyəçi öz üzərində müntəzəm çalışmalı, nöqsanlarını görməyi və onları tədricən aradan qaldırmağı bacarmalıdır.**

**6. Azərbaycan Respublikasının Təhsil haqqında Qanununda uşaq bağçası tərbiyəçilərinə və müəllimlərə bir sıra hüquqlar verilir ki, bunlar Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə uyğun olmaqla dövlət tərəfindən qorunur. Bu hüquqlar aşağıdakı sahələri əhatə edir: peşə şərəfinin və ləyaqətinin qorunması, normal iş şəraitinin yaradılması, təlimin forma, metod və vasitələırini sərbəst seçmək, təhsil müəssisələrinin nizamnaməsinə uyğun, onun idarə olunmasında iştirak etmək, təhsil sistemində seçkili vəzifələrə seçmək və seçilmək, ixtisasını artırmaq və yeni ixtisas almaq, qanunvericilikdə nəzərdə tutulmuş əlavə məzuniyyətə çıxmaq.**

**Ölkəmizdə müəıllim və uşaq bağçası tərbiyəçilərinin fəxri adları onlara ömür boyu məxsus edilir. Onlar yalnız məhkəmənin qərarına görə bu adlardan məhrum edilə bilərlər. Müvafiq qərarlara görə uzun müddət işləyən bağça tərbiyəçiləri və müəllimlər üçün təltiflər, əmək haqqı və təqaüdlərin artırılması müəyyən edilir.**

**Özünün elmi, ideya-siyasi biliyini artırmağa cəhd edən, yüksək mədəniyyətə, dərin biliyə, pedaqoji ustalığa malik olan hər bir bağça işçisi və müəllim yüksək nüfuza malik olur, uşaqların, valideynlərin və ictimaiyyətin dərin hörmətini qazanır.**

**Mövzu: 4. Müdriklərin əmək tərbiyəsilə bağlı düşüncələri.**

**Plan:**

1. **N.Tusinin əsərlərində əmək tərbiyəsi.**
2. **N.Gəncəvi-“ Xəmsə”də əmək tərbiyəsinin tərənnümü.**
3. **A.S.Makarenkonun əsərlərində əmək tərbiyəsi.**

**Ədəbiyyat:**


1. **Z.Qaralov. Tərbiyə. Bakı: Pedaqogika- 2003.**
2. **M.Muradxanov. A.S.Makarenkonun pedaqoji irsi. Bakı-1965.**
3. **N.Tusi.Əxlaqi-Nasiri. Elm nəşriyyatı-1989.**
4. **R.Mursaqulova.N.Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı-2012.**

5. **B.Apoyev.N.Gəncəvinin pedaqoji görüşləri. Bakı-2008.**

**Dünyada sürətlə genişlənməkdə olan qloballaşma milli-mənəvi dəyərlərin öyrənilməsi və tədqiqini reallaşdırmışdır.**
**İnformasiya kommunikasiya texnologiyalarının imkanları artdıqca milli və bəşəri dəyərlərin keyfiyyət göstəriciləri haqqında təsəvvürlər barədə tarixi göstəricilərdə müəyyən dəyişikliklərin baş verməsi qaçılmazdır. Bu mühüm amili nəzərə alaraq bütün sahələrdə minilliklər ərzində qazanmış olduğumuz dəyərlərin mahiyyətini bilmək, anlamaq, tətbiqetmək, təhlil və tərkib etmək nəticədə dəyərləndirmək ona sahib olmaq deməkdir. Bu baxımdan Heydər Əliyev fondunun reallaşdırdığı layihələr təqdirə layiqdir. Fondun dəstəyi ilə Azərbaycanın ensiklopediyaçı alimi və dövlət xadimi Məhəmməd Nəsirəddin Tusinin (1201-1274) 400 səhifəlik "Əxlaqi Nasiri" əsərinin 2009-cu ildə nəfis şəkildə yenidən çap olunması fikrimizi təsdiqləyir. Orta və Yaxın Şərq məktəblərində əsrlər boyu əxlaq dərsliyi kimi şöhrət qazanmış özündən əvvəlki etik-fəlsəfi fikirlərə yekun vuran "Əxlaqi Nasiri" də Tusi insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər və s. ilə əlaqədar görüşlərini yüksək səviyyədə ifadə etmişdir.**
**Əsərdə "övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında" təsbit olunan material (səh.245-262) öz mahiyyətinə görə zənginliyini bu gündə saxlayır. Tərbiyə işinin səmərəli təşkilində uşaqların mənəvi cəhətdən sağlam inkişafında metodoloji səciyyə daşıyan dəyərli fikirlər min illərin süzgəcindən keçərək təsdiqini tapmış və əhəmiyyətini saxlamışdır. Əsərdə təqdim olunan bütün fikirlər səbəb-nəticə kontekstində təqdim olunaraq nəzəri və praktik əsaslarla əlaqələndirilir.**
**Məsələn: "Uşaq olcaq ilk növbədə ona yaxşı bir ad qoymaq lazımdır". Əgər belə etməsək nə olar? "Namünasib ad qoysalar, bütün ömrü boyu**

bundan xəcalət çəkər, qanı qaralar”. Uşağın tərbiyəsində ardıcıllığın (alqoritm) hansı vacib amillərlə bağlı olduğunu Tusi təbii şərtlərlə əlaqələndirir. Hər bir valideyn arzu edir ki, gözəl, ağıllı, sağlam övlad dünyaya gətirsin. Görəsən bunun üçün Tusinin qeyd etdiyi vacib tələblərə əməl olunurmu? Əsla yox. Çox vaxt uşağına dayə tutanlar heç bir diaqnostik qiymətləndirmə aparmadan yanlışlığa yol verirlər. Problemin həllini Tusi belə izah edir:

Südəmər bir uşaq tutmamış maya,
Tutmayın siz, axmaq, xəstə bir daya,
Süd ilə bədənə girərsə azar,
O, bədəndən, yalnız öləndə çıxar!

“Uşaq süddən ayrılıqdan sonra hələ əxlaqı korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır”. Əsərdə diqqəti cəlb edən iki məqama ananın övlada təmiz süd verməsi və müddət bitəndən sonra ona ağıllı bir dayə tutmaqla, boşluğa yol verməmək. Yoxsa uşaqda əxlaq korlana bilər. Sual olunur ilk baxışda çox sadə və problemli görünməyən bu qaydalara düzgün əməl edilirmi? Əgər dünyaya gələn uşaq sağlam ananın bətnindən dünyaya gəlib maya tutana qədər südəmər dövrünü yaşayırsa təbiətində olan fitri nöqsanlara görə, pis adətlərə meyl edə biləcəyindən vaxtından əvvəl onun qarşısı alınırsa növbəti addım əxlaqını saflaşdırmaqdır.

Elmi mənbələrdə ana südünün möcüzə olması reallıqları ilə biz həyatda üzləşirik. Onun gizli sirləri hələ tamamilə açılmamışdır. O, sadəcə uşağın qidası deyil, hər iki tərəf üçün (ana-bala) min bir faydası olan sirli dünyadır. Tədqiqatçı mütəxəssislərin apardıqları araşdırmalardan gəldikləri nəticələrinin bəzi məqamlarını təqdim etməyi məqsədə uyğun sayırıq:

* Ana südü həmişə körpə üçün uyğun temperaturda olub, alergik xəstəliklərdən qoruyur.
* Ananın doğuşdan sonra övladına verdiyi ilk südə el arasında “ağız südü” deyirlər. Bu süd körpənin ilk peyvəndi sayılır.
* Ana südü ilə qidalanan uşaqlarda mədə-bağırsaq və tənəffüs yolları xəstəliyi çox nadir hallarda olur, qulaq infeksiyalarına yoluxma riskini azaldır.
* Ana südü təbii sakitləşdirici və yuxu dərmanıdır.
* Döş əmən körpənin dişləri daha sağlam və səliqəli inkişaf edir.

Ana südünün əhəmiyyəti haqqında mütəfəkkir alim Nəsirəddin Tusinin fikirləri indi öz aktuallığına görə dünyanın ən məşhur həkimləri,

**Ümumdünya səhiyyə təşkilatı və UNİCEF – diqqətini daha çox özünə cəlb edərək analara körpələrini əmizdirməyi məsləhət görür.**
**2010-cu ildə Milli məclisdə qəbul olunan "Ana südü haqqında qanun" məsələnin nə dərəcədə əhəmiyyətli olduğunu ifadə edir. Narahatedici cəhət ondan ibarətdir ki, Azərbaycanda körpəni ana südü ilə qidalandıran anaların sayı aşağıdır.**
**Hər bir tərbiyəçi valideyn-uşaq şəxsiyyətinin normal inkişafını şərtləndirən başlıca amillərin mahiyyətini mükəmməl bilməli və tərbiyədə səmərəli vasitə kimi istifadə etməlidir.**
**Tusi uşağın tərbiyəsində idrakı qüvvələrdən əvvəl utanmaq, həya əlamətlərinin özünü göstərməsini nəzərə almaq lazımdır. Uşağın həyalı olmasını onun nəcibliyinə sübut kimi dəyərləndirən Tusi tərbiyənin birinci şərti olaraq təbiətini korlaya bilən səbəblərdən qorumağı vacib sayır. Ona görə ki, uşaq nəfsi sadə olar, ətrafdakıların təsirinə tez məruz qalar.**
**Uşağı mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etməyi lazım bilən Tusi ağıla-şüura, idraka təsir edən başa salmaq yolunu vasitə kimi diqqətə çatdırır. Başa salmaq indi bilmək, anlamaq, tətbiq, təhlil, tərkib və dəyərləndirmə mərhələlərindən keçməyi tələb edir. Təfəkkürə əsaslanan yeni təhlil proqramı Tusinin tərbiyə ilə bağlı ənənədən yeni pedaqoji texnologiyaların köməyi ilə tətbiqi səmərəli nəticələr verər.**
**Uşaqlıq dövrü üçün xarakterik olan mehribanlıq və məhəbbət doğuran kəramətlər, adət-ənənə, davranış qaydalarını yerinə-yetirməyə təhrik etmə, bəd əməllərə nifrət, xoş əməllərə həvəsləndirmək, yemək qaydalarını öyrətmək və s. məsələlərə düzgün münasibətin tərbiyə olunması barədə dəyərli fikirlər söyləyən Tusi eyni zamanda müəyyən tənbehlərin tətbiqini də istisna etmir.**
**Uşaq davranışında yemək qaydalarına əməl etməklə bağlı həmişə tərbiyəvi söhbətlərin aparılması əhəmiyyət kəsb edir. Bu məsələyə xüsusi diqqət göstərən Tusi yemək qaydaları haqqında yazır: "Əvvəlcə əli, ağzı, burunu tərtəmiz yuyub, sonra süfrə başına gələrlər. Yeyərkən üst-başını bulamamalı, üç barmaqla yeməli, ağzını böyük açmamalı, tikələri iri-iri götürüb tez-tez içəri ötürməməli, yeməyi ağızda gəvələməməli, barmağı yalamamalı, xörəyin rənginə diqqətlə baxmamalı, onu iyləməməli və seçməməli" (səh.255).**
**Xalq pedaqogikası kimi səciyyə daşıyan "Əxlaqi-Nasiri"də tərbiyə məsələləri indiki qloballaşan dünyada təhsilin məzmununda milli-mənəvi dəyər olub təlim prosesində müvafiq standartlarda ifadə olunur.**

**Dərin əhəmiyyət kəsb etmiş pedaqogikamızda tərbiyənin tərkib hissələri sırasında əmək tərbiyəsi xüsusi yer tutur.**
**Tərbiyəçinin məqsədyönlü,planlı və mütəşəkkil rəhbərliyi ilə gənc nəslin psixoloji və əməli cəhətdən zəhmətə hazırlanması, habelə əmək mədəniyyəti vərdişlərinin ona aşılanması prosesi əmək tərbiyəsidir.**
**Dahi Nizaminin əsərlərinin, xüsusilə," Xəmsə"dəki poemalarının yeni pedaqoji təfəkkür baxımından tədqiqi və təhlili göstərir ki, burada tərbiyənin digər sahələri ilə yanaşı, əmək tərbiyəsi məsələləri də özünəməxsus yer tutr.**
**"Həyat əməkdir" –deyən şair pedaqoqun əqidəsinə və möhkəm inamına görə insan yalnız halal əməyi, böyük zəhməti hesabına cəmiyyətdə yüksək mövqe tutb, şan-şöhrət sahibi ola bilər. Həyatdakı bütün çətinliklərə insan öz yorulmazlığı, çalışqanlığı ilə qalib gəlməlidir.**

**Əməkdir insanı ucaldan inan,**
**Əməklə çıxarsan fırtınalardan.**

**Şair pedaqoqun fikrincə halal zəhmət insanı firavanlığa, şadlığa, rahatlığa, çan-çöhrətə çatdırmaqla yanaşı, onun əxlaqını saflaşdırır, onda mərhəmət və şəfqət hissləri oyadır.Ona görə də insan yalnız "öz halal zəhmətilə "namuslu insan" adı qazanmağa çalışmalı, zəhmət tikanı onu incitsə də tez usanmamalı, dilənçilik yolunu tutmamalıdır:**

**Qana qəltan etsə də səni zəhmət tikanı,**
**Çalışmaqdan usanma, işə alışdır canı.**
**Öz halal zəhmətinlə namuslu insan sayıl,**
**Hər yetənə alçalma, əl açıb olma sai.**

**" Hər zəhmətin sonunda bir səadət var"-deyən dahi şairin fikrincə insan xöşbəxt həyat sürmək istəyirsə, dəyanətli və dözümlü olmalı, ən ağır yükün altına girməyi bacarmalıdır.**

**Xöşbəxt odur dözümə ləyaqəti var onun,**
**Ağır yükə qatlaşmaq dəyanəti var onun.**

**" Vaxtı boş kecirmə qələm al ələ, zəhmət cək dünyada bilik kəsb elə "məsləhətini verən şairin fikrinə görə əmək, halal zəhmət, əzmkarlıq, çalışqanlıq təkcə əxlaqi ,sosial-iqtisadi əhəmiyyət daşımır,eyni zamanda ağıl tərbiyəsinin vacib amillərindən biridir. İnsan nə qədər istedadlı olsa da, o, gecə-gündüz çalışmasa, öz biliyini zənginləşdirməsə pas atan dəmirə bənzəyər, nəticədə saxsı qab satanlara tay olar:**

**Çox iti zehinlər yatan oldular,**
**Axırda saxsı qab satan oldular. Yaxud da, " İsgəndərnamədə" də digər analoyi misal:**

**Hər şeyi özünçün əkmək nə yarar?**

**Dünyada hesabsiz ruzi yeyən var!**

**Keçənlər zəhmətlə əkdiyi bağdan**
**Gələnlər meyvəni dərmiş hər zaman.**
**Keçənlər bir çox sey əkmişdir bizə,**
**Biz də əkməliyik gənc nəslimizə.**
**Dünya bir tarladır diqqətlə baxsaq,**
**Hamı bir-birinə cütcüdür ancaq.**

**Yuxarıda qeyd olunan misallardan aydın görünür ki,dahi sair-pedaqoq şəxsiyyətin formalaşmasında əmək fəaliyyətini əsas amillərdən biri hesab etməklə yanaşı, əməyin həm sosial-iqtisadi, həm əxlaqi-tərbiyəvi, həm də idrak-əqli əhəmiyyətini yüksək qiymətləndirmiş, bütün bu cəhətləri böyük ustalıqla, qüdrətli qələminin gücü ilə və konkret nümunələr əsasında şərh etmişdir.**

**Böyük pedaqoq-şairin əmək və əmək tərbiyəsi haqqındakı baxışları sistemində əmək adamlarına hörmət məsələsi xüsusi yer tutur. Həm də burada diqqəti cəşb edən cəhət odur ki,sair sadə əmək adamlarına daha böyük hörmətlə yanaşıb,onların halal əməyini, cəfakeşliyini, mərdliyini, cəsarətini yüksək qiymətləndirmişdir. Belə ki, sairin yaratdığı əməkçi qəhrəmanların əksəriyyəti sadə peşə sahibləridir: əkinçi, kərpickəsən,daşyonan, bənna,çoban və s.**

**Beləliklə, dahi şair və tərbiyəsi, peşəyönümü və iqtisadi tərbiyə ilə bağlı fikirlərini aşağıdakı kimi ümumiləşdirmək olar:**

**-əmək fəaliyyəti insan şəxsiyyətinin formalaşmasında başlıca amillərdən biridir;**

**-insan həyatının əsasını təşkil edən əmək həm maddi firəvanlıq, həm də şan-şöhrət mənbəyidir;**

**-insan mənəviyyatının saflığı onun halal, namuslu əməyindən çox asılıdır;**

**-əmək, zəhmət həm də ağıl tərbiyəsi və fiziki tərbiyənin başlıca amillərindən biridir;**

**-zəhmət tikanı insanı qanına qəltan etsə də o, namuslu əməyindən əl cəkməməli, kimsəyə möhtac olmamalı, it kimi yad süfrəsinə göz dikməməli, öz halal qazancı ilə yaşamamalıdır;**

**-insan təkcə özü üçün deyil, bütün xalqı üçün, cəmiyyət üçün yorulmadan, usanmadan çalışmalıdır ki, " dünya əməlindən geysin zərxara;"**

**-qəflət yuxusunda qalıb müftəxorluq. Avaraçılıq, meşşanlıq edən kəslər heç olmasa arılardan, qarışqalardan zəhmətsevərliyi öyrənsinlər; heç bir işə yaramayan insan beli şikəst eşşəyə bənzər;**
**-həyatda hər bir peşənin öz gözəlliyi, öz əhəmiyyəti var; başlıcası, peşəni düzgün seçib onun kamil ustası olmaqdır, çünki, " kamil bir palançı olsada insan, yaxsıdır yarımçıq papaqçılıqdan";**
**Böyük pedaqoq, unudulmaz yazıçı, özünün novatorluğu ilə bəşəri nüfuz qazanmış A.S.Makarenkonun pedaqoji fəaliyyəti XX- əsrin 20-30-cu illərində o dövrün məlum hadisələri - inqilab, vətəndaş müharibəsi nəticəsində valideynlərini itirmiş, sahibsiz, evsiz-eşiksiz qaldıqlarından qanun pozanuşaqların tərbiyəsi, onların yenidən həyata qaytarılması sahəsindəki gərgin əməyi ilə bağlı olmuşdur.**
**A.S.Makarenkonun ən böyük xidməti sərgərdan həyat tərzi keçirən yeniyetmələrin kütləvi surətdə yenidən əmək tərbiyəsi baxımından praktik olaraq həyata keçirməsi olmuşdur. Onun fəaliyyəti başlıca olaraq iki uşaq tərbiyə müəssisəsi ilə bağlı olmuşdur. Bunlardan biri Poltava yaxınlığındakı "Uşaq əmək" koloniyası,digəri isə Xarkov yaxınlığındakı əmək kommunası idi.**
**Bu müəssisələrə rəhbərlik etdiyi zamanlar o, həmin dövr üçün xarakterik olan "Kollektivdə kollektiv vasitəsilə tərbiyə nəzəriyyəsi"ni işləyib hazırlamış və bununla da tarixə novator pedaqoq kimi daxil olmuşdur. Bununla bele ə o, kommunarların təlim və tərbiyəsini istehsalat əməyi ilə birləşdirmək haqqında ideyasını praktiki olaraq həyata keçirmiş, ailə tərbiyəsinə aid elmi-pedaqoji cəhətdən əsaslandırılmış yeni nəzəriyyənin prinsip, üsul və vasitələrinin fəal təbliğatçısı olmuşdur.**
**A.S.Makarenko tarixə həm də tanınmış yazıçı kimi daxil olmuşdur. Onun bədii yaradıcılığı ədəbi və elmi-pedaqoji istedadın vəhdətinin gözəl timsalıdır. Onun bədii əsərləri, ilk növbədə, "Pedaqoji poema", "30-cu ilin marşı", "Qüllələr üzərində bayraqlar", həmçinin "Valideynlər üçün kitab" adlı publisistik məqalələri yeni insan tərbiyəsi nəzəriyyəsinin yaranmasına və əmək tərbiyəsinin inkişafına xidmət etmişdir. Bu əsərlər uzun illər müəllim və tərbiyəçilərin, ümumiyyətlə xalq maarifi işçilərinin stolüstü kitablarından olmuşdur. Zəmanəmizdə də bu əsərlər öz aktuallığını və dəyərini qoruyub saxlayır.**

**Mövzu-5. Məktəbəqədər yaşlı uşaqların əmək bacarıqlarının tərbiyə edilməsi.**

**Plan:**

1. **Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin mahiyyəti.**
2. **Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin məqsəd və vəzifələri.**
3. **Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin məqsəd və vəzifələri.**

**Ədəbiyyat:**


1. **Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000**
2. **Məktəbəqədər pedaqogika."Maarif", Bakı, 1964.**
3. **Uşaq bağçası. Bakı-Maarif. 1988.**
4. **A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.**
5. **Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi . Bakı, " Maarif "1989.**


**Bütün xalqlar, görkəmli filosoflar və pedaqoqlar insanın həyatında əməyin rol oynadığını dönə-dönə qeyd etmişlər. Qədim Roma filosofu Senakaya görə nəcib ağıllar əməklə cilalanır. " Avesta"da, müqəddəs kitab olan "Qurani-Kərimdə" də əməyə, zəhmətə, əkib becərməyə xüsusi diqqət yetirilmişdir.Məhəmməd peyğəmbər deyirdi ki, hər bir insan əməklə məşğul olmalıdır.Əməklə, zəhmətlə məşğul olub ruzi qazanan insan qənaətcil olur.**

**Xalqımızın milli bayramı olan Novruzun qaydalarında də əməyə, əmək nəğmələrinə böyük yer verilmiş, əmək sağlamlıq, gümrahlıq mənbəyi kimi hesab edilmişdir.**

**Azərbaycanın görkəmli maarifpərvəri Həsən bəy Zərdabi maddi nemətlərin əməyinin bəhrəsi olduğu fikrini inkişaf etdirərək yazırdı:" Fiziki əmək necə deyərlər, xəstəlikləri müalicə edir, şərə qalib gəlir, insanda intibah əmələ gətirir."**

**Əmək tərbiyəsinin başlıca vəzifəsi uşaqlarda əməyə düzgün münasibət formalaşdırmaqdan ibarətdir. Əmək tərbiyəsinin xüsusiyyətlərini oyunla, təlimlə müqayisə etdikdə, uşağın yaş xüsusiyyətlərini nəzərə aldıqda məsələ müvəffəqiyyətlə həll oluna bilər. Düzgün mahiyyətə, məzmuna malik təşkil olunan məqsədyönümlü həyata kecirilən əmək tərbiyəsi uşağın şəxsi keyfiyyətrlərinin inkişafına müsbət təsir göstərir. Əmək tərbiyəsinin əhəmiyyəti ona görə böyükdür ki, əmək fəaliyyəti orqanizmin həm fizioloji inkişafında, həm də yüksək mənəvi keyfiyyətlərə yiyələnməsində rol oynayır.**

**Məktəbəqədər müəssələrdə tərbiyə və təlim proqramında deyilir:" Uşaqlarda işləmək arzusu bacarığı tərbiyə etmək.Əməyin məzmununu genişləndirmək hər bir uşağın əməkdə müntəzəm iştirakını təmin etmək. Verilən tapşırıqları ( fərdi, kollektiv) növbətçilik vəzifəsini müstəqil yerinə yetirmək, kollektiv əməkdə, otağın yaxud sahənin təmizlənməsində fəal iştirak etmək, əməyin nəticələrinə qayğı ilə yanaşmağı öyrətmək."**

**Dahi Nizami Gəncəvi əsərlərində əməyə və əməkçi insanlara yüksək qiymət vermişdir.O, " Sirlər-xəzinəsi" poemasında yaratdığı " Kərpickəsən kişinin dastanıı"nda qoca kərpickəsənin dili ilə gənc oğlana deyir:**

**" Onun üçün öyrətdim ki, əlimi bu sənətə,**

**Bir gün sənə əl acıb düşməyim xəcalətə."**

**Uşaq bağçası tərbiyəçiləri uşaqları əməyə, halal zəhmətə alışdırmalı, onları bu ruhda tərbiyə etməlidirlər. Bunun üçün isə klassiklərin əsərlərindən, sifahi xalq ədəbiyyatı nümunələrindən, müasir şair və yazıçıların yaradıcılığındannümunələr gətirməli, uşaqları əməyə məhəbbət ruhunda tərbiyə etməlidirlər.**

**Y.A.Komenski məktəbəqədər yaş dövründən başlayaraq uşaqların əməklə məşğul olmasının üstünlüklərindən danışır, onunla əlaqədar müsbət adət və vərdişlər tərbiyə etməyə üstünlük verərək yazırdı:**

**" Xeyirxahlıq, boşboğazlıq sayəsində deyil, iş görmək nəticəsində inkişaf edir.( Y.A.Komenski, seçilmiş pedaqoji əsərləri, Azərnəşr, 1953, səh. 57.)**

**İnsan həyatında əmək elə bir rol oynayır ki, onsuz onun bütün ləyaqəti itmiş olur. ”**

**İnsan həyatında əmək elə bir rol oynayır ki, onsuz onun bütün ləyaqəti itmiş olur.**

**Rus pedaqoqu K.D.Uşinski qeyd edirdi ki, əmək insanın inkişafı üçün zəruri şərt olmaq etibarı ilə, həm də onun layiq olduğu ləyaqətin mühafizəsinin mühüm şərtidir.**

**K.D.Uşinski daha sonra yazırdı: “ Şəxsi əməksiz insan irəliyə doğru hərəkət edə bilməz, o, geri getməlidir. Əmək insan xöşbəxtliyinin zəruri şərtidir.” ( K.D. Uşinski. Seçilmiş pedaqoji əsərləri, 1, Cild, bakı, Maarif, 2983, səh.255. )**

**Uşaqların əmək tərbiyəsinə məktəbəqədər yaşlı uşağın ilk dövrlərində başlanır. Məktəbəqədər yaşlı uşaqların gələcəkdə ləyaqətli şəxsiyyət kimi yetişməsində ( məktəbəqədər yaş dövrünün ilk dövrlərində) əmək prosesində məsuliyyətli olmaq özünə nəzarət, qarşılıqlı kömək kimi əxlaqi hisslərə yiyələnməsinə şərait yaradır.**

**Uşaq bağçasında əmək tərbiyəsinin məqsəd və vəzifələri. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin qarşısında yaşlıların əməyi ilə tanışlıq, onların əməyinə hörmət hissinin tərbiyəsi, sadə əmək bacarığının tərbiyəsi, əməyə marağın formalaşdırılması. əməyin fərdi və ictimai xarakter daşıdığının öyrənilməməsi və s. məqsədlər qoyulur.**

**Hərəkətlərin məqsədəuyğun xarakteri , əyani hərəkətə səciyyəvilik verən bu xarakter təqlidetmə əsasında əmələ gəlir. Uşağın təqlid etməsi əvvəldən düşünülmüş xarakter daşıyır. L.Vqodski qeyd edirdi ki, hərəkətin başa düşülməsi təqlidetmə üçün zəmin yaradır, təqlidetmə isə ilk sadə istiqamətləndirici fəaliyyətin mühüm şərtidir.**

**Paltarını, ayaqqabısını müstəqil surətdə geyinib soyunmaq, yemək, saçlarını daramaq, nəyi isə təmizləmək istəyən iki yaşlı uşağın hərəkətləri primitivdir, lakin olduqca çox əhəmiyyətlidir. Əksər hallarda bu hərəkətin yerinə yeririlməsi ilə məqsədə nail olunur. Bu uşağın əmək fəaliyyətinin başlanğıcıdır.**

**Beləliklə uşaqlar manipulyativ xarakterli prosessual hərəkətlərdən əşyalarla oyuna keçir ki bu oyunun da, gedişində o bunları tədricən dərk edir ki, həmin əşyalarla bağlı olan hərəkətlə sadə, lakin artıq şüurda oyanan məqsədə gətirib çıxarır.**

**Müstəqil hərəkət etməyə ilk cəhdlərdə uşaq şəxsiyyətinin fəallığı, müstəqilliyi, məqsədəuyğunluğu, təşəbbüsü, fiziki qüvvə və əqli gərginlik tələb edir.**

**Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin vəzifələrini aşağıdakı kimi qruplaşdırıla bilər:**

1. **Yaşlıların əməyinə müsbət münasibət tərbiyəsi, qüvvəsi daxilində onlara kömək etmək səyi, əməyin nəticələriniöyrənmə meylinin tərbiyəsi daxildir. Bu zaman uşaqlarda həyatda əməyin labüdlüyü, yaşlıların ona münasibəti, onun ictimai xarakter daşıması, yaxud yaxşı işləməyi, ətrafdakılara qayğıkeş diqqətli münasibət bəsləməyin nə demək olduğu haqqında bilik və təsəvvürlərin formalaşdırılması.**

2. **Əmək adət və vərdişlərinin yaranmasına, formalaşmasına və onların daha da təkminləşməsinə, əmək fəaliyyətinin genişlənməsinə, eləcə də səliqəli məharətlə, cəld işləmək bacarığına yiyələnməyə yönəldilən məsələlər daxildir. Uşaqlarda sadə əmək bacarıqları və vərdişlərinin uşaq şəxsiyyətinin formalaşmasında böyük rolu vardır.**

3. **Uşaqlarda bəzi şəxsi keyfiyyətlərin-əməkdə səy göstərmək adətinin, məsuliyyət hissinin, qayğıkeşliyin, qənaətcilliyin, əməkdə iştirak etməyə hazırlığın tərbiyəsinə yönəldilmişdir.**

**“ Məktəbəqədər müəssələrin tərbiyə və təlim proqram”ında göstərilir ki, uşaq bağçasının orta qruplarından başlayaraq uşaqlarda əməkdə səy göstərmək adətuinin formalaşması məsələsi qoyulur. Bununla əlaqədar orta qrup tərbiyəçisinin üzərinə mühüm vəzifələr düşür. O, 4-5 yaşlarında əməkdə səy göstərmək bacarığını formalaşdırır. Beş yaşlılar qrupunda uşaqlara bir qədər də yüksək tələblərin verilməsi ilə bu məsələ mürəkkəbləşir.**

4. **Özünün və ümumi işin təşkili vərdişlərinin tərbiyəsi aiddir. Uşaqlar əmək fəaliyyəti üçün hər şeyi qabaqcadan hazırlayır, iş tamamlandıqdan sonra isə istifadə edilmiş alətlər təmizlənir və yerinə qoyulur. Beş yaşlılar qrupunda uşaqlar öz işinin planlaşdırılması məsələləri-işin ardıcıllığını planlaşdırmaq, iştirak edənlər arasında vəzifə bölgüsü aparmaq, işdən sonra təmizlik aaprmada razılığa gəlmək bacarığı irəli sürülür.**

5. **Əmək prosesində uşaqlar arasında qarşılıqlı münasibətlərin formalaşması məsələləri- kollektivdə ahəngdar və mehribancasına işləmək, bir-birinə köməklik göstərmək, yaşlıların keyfiyyətini qiymətləndirmək, ona hörmətlə yanaşmaq bacarığı tərbiyə olunur.**

**Yüksək keyfiyyətlə aparılan yərbiyəvi işin nəticəsi olaraq uşaqlar bilik, işləmək bacarığı, həm də əməyin nəticəsinə nail olurlar.**

**Uşaqların əməyində uzaq məqsədlər qoyulmalıdır. Lakin bu məqsədlər uşağın əməyə düzgün münasibətinin formalaşmasında mane olmamalıdır.**

**Uşaqların əməkdə məqsədyönlülüyünün inkişafı bağça yaşının ilk mərhələlərindən onun birgə fəaliyyətinin formalaşması əhəmiyyətlidir. Uşaq əməyinə məqsədyönlü fəaliyyət kimi baxmaq, onlarda müstəqil olmaq məqsədqoyma və onu yerinə yetirmə qabiliyyətinin inkişaf etdirilməsi vacibdir.**

**Əməkdə sadə motivlərin başlanması hələlik uşaqların yaşlıların əməyində iştiraka hazırlığın ilk elementidir, lakin bu halda tərbiyəçi və ya valideynin həvəsləndirilməsindən asılı olmayaraq motivləşdirilmə həlledici amilə çevrilir.**

**Böyük və məktəbəhazırlıq qruplarında əməyin ictimai motivləri müəyyənləşdirilir. Məktəbəqədər yaşlı uşaqlarda motivlə fəaliyyət məfhumları arasında asılılıq yaranır. Uşaqlar nəyi və nə üçün icra edəcəkləri arasındakı əlaqəni görürlər.**

**6 yaşlılarda müstəqil olaraq məqsəd qoya bilmək qabiliyyəti təşəkkül tapır.**

**3. Qrupda əmək şəraitinin yaradılması-Əməyin təşkili formaları.**

**Uşaq bağçasında qəbul olunmuş məktəbəqədər yaşlı uşaqların əməyinin təşkili formaları-tapşırıq, növbətçilik və kollektiv əməkdir.**

**Bu sadalananlar nə deməkdir? Uşaqların tərbiyəsi üçün onlardan hər biri nə kimi imkan verir? Bu formaları nəzərdən keçirək.**

**Tapşırıqlar:**

**Əmək tapşırıqları –məktəbəqədər yaşlı uşaqların əmək fəaliyyəti təşkilinin nisbətən sadə formasıdır.**

**Bunlar kicik məktəbəqədər yaşlı uşaqlarların əmək fəaliyyəti təşkilinin nisbətən sadə formasıdır.**

**Bunlar kicik məktəbəqədər yaşlı uşaqlarla aparılan işdə o vaxt xüsusi əhəmiyyət kəsb edir ki, əmək hələ onlar üçün planlı və müntəzəm fəaliyyət deyil.Bu yaşda uşaqlar əksər hallarda oyun və əmək tapşırıqlarını ayıra bilmirlər, öz şəxsi təşəbbüsləri ilə işləməyi bacarmırlar, yaşlılar onları müxtəlif tapşırıqlarla əməyə cəlb edirlər. Tərbiyəçi, dayə uşaqlara müraciətlə**

**nə isə bir iş görmələrini: hər hansı bir şeyi, əşyanı gətirməyi, gülləri suvarmağı, balıqları yemləməyi, musiqi məşğələsinə gəlməyi soruşmağı və s. xahiş, ya da tələb edirlər.**

**Əmək tərbiyəsi dedikdə, uşağın tək və ya yaşıdlarından kiminləsə birlikdə yerinə yetirəcəyi konkret vəzifə nəzərdə tutulur.**

**Tapşırmaq-özünəxidmət, eləcə də kollektiv əməklə bağlı hər hansı bir işi yerinə yetirməyi uşağa həvalə etməkdir.**

**Növbətçilik:**

**Növbətçilik-tapşırıqla müqayisədə uşaq əməyinin təşkilinin daha mürəkkəb formasıdır.O, uşaqdan daha cox müstəqillik tələb edir. Tərbiyəçi uşağı tapşırığın yerinə yetirilməsinə cəlb edərkən hər hansı iş prosesini bir sıra ardıcıl tapşırığa bölə bilər.Məsələn: " salfetləri gətir"," İndi isə qaşıqları düz", " Çörəkqabını stolun üstünə qoy" və s. Tərbiyəçi növbətçilərə ümumiləşdirilmiş şəkildə tapşırıqlar verir. Axı onlara tapşırılan işi tamamilə yerinə yetirməyi öyrədirlər.**

## Mövzu: 6. Məktəbəqədər yaş dövründə şəxsiyyətin inkişafı və tərbiyəsi.

**PLAN:**

1. İnsan şəxsiyyətinin sosial mahiyyəti haqqında
2. Şəxsiyyətin formalaşmasında irsiyyətin mövqeyi
3. Şəxsiyyətin formalaşmasında mühitin rolu
4. Şəxsiyyətin formalaşmasında tərbiyənin rolu
5. Məktəbəqədər yaş dövründə tərbiyənin vəzifələri

**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Ə.Seyidov. Pedaqogika tarixi, Bakı, 1968.
4. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.
5. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
6. R.Mursaqulova. N.Rüstəmova.Məktəbəqədər pedaqogika.Bakı-2012.

Uşağın nəyi isə müstəqil surətdə etmək meyli də onun şəxsiyyətinin formalaşmasında mühüm amildir. Uşağın müstəqil hərəkət etməsinin ilk cəhdlərində uşaq şəxsiyyətinin fəallıq, müstəqillik, məqsədəuyğunluq, təşəbbüs, fiziki qüvvə və ağıl gərginliyi kimi cəhətləri inkişaf edir.

Bu əlamətlər ayrılıqda xüsusi kəmiyyət və keyfiyyət dəyərlərinə malikdir. Psixoloji inkişafa insanın idrak prosesinin, duyğuların, qavrayış və təsəvvürün, nəticə və təxəyyülün, diqqətin, nitq və təfəkkürün, hafizə və iradənin, necə təşəkkül tapması daxildir. İnsanın sosial inkişafı, onun cəmiyyətdəki iştirakı konkret adamlar və kollektiv üzvləri ilə münasibətdə özünü göstərir, ətraf aləmdə cərəyan edən hadisələrin müşahidəçisinə çevirir. Buna görə də insanın inkişafından danışarkən şəxsiyyət anlayışı önə çəkilir. Bu dəyərlər insanları mənəvi-sosial həyatda formalaşdırır və onları şəxsiyyət statusuna yüksəldir. Beləliklə, şəxsiyyət, onun maraqlarının və meyillərinin, temperamentlərinin funksional xüsusiyyətləri nəticəsində əmələ gəlmiş fərdi fərqlər sayəsində həyatda fəal mövqe tutur. İnsan dünyaya bioloji varlıq kimi gəlir, lakin bir şəxsiyyət kimi özünün fərdi həyatı və fəaliyyəti prosesində uzun və mürəkkəb yol keçərək yetkinləşir.

Hazırda cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsi xeyli dərəcədə fəal və hərəkətli inkişaf etmiş şəxsiyyətin formalaşdırılması prosesinin səmərəliliyindən asılıdır. Şəxsiyyətin inkişafı ilə əlaqədar olaraq yalnız bugünkü təcrübənin deyil, həm də pedaqoji fikrin zəngin ideyalarını nəzərə almaq lazımdır. Azərbaycan maarifpərvərləri şəxsiyyətin ən müsbət cəhətlərini onun cəmiyyətdəki münasibət və fəaliyyətində axtarmışlar, çünki münasibətlər insanın həyat təcrübəsinin nəticəsi olmaqla onun hərəkətlərini və daxili hisslərini müəyyənləşdirir.

Nəticədə insanın bir şəxsiyyət kimi formalaşması prosesinə təsir edən amillər haqqında müxtəlif fikirlər meydana gəlmişdi. Əsrlər, min illər boyu bu amillər içərisində üstünlük irsiyyətə verilmiş və belə bir fikir irəli sürülmüşdür ki, valideynlərdə müsbət və mənfi nə varsa övladlara keçir. İrsiyyət nəzəriyyəsinin hakim olduğu dövrlərdə zəka sahibləri həmin nəzəriyyəni qəbul etməklə yanaşı, tərbiyəyə böyük əhəmiyyət verirdilər. Elmin, təhsilin, tərbiyənin böyük gücünə inanan və onu təbliğ edən Nizami Gəncəvi bəzən irsiyyətin mütləq təsirini inkişafın əsas amili kimi götürürdü.

İnsanın cəmiyyətdə düzgün tərbiyə edilməsində bir sıra amillər mühüm rol oynayır. İnsan ayrı-ayrı yaş dövrlərində fiziki, psixi və mənəvi cəhətdən müxtəlif xüsusiyyətlərə malik olur, onun xarakterində müəyyən yeniliklər, dəyişikliklər yaranır. Buna görə də cəmiyyətimizin üzvü olan insan bilməlidir ki, hansı şəraitdə və hansı amillərin təsiri altında inkişaf edir, onun inkişafında irsiyyətin, mühit və tərbiyənin rolu nədən ibarətdir.

Bu məsələlərin dərindən öyrənilməsi və tərbiyənin roluna dair həm qədim dövrlərdə, həm də sonralar müxtəlif fikirlər irəli sürülmüş, uzun mübahisələr və tədqiqatlar aparılmışdır. Hələ qədim yunan mütəfəkkirləri Sokrat, Platon və Aristotel insan həyatında tərbiyənin böyük rolu olduğunu göstərmişlər. Platon (e.ə. 347-127-ci illər) "Qanunlar" əsərində yazmışdır: "İnsanı həqiqətən tərbiyə etsək o, ən sakit və ilahi məxluq olar". Bununla belə, sonralar başqa fikirlər irəli sürüldü. Məsələn, orta əsrlərdə insanın inkişafında irsiyyəti həlledici amil hesab edirdilər. "İrsiyyət nəzəriyyəsi" tərəfdarları belə deyirdilər ki, insanın qabiliyyəti, zəka, ideya və əxlaqi sifətləri, iradəsi ilə xasiyyəti anadan gəlmədir. Bu keyfiyyətlər uşaq doğularkən valideynindən ona irsən keçir. O vaxtkı iqtisadi və ictimai şəraitdən irəli gələn təlimə görə, bilikli, mərifətli, bacarıqlı insanlar böyüdükdə valideynlərinə oxşamalıdırlar.

Y.A.Komenski "Böyük didaktika" adlı əsərində yazırdı: "Bizə təbiət əxlaqı verirsə də, biliyi və xeyirxahlığı vermir". Komenski şəxsiyyətin inkişafı üçün məktəb, təlim-tərbiyə işini təkmilləşdirməyi, təlimin insan tərbiyəsi üzərində ciddi çalışmasını zəruri bilirdi.

İngilis filosofu Con Lokk (1637-1704-cü il) "İdeyaların fitriliyi" nəzəriyyəsinə qarşı çıxaraq, vaxtilə Aristotel tərəfindən qaldırılan bu ideyanın əsasında özünün məşhur "Fabula rasa" (ağ) nəzəriyyəsini irəli sürdü. Con Lokkun fikirincə, insan dünyaya gəldikdə, irsən ona heç bir qüvvə verilmir. Uşağın ruhu ağ lövhəyə bənzəyir, bu təzə ağ lövhə üzərində tərbiyə vasitəsilə hər nə istəsən yazmaq olar. Uşaqda istənilən keyfiyyəti tərbiyə etmək, yaratmaq olar.

Cəmiyyət öz yerində saymır, daim inkişaf edir, tərbiyənin insan şəxsiyyətinin formalaşmasındakı rolu böyükdür. XIX əsrin utopik sosialistləri Sen Simon, Şarl Furye, Robert Ouen tərbiyənin qüvvəsinə həddindən artıq inanır, cəmiyyəti tərbiyənin gücü ilə dəyişdirməyə ümid edirdilər. Onlar insanı mühitin passiv, aciz məhsulu kimi qiymətləndirirdilər. XIX əsrdə yaşamış rus demokratları Çernışevski, Belinski, Dobrolyubov, Pisarev insan şəxsiyyətinin formalaşmasında tərbiyənin böyük rol oynadığını qeyd edirdilər. Onların fikrincə, yalnız şəxsiyyətin deyil, dövlətin, cəmiyyətin, ölkənin də taleyi gənc nəslin düzgün tərbiyəsindən asılıdır. Belinski yazırdı ki, həm həyat, həm ölüm, həm xilas olmaq, həm də məhv

olmaq tərbiyədən asılıdır.Tərbiyə insan yaratmır, doğulmuş varlığın yaxşı və ya pis olmasına kömək edir. İnsanın inkişafına, şəxsiyyətin formalaşmasına, ictimai mühitin necə təsirinə dair elmə məlum 40-dan çox "homo ferus" mövcuddur. Dobrolyubov yazırdı ki, insanlarla ünsiyyətdə olmayan, meşədə heyvanlar arasında böyüyən adamlar vəhşiləşir, onların anlayışları inkişaf etmir.

Hind şahzadəsi Əkbər öz alimləri ilə mübahisə etmişdi ki, insanın insan olması üçün onun insan mühitində yaşaması zəruridir. Alimlər buna etiraz etdikdə o belə bir eksperiment aparmışdır. Hind, Çin, Benqal uşaqlarını anadan olan kimi valideyinlərindən almış, onları bağlı kameralarda saxlamış, uşaqları ünsiyyət, insani münasibətlər dünyasından məhrum etmişdir.Yeddi yaşında uşaqlar yalnız heyvani səslər çıxarmışlar. Elmə məlum olan bu cür faktları araşdıran nəzəriyyəçi Dubinin belə nəticəyə gəlir ki, insana mənəvi keyfiyyətlər irsən verilmir, bunlar tərbiyənin və ictimai mühitin nəticəsidir. İnsan şəxsiyyət kimi doğulmur. İnsanın fərdi inkişafı, onun şəxsiyyətinin formalaşması son mərhələdə ictimai həyat şəraitindən, ictimai münasibətlər sistemindən və istehsal münasibətlərdən asılı olur. İnsan ictimai münasibətlərin məcmusudur. İctimai mühit deyərkən insanın həyat fəaliyyətini, inkişafını əhatə edən xarici şərait nəzərdə tutulur. İctimai mühit daim dəyişir və yeniləşir. İnsan inqilabi fəaliyyəti vasitəsilə həm mövcud ictimai mühiti dəyişib öz arzusuna müvafiq qura bilir, həm də bu prosesdə fəal fəaliyyət göstərməklə öz təbiətini dəyişdirir. Tərbiyə sayəsində uşaqda yeni qabiliyyət və keyfiyyətlər yetişir, müəyyən xarakter yaranır və formalaşır. Uşaq təlim və tərbiyə vasitəsilə ictimai həyata hazırlanır, geniş dünyagörüşünə sahib olur.

Hazırda təlim prosesi pedaqogika və psixologiya elmlərinin nailiyyətlərindən istifadə edilir. Şəxşiyyətin inkişafına təsir göstərən ictimai institutlardan, təlim-tərbiyə müəssisələrindən, məktəbdənkənar uşaq müəssisələrindən, mədəni-maarif ocaqlarından, ictimai təşkilatlardan, KİV-dən, cəmiyyətin əsas hüceyrəsi olan ailədən geniş şəkildə istifadə edilməsi tərbiyəvi təsir imkanlarını genişləndirir. Şəxsiyyətin formalaşmasında ailənin rolu böyükdür. Ailə insan üçün mədəni-məişət şəraiti yaradır, emosional həyat sahəsinə təsir edir, ilk sosial və mədəni təsəvvürlərin formalaşmasında, xarakterin təşəkkülündə vasitə rolunu oynayır. Həzrəti Məhəmməd əleyhissəlam, buyurmuşdur ki, ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz. Uşaq böyüyür, məktəbə gəlir, onun həyatında yeni dövr başlayır. Müəllim də, valideyn də uşağa böyük təsir göstərir. Azərbaycanın dünya şöhrətli mütəfəkkiri N.Tusi valideynlərə məsləhət görürdü ki, uşaq süddən ayrıldıqdan sonra dərhal onu tərbiyə etməyə, ona nizam-intizam öyrətməyə başlamaq lazımdır. Şəxsiyyətin inkişafında orqanizmlə mühit arasındakı ziddiyyətlər meydana çıxır. Lakin bu ziddiyyətlər genişlənib konfliktə çevrildikdə inkişafın hərəkətverici qüvvəsi olmur. Burada inkişafla tərbiyəni bir-birindən təcrid etmək olmaz və onlar ziddiyyətlərin mübarizəsində davam edir. Məşhur tərbiyə nəzəriyyəçisi Monozson yazmışdır: "Tərbiyə və inkişafın hərəkətverici qüvvəsi daxili və xarici şərait sistemində ziddiyyətlərin mübarizəsidir.

Daxili ziddiyyətlər şəxsiyyətin formalaşdığı bütün mərhələlərdə insanda yeni yaranmış tələbatları ödəmək vasitəsinin məhdudluğudur. Məhz bu ziddiyyət uşağı ilk yaşdan fəallığa təhrik edir. Uşaqların müstəqilliyə can atması yaşlılar arasında

bəzən narahatlıq yaradır. Düzgün tərbiyə belə ziddiyyətləri asanlıqla aradan qaldırır, uşaqlarda müstəqilliyin inkişafına kömək edir. Əks təqdirdə, intizamın pozulması halları baş verir, mübahisə və digər neqativ vəziyyətlər yaranır. Tərbiyəçinin vəzifəsi şəxsiyyətin daxili qüvvələrini stimullaşdırmaqdan və onlara düzgün istiqamət verməkdən ibarətdir. Stimul deyərkən şəxsiyyətə zahiri təsir, onu müəyyən fəaliyyətə yönəltmək başa düşülür. Fəaliyyət insanın təlim və tərbiyə məqsədini müəyyənləşdirən amil kimi çıxış edir və onun bütün proseslərini bir-biri ilə sıx əlaqələndirir. Beləliklə, insanın inkişafında və onun bir şəxsiyyət kimi formalaşmasında ünsiyyət, mühit və tərbiyə amilləri qarşılıqlı surətdə mühüm əhəmiyyət daşıyır. Təlim və tərbiyə prosesində bunların nəzərə alınması vacibdir.

Təlim-tərbiyə milli dəyərlərimiz olan adət-ənənələrə uyğun əsas keyfiyyətləri insanın inkişafında formalaşdırır. Cəmiyyətdə yeni nəslin milli adət-ənənələrimiz ruhunda tərbiyə edilməsi hərtərəfli mənəvi keyfiyyətlərin formalaşmasında mühüm rol oynayır. Müstəqilliyimizin hazırkı mərhələsində gənc nəslin əxlaq tərbiyəsinin rolu və əhəmiyyəti xeyli artır. Milli şüurun artması, onun əxlaqi keyfiyyəti cəmiyyətin inkişafında vacib və önəmlidir. Məhz buna görə də təlim-tərbiyə məsələsi ön planda durmalıdır. Gəncləri milli adət-ənənələrimiz ruhunda tərbiyə etmək, onları mərd və cəsur tərbiyə etmək deməkdir.

Cəmiyyətdə yeni nəslin əxlaq tərbiyəsi gələcəyimiz üçün zəruri şərtdir. Ən mütərəqqi və insani əxlaqı olan Azərbaycan xalqının adət və ənənələri çox zəngindir.

Mühüm problemlərdən birincisi insanın cəmiyyətə münasibətidir, milli dəyərlərimizə və xalqımıza sədaqət, müstəqil respublikamıza məhəbbət, dövlətçiliyimizin xeyrinə vicdanla işləmək, milli sərvətlərimizi qoruyub saxlamaq, artırmaq qayğısına qalmaqdır.

İkinci məsələ insanların cəmiyyətdə bir-birinə qarşılıqlı münasibətidir. Buraya kollektivçilik və qarşılıqlı yoldaşlıq yardımı, vətəndaşlar arasında insanpərvərlik münasibətləri və qarşılıqlı hörmətdir.

Üçüncü məsələ insanın cəmiyyətdə mənəvi xasiyyətini təşkil edir, düzlük, mənəvi saflıq, ictimai və şəxsi həyatda çətinlik və təvəzökarlıqdır. Bu prinsiplər elə yüksək mənəvi-əxlaqi keyfiyyətləri ifadə edir ki, bunlara yiyələnmədən ümumi əxlaq prinsiplərinə yiyələnmək olmaz. Təlim-tərbiyə prosesi dərin məzmunlu geniş bir elmdir.

Şəxsiyyətin normal inkişafı üç mühüm faktorun təsiri ilə müəyyənləşdirilir. Bunlar aşağıdakılardır: tərbiyə, sosial mühit və irsi əlamətlər.

2. İrsiyyət nəzəriyyəsi orta əsrlərdə yaranmışdır. Bu dövrdə uşağın inkişafında irsiyyət əsas götürülür və belə hesab edilirdi ki, uşaq hər bir qabiliyyət və xasiyyəti hazır şəkildə ata və anasından irsən götürür. Bu nəzəriyyə orta əsrlərdə hakim olan dini əqidələrlə əsaslandırılırdı. Dini ehkamlara əsaslanaraq sübut etməyə çalışırdılar ki, hər hansı bir insan anadan olarkən taleyi alnına yazılır. Məsələn “Yazılanı pozmaq olmaz”, “Quyuya su tökməklə quyu sulu olmaz” və s.

Sonrakı illərdə insan xarakterini irsi əlamətlərlə izah edən alimlər meydana gəldi. ABŞ-da E.Torndayk, C.Dyun və başqaları buna misal ola bilər. Torndayk yazır ki, orqanizmdəki genlər adamın həm fiziki, həm də əqli keyfiyyətlərini təyin edir.C.Dyunin əqidəsinə görə, uşağın inkişafı anadangəlmə instinkt və qabiliyyətlər əsasında mümkün olur.

Kapitalizmin inkişafı ilə əlaqədar irsiyyət nəzəriyyəsinə qarşı etirazlar gücləndi. XVII əsrdə böyük slavyan pedaqoqu Y.A.Komenski uşağın taleyində irsiyyətin rolunu şişirtməyə qarşı çıxır və hamının təhsil almağa qadir olduğunu və bu işdə müəllimin, tərbiyəçinin rolunu yüksək qiymətləndirirdi. XVIII əsrdə isə ingilis pedaqoqu C.Lokk "Ağ lövhə" nəzəriyyəsini irəli sürərək, irsiyyəti tamamilə inkar edir, tərbiyənin vəzifəsini həddindən artıq şişirdirdi. Lokka görə, uşaq doğolarkən onun beyni ağ lövhə kimi tərtəmiz olur. Rus mütəfəkkiri V.Q.Belinski Lokkun nəzəriyyəsinə qarşı çıxaraq qeyd edirdi ki, uşaq doğularkən onun beyni "ağ lövhə" deyil, orada təbii imkanlar mövcud olur. Onu da qeyd etmək lazımdır ki, təbii imkanlar hələ hazır qabiliyyətlər deyil, qabiliyyətlərin əmələ gəlməsi və inkişafı üçün xüsusi qüvvəyə malik olan bir varlıqdır. Məsələn, anadan doğulan uşaq nitq imkanı ilə doğulur. Yəni onun boğazının, dilinin, damağının quruluşu və eləcə də sinir sisteminin inkişaf səviyyəsi, danışmaq və danışılanı başa düşmək imkanına malikdir. Eləcə də uşaq yazı yazmaq imkanı ilə doğulur. Çünki onun xırda əl əzələlərinin vəziyyəti, ağlının inkişaf səviyyəsi sonralar yazmaq qabiliyyətinin yaranamsı üçün imkan verir. Şübhəsiz, bütün təbii imkanların hamısı irsi olaraq nəsildən-nəslə keçir. Lakin bu o demək deyildir ki, hər şeyi həll edən irsiyyətdir. Uşaqlar doğularkən valideynlərindən zahiri fizioloji əlamətləri və psixoloji imkanları özləri ilə gətirirlər. Lakin bu keyfiyyətlərin şəxsiyyət səviyyəsində formalaşması üçün sosial amillər, ictimai mühit və tərbiyə prosesi xüsusi həlledici qüvvəyə malikdir. Deməli, irsiyyət vasitəsilə uşağa keçən hazır qabiliyyətlər deyil, hər uşağa məxsus olan ümumbəşəri təbii imkanlardır.Uşağın irsən gətirdiyi təbii fizioloji psixoloji imkanların qabiliyyətə çevrilməsi üçün şərait və tərbiyə həlledici əhəmiyyətə malikdir.

3. Şəxsiyyətin inkişafında mühitin də xeyli rolu vardır. Bu məfhum fərdin həyatı və inkişafın əlaqədar olduğu xarici şəraitin hamısını əhatə edir. Uşaq ictimai mühitdə doğulur, burada yaşayır, böyüyüb boya-başa çatır. İctimai mühitdə aparıcı yeri insanlar tutur. İctimai mühit analyışı insanların ictimai həyatını, cəmiyyətdəki ictimai münasibətləri, siyasi və mədəni həyatı və s. əhatə edir. Əlbəttə, uşaq bu mühitin təsirinə məruz qalır. Lakin fərdi xüsusiyyətlərdən asılı olaraq mühitin təsirinə müxtəlif formada məruz qalırlar. Yəni eyni mühit ayrı-ayrı uşaqlara müxtəlif şəkildə təsir göstərir.

Mühitin şəxsiyyətə təsiri haqqında məşhur pedaqoqların fikirlərində müəyyən fərqlər də vardır. Məsələn, fransız pedaqoqu J.J.Russonun fikrinə görə uşaqla uzun-uzadı söhbət aparmağın, onu öyüd-nəsihətlə yormağın mənası yoxdur. İstənilən əxlaqi keyfiyyəti uşaqda görmək üçün onu müvafiq mühitə salmaq lazımdır. Həmin mühit özü istədiyini uşağa aşılayacaqdır. Azərbaycan filosofu Siracəddin Mahmud Əbubəkr oğlu Urməvi sübut edirdi ki, insanın xasiyyəti irsi deyil, həyatda formalaşır. O qeyd edirdi ki, “Atası xristian olan uşağı müsəlman tərbiyə etsə, müsəlman olar”.Bu pedaqoqların üstün cəhəti onda olmuşdur ki, onlar şəxsiyyətin formalaşmasında irsiyyətə, fatalizmə qarşı çıxaraq mühitin təsirinə üstünlük vermişlər.

Bütün bunlardan belə bir nəticə çıxarmaq olaq: madam ki, insan mühitin təsirinə məruz qalır, onda mühit elə qurulmalıdır ki, insan orada həqiqi insanlığını dərk etsin, oradakı nəcib keyfiyyətləri özündə birləşdirə bilsin.

4. Bəşər tarixi praktik olaraq sübut etmişdir ki, şəxsiyyətin inkişafında tərbiyənin rolu əvəzsizdir. Əvvəlcədən düşünülmüş, planlaşdırılmış, məqsədyönlü təşkil edilmiş tərbiyə işi güclü təsir qüvvəsinə malikdir. Y.A.Komenski, K.A.Helvetsi, R.Ouen və bir çox başqaları şəxsiyyətin inkişafında tərbiyəyə üstünlük verdikləri kimi, fransız materalistləri Helvetsi, Didro, Russo tərbiyənin təsirinə daha çox aludə olmuş, hətta onu həddən artıq şişirtmişlər. Helvetsiyə görə, tərbiyədə elə təsir qüvvəsi vardır ki, o hər şeyi yaradır. Didro isə Helvetsiyə nöqsan tutaraq qeyd etmişdir ki, tərbiyə hər şey deyil, çox şeydir.

Məhəmməd Peyğəmbər Əleyhissəlam hədislərinin birində deyir: Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz.

Müəyyən dövrlərdə şəxsiyyətin inkişafında gah tərbiyə və mühit əsas götürülmüş, irsi əlamətlər inkar edilmiş, gah da irsiyyətə və mühitə üstünlük verilmişdir. Onu da qeyd etmək lazımdır ki, tərbiyə daim eyni tərzdə həyata keçirilmir. Daim məzmunu zənginləşir və mürəkkəbləşir, forması dəyişir, rəngarəng yollarla uşaq şəxsiyyətinə təsir göstərir.

Uşaq şəxsiyyətinin inkişafı müxtəlif mərhələlərdən keçir. Hər bir mərhələ əvvəlki ilə sıx əlaqədə olub, sonrakı nailiyyətlər üçün əsas rolu oynayır. Tərbiyənin varisliyi əvvəlki zəmində tərbiyə keyfiyyətlərinin qazanılması ilə əlaqədardır. Eyni zamanda, tərbiyə heç də uşağın inkişafını süni formada sürətləndirməlidir. Buna görə də məktəbəqədər pedaqogika bu yaşlı uşaqların hərətərəfli inkişafını təmin etmək üçün yaş xüsusiyyətlərini nəzərə alır və onun həyat haqqında anlayışlarını tədricən zənginləşdirir.Uşaq şəxsiyyətinin inkişafında, xarakter xüsusiyyətlərinin formalaşmasında tərbiyə elmi aparıcı mövqeyə malikdir.

5. Tərbiyə bəşəriyyətin yaranma tarixindən mövcud olan bir prosesdir. Hələ bəşəriyyətdə dövlər quruluşu mövcud olmamışdan qabaq tərbiyə anlayışının məqsədyönlü məzmununu tayfaların, qəbilələrin başçıları, müdrik ağsaqqallar tərəfindən müəyyən edilən adət-ənənələr təşkil etmişdir. İctimai-iqtisadi münasibətlər inkişaf etdikcə dövlət quruluşunun yaranmasına səbəb olur. Dövlətçilik yaranandan sonra uşaqların tərbiyə olunması strateji əhəmiyyətli bir iş kimi dövlətin himayəsinə keçmişdir.

Tərbiyənin məqsədi kimsə tərəfindən uydurulmur. O, xalqın, dövlətin və millətin obyektiv həyat şəraitindən və tələbatından asılıdır. Respublikamızda uşaq bağçalarında və məktəblərdə tərbiyənin məqsədi dövlətimizi qoruya bilən və onun gələcək inkişafını təmin edə biləcək yüksək milli mənəvi intellektə malik olan hərtərfli kamil nəsil yetişdirməkdir. Şübhəsiz şəxsiyyətin hərtərəfli inkişafını yalnız tərbiyənin tərkib hissələrindən ( əqli, fiziki, əxlaq, əmək, estetik, ekoloji) səmərəli istifadə etməklə həyata keçirmək olar.

Əqli tərbiyə insan intellektinin inkişafında ən mühüm əlamətdir.Onun vasitəsilə uşaqlar elmi biliklərə yiyələnir, təbiəti, cəmiyyəti, əməyi, iqtisadiyyatın başlıca qanunlarını, ictimai və siyasi həyatı, bütövlükdə dünyanı dərk edir, yüksək mənəviyyata sahib olur.Əqli tərbiyə prosesində uşaq fantaziyasının inkişaf etdirilməsinə, hafizə və diqqətin formalaşdırılmasına, uşaqların söz ehtiyatının zənginləşməsinə,onların rabitəli,düzgün nitqə yiyələnmələrinə dəqayğıgöstərilməlidir.

Fiziki tərbiyə hərtərəfli və ahəngdar inkişafın mühüm keyfiyyətlərindəndir. Fiziki tərbiyənin vəzifəsi yetişən nəsli əməyə, Vətənin müdafiəsinə hazırlamaq, orqanizmin sağlamlığına, iradi keyfiyyətlərin və əqlin formalaşdırılmasına kömək etməkdir. Məktəbəqədər yaş dövründə uşaqların fiziki sağlamlığına xüsusi diqqət yetirilməlidir.

Uşaqları məktəbəqədər yaş dövründən başlayaraq sadə əxlaqi keyfiyyətlərə yiyələndirməyin çox mühüm əhəmiyyəti var. Uşaq dil açmağa başalayanda ona salam verməyi, əl ilə görüşməyi, nəvazişlə sağ ol deməyi öyrədirlər. Bu cür nəvaziş, şən münasibət uşaqlarda sadə əxlaqi keyfiyyətlərin möhkəmlənməsinə səbəb olur. Uşaqlarda böyüklərə hörmət, nəzakətli münasibət, mədəni davranmaq vərdişləri tədricən tərbiyə edilir, doğruçuluq, sadəlik, mehribançılıq, dostluq, yoldaşlıq kimi əxlaqi keyfiyyətlər inkişaf etdirilir. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsini vaxtında başlayıb, pedaqoji yolla düzgün aparmaq lazımdır.

Məktəbəqədər yaş dövründə əmək tərbiyəsi uşaqlarda əməyə, əmək adamlarına rəğbət hissi yaratmaq, əmək məhsullarından qənaətlə istifadə etmək, işgüzarlıq, çətinlikdən qorxmamaq, dözümlülük, qayğıkeşlik, özünə xidmət və faydalı işindən fərəhlənmək kimi nəcib əxlaqi keyfiyyətləri tərbiyə edir. Bu yaşlı uşaqlar sadə əməklə məşğul olmaq vərdişlərinə yiyələnirlər.

Uşaq bağçasında estetik tərbiyənin vəzifəsi uşaqlara cəmiyyətdə, təbiətdə gördüklərini, insanların yaratdıqları maddi nemətləri qiymətləndirməyi, onların başa düşə bildikləri incəsənət əsərlərindəki gözəlliyi duymağı və hiss etməyi öyrətməkdir. Bunun üçün uşaqları təbiətin qoynuna çıxarmaq, bədii əsərlərlə, musiqi və rəsm əsərləri ilə tanış etmək mühüm əhəmiyyət kəsb edir. Estetik tərbiyə

həm də uşaqların yaradıcılıq qabiliyyətini inkişaf etdirir, onlarda bədiii estetik zövqün formalaşmasında mühüm rol oynayır.

Ekoloji tərbiyə insanlara təbiətdən istifadə etmək işində məsuliyyət hissi aşılayır. Gəhc nəslin ekoloji tərbiyəsi müasir mərhələdə daha çox əhəmiyyət kəsb edir. Uşaqların ətraf mühiti qoruması, təbiətə qayğı və məhəbbət ruhunda tərbiyə edilməsi işini məktəbəqədər tərbiyə müəssisələrindən başlamaq əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Uşaqlar məktəbəqədər yaş dövründən başlayaraq, anlaq səviyyələrinə və güclərinə müvafiq təbiətin qorunması işlərinə cəlb olunmalıdırlar ki, məktəb illərində bu sahədə daha səmərəli iş görə bilsinlər. Bu məqsədlə məktəbəqədər yaş dövründə uşaqlara təbiət haqqında maraqlı söhbətlər etmək və torpağın, suyun, havanın insan həyatındakı əhəmiyyəti barədə maraqlı məlumatlar vermək lazımdır.

Məktəbəqədər yaş dövründə uşaqların ekoloji tərbiyəsində valideynlərin qüvvəsindən də səmərəli istifadə etmək lazımdır.

## Mövzu:7 Uşaq bağçasında uşaq əməyinin növləri.

### PLAN:

1. Məktəbəqədər yaşlı uşaqların özünəxidmət əməyi
2. Məktəbəqədər yaşlı uşaqların təsərrüfat-məişət əməyi
3. Məktəbəqədər yaşlı uşaqların təbiətdə əməyi
4. Məktəbəqədər yaşlı uşaqların əl əməyi
5. Özünəxidmət əməyinin həyata keçirilməsi metodikası
6. Ailədə məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin təşkli

## ƏDƏBİYYAT:


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000
2. Məktəbəqədər pedaqogika."Maarif", Bakı, 1964.
3. A.Həsənov. Kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsi. Bakı, 1987
4. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
5. A.Həsənov. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi ( tədris-metodik vəsait) Bakı, 1993.
6. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.


1. Məktəbəqədər yaşlı uşaqların əm: Özünəxidmət əməyi, təsərrüfat-məişət əməyi, təbiətdə əmək, əl əməyi.ək növləri müxtəlifdir: Özünəxidmət əməyi, təsərrüfat-məişət əməyi, təbiətdə əmək, əl əməyi. Özünəxidmət əməyi kiçik qruplarda daha çox tətbiq olunur və uşaqlara çətinliyi aradan qaldırmaq, müstəqillik, səliqəlilik kimi keyfiyyətlər aşılayır. Yuyunmaq, geyinmək, yatağı yığışdırıb təmiz saxlamaq və s. kimi vərdişlər uşaqların digər əmək növlərində müstəqil iştirakı üçün şərait yaradır. Amma bu yaş dövründə uşaqların əzələlərinin kifayət qədər inkişaf etməməsi, hərəkətin ardıcıllıqla yerinə yetirilməsi zamanı meydana şıxan çətinliklər onlarda işi vaxtında icraetmə həvəsini azaldır. Buna baxmayaraq, tərbiyəçi uşaqlarda işi müvəffəqiyyətlə görüb başa çatdırma, təmiz və səliqəli iş görmə kmi qabiliyyətləri yaradıb inkişaf etdirməyə səy göstərməlidir. Bütün bunlar tərbiyəçidən səbrli və mehriban olmağı tələb edir. Özünəxidmət əməyini həyata keçirərkən tərbiyəçi kollektiv işlə yanaşı, uşaqları fərdi qaydada işlətməli, hər bir uşağı fəaliyyətə ruhlandırmalı, onda öz qüvvəsinə inam

yaratmalıdır. Başlıcası isə tərbiyəçi çalışmalıdır ki, bu yaş dövründə uşaqlar özünəxidmətin əhəmiyyətini aydın dərk etsinlər.

Uşaqlardan biri işdən diqqətini tüz yayındırır, digəri iş zamanı çətinlik çəkən yoldaşına kömək göstərməkdən həzz alır, üçüncüsü işi yarımçıq qoyub oyuna meyl edir, dördüncüsü isə işi başdansovdu görməyə meyl edir. Uşaqların belə fərdi xüsusiyyətlərini  tərbiyəçi nəzərə almalı və hər bir uşağa öz fərdi xüsusiyyətinə görə təsir etməlidir.

Məktəbəqədər yaşlı uşaqların orta qrupunda özünəxidmət əməyinin məzmunu nisbətən inkişaf edir. Bu yaşda uşaqlar müəyyən iş görəndə yaşıdlarına da göz qoyur və onların nöqsanlarını nəzərlərinə çatdırırlar.Orta qrupun uşaqları işi nisbətən sərbəst icra edirlər. 5-6 yaşlı uşaqlarda sərbəstlik və müstəqillik daha da güclənir. Onlar özləri geyinir, soyunur, özünə müvafiq işləri sərbəst icra edirlər. Çox vaxt özündən kiçik bacı-qardaşlarına nümunə olur, onlara köməklik göstərirlər.

2. Uşaq bağçasında təsərrüfat-məişət əməyi öz məzmununa görə müxtəlifdir. Buraya uşaq bağçasının həyətyanı sahəsində, gəzinti və idman meydançasında, soyunma, yuyunma, yataq və məşğələ otaqlarında səliqə-səhman yaratmaq işləri daxildir.

Kiçik qrupda uşaqlar yaşlıların məişət əməyi üzrə işini, məsələn, dayənin qab-qacaq yumasını, aşpazın yemək hazırlamasını, ananın paltar yuyub-ütüləməsini diqqətlə müşahidə edirlər. Onlar tədricən belə əməl növlərinə cəlb olunurlar. Məsələn, tərbiyəçinin xahişi ilə balacalar oyuncaqları meydançaya çıxarır, stulları stollara yaxınlaşdırır,  döşəmədən kağızları yığır, çörək qablarını stola düzürlər. Bütün bunlar uşaqlarda məişət əməyi üzrə bacarıqları formalaşdırır. Burada tərbiyəçinin nümunə göstərməsi və işi uşaqların yaşına uyğun müəyyənləşdirməsi mühüm əhəmiyyət kəsb edir. Kiçik qrup uşaqalrına hərəkəti necə yerinə yetirməyi təkcə göstərmək və izah etmək azdır. Onlara fəaliyyət zamanı kömək də lazımdır. Tərbiyəçi uşağın qarşısına konkret məqsəd qoymalı (dəsmalı asmaq, dəyəyə kömək etmək, həyətdən yarpaqları yığmaq və s.) onun əmək fəaliyyətini

istiqamətləndirməlidir. Əsas budur ki, uşaqlarda başqaları üçün zəhmət çəkmək meyli yaransın.

Orta qrupda təsərrüfat-məişət əməyi özünəməxsus əhəmiyyət kəsb edir. Bu yaşlı uşaqlar ilin axırına yaxın qayda-qanuna müstəqil riayət edir, otağın, iş yerinin yığışdırılmasında iştirak edirlər. Böyük qrupda isə uşaqların təsərrüfat-məişət əməyinin məzmunu daha da genişlənir. Belə ki, uşaqlar nahar vaxtı üçüncü yeməyi paylayır, nahardan sonra stolun üstünün yığışdırılmasında dayəyə kömək edir, məşğələnin sonunda material və vəsaitləri yerinə qoyur, işdən sonra stolları silir və s. Uşaqlar dəyə ilə balışların üzünü keçirir, döşəkağılarını salır və bu işləri görməklə onlar özlərini böyüklərin əsl köməkçisi hesab edirlər.Tərbiyəçi bu prosesdə uşaqlara bir-biri ilə razılığa gəlmək, kömək göstərmək kimi bacarıqları aşılayır.

Məktəbə hazırlıq qrupu uşaqlarının təsərrüfat-məişət əməyi məzmunca mürəkkəb xarakter daşıyır. Məsələn, süfrənin düzəldilməsi, stolun güllərlə bəzədilməsi, ikinci və üçüncü yeməyin paylanması kimi proseslər də daxildir. Uşaqlarda tədricən cəld, məharətlə, səliqəli, bacarıqla işləmək, əşyalarla düzgün davranmaq kimi keyfiyyətlər formalaşır. Tərbiyəçi iş prosesində uşaqlarda yaxşı əhval-ruhiyyə yaratmağa çalışmalı, onlarda öz qüvvələrinə inam formalaşdırmalıdır.

3. Uşaqların təbiətdə əməyi onların sağlamlığında, hərəkətlərinin kamilliyində, bacarıq və vərdişlərin formalaşdırılmasında mühüm rol oynayır. Təbiətdə əmək uşaqların görüş dairəsini genişləndirir. Uşaqlar onun vasitəsilə torpağın insan həyatındakı zəruri əhəmiyyətini dərk edib ondan istifadə etməyin yollarını öyrənirlər. Bitkilərin həyatı ilə tanış olarkən uşaqlar öyrənirlər ki, su bitkilərin inkişafı üçün əsas şərtdir.

Təbiətdə əmək uşaqlarda kənd təsərrüfatı işlərinə marağı gücləndirir. Onlar təbiət guşəsindəki güllərə, quşlara, balıqlara qulluq etməklə bitki və heyvanların həyatı ilə yaxından tanış olurlar. Heyvan və bitkilərə qulluq etməyin özünəməxsus məzmunu və ona rəhbərlik metodları vardır. İşin məzmununa aşağıdakılar daxildir: quşların və heyvanların qəfəslərinin təmizlənməsi, yem və su teknələrinin

yuyulması, onların su ilə doldurulması; tərbiyəçinin göstərişi ilə müstəqil surətdə quşların və heyvanların yedizdirilməsi; xırda heyvanların yedizdirilməsi üçün hazırlanmış meyvə köklərini yuyub doğramaq, göyərti hazırlamaq; ev heyvanlarına qulluq prosesində iştirak etmək; bostanda, güllükdə, bağda əkin və səpinə qulluq etmək və s. Əmək uşaqların imkanlarına, yaş xüsusiyyətlərinə uyğun yerinə yetirilir.

Birinci kiçik qrup uşaqlarının imkanları məhdud olduğundan əmək tərbiyəsi onlara anlaşıqlı olan təbiət hadisələri əsasında həyata keçirilir. Üç yaşlı uşaqların əməyi yalnız əyani təsirli təlim zamanı həyata keçirilir. Həyatının dördüncü ilində uşaqlara izah edilir ki, quşlara qulluq etmək, dən, ot vermək lazımdır.

Orta qrup uşaqlarında əməyə şüurlu münasibət nisbətən güclü olur. Uşaqlar təbiət hadisələrini müşahidə edərkən tanış əşyaları səciyyəvi əlamətlərinə görə müqayisə etməyi və qruplaşdırmağı öyrənirlər. Məsələn, qar və çovğunda quşların ac olduğunu düşünüb onları yemləməyə səy edən uşaqlar çox faydalı iş görmüş olurlar.

Böyük qrup uşaqlarının əməyi mürəkkəb xarakter daşıyır. Onların əməyi keyfiyyətə, işi vaxtında və müstəqil görməyə görə qiymətləndirilir. Bu keyfiyyətləri nəzərə alıb tərbiyəçi uşaqları təbiət guşəsində növbətçiliyə cəlb edir. Tərbiyəçi çalışmalıdır ki, uşaqlar işi səliqəli və təmiz icra etsin, qoyulmuş məqsəd onların gücünə müvafiq olsun.

4. Uşaq şəxsiyyətinin formalaşmasında əl əməyinin müstəsna əhəmiyyəti vardır. Müxtəlif materiallardan uşaqların oyuncaq  və əşyalar düzəltməsi məktəbəqədər yaşlı uşaqların, xüsusən böyük qrup uşaqlarının əmək tərbiyəsinin mühüm cəhətlərindən biridir. Əl əməyinin məzmununda quraşdırma əıməliyyatı mühüm yer tutur. Bu əmək zamanı uşaqlar əşyalar haqqında təsəvvürlərini genişləndirir, texnika haqqında müəyyən məlumata malik olurlar. Belə iş prosesində uşaqlar ən sadə texniki qurğularla tanış olur, oyuncaq alətləri ilə iş vərdişlərini mənimsəyir, əmək materiallarına, əşya və alətlərə ehtiyatla yanaşmağı öyrənirlər. Uşaqlara aydın olur ki, qalın kağızdan kəsmə və yapışdırma yolu ilə müxtəlif əşyalar düzəltməık olar. Ağacı isə mişarlamaq, yonmaq, kəsmək, deşmək, mıxlamaq olar.

Əl əməyi məşğələlərində təbii materiallarla iş də mühüm əhəmiyyət kəsb edir. Belə ki, uşaqlar yarpaqlar, palıd qozaları, şam, qoz ağaclarının qabıqları ilə aparılan iş zamanı həmin təbii materialların rəngi, forması, möhkəmliyi ilə də tanış olurlar. Bu zaman uşaq öz işinin mövzusu haqqında fikirləşir, əşyaları müqayisə edir, özünəməxsus xəyali surətlər yaradır. Onlar hansı materialdan, harada və necə istifadə etməyi öyrənirlər.

Əl əməyi zamanı uşaqlar müxtəlif materiallardan oyuncaqlar düzəldirlər. Uşaqlara fırfıra oyuncağını düzəltmək üçün 4-5 sm uzunluğunda ucu şiş çubuq və qalın kartondan kəsilmiş, ortası deşilmiş dairələr verilir. Tərbiyəçi uşaqlara bu iki hissəni necə birləşdirməyi göstərir. Uşaqlar öz hazırladıqları fırfıranı stolun üstündə və yaxud döşəmədə fırladaraq məmnuniyyətlə oynadırlar. Eləcə də uşaqlar qutulardan, şam, küknar, palıd qozalarından, küləş və qarğıdalı saçağından müxtəlif oyuncaqlar düzəldə bilərlər. Uşaqlara əmək tapşırığı verərkən tərbiyəçi birinci növbədə tapşırığın məzmununu, onun fərdi və ya kollektiv formasını nəzərə almalı, bütün formaların həyata keçirilməsində pedaqoji rəhbərliyə geniş yer verməlidir.

5. Özünəxidmət əməyinin təşkili və həyata keçirilməsi ona pedaqoji rəhbərlikdən çox asılıdır. Tərbiyəçi özünəxidməti elə təşkil etməlidir ki, burada bütün uşaqlar iştirak etsin, əmək işləri tədricən mürəkkəbləşsin və o, tərbiyə vasitəsinə çevrilsin.

Özünəxidmətlə əlaqədar vərdişlərin formalaşdırlmasının əsas metodiki yolu hər bir elementar hərəkətin və onun ardıcıllığının yerinə yetirilməsini göstərməkdən ibarətdir. Tərbiyəşi uşağa yatağı səliqə ilə yığışdırmaq üçün nümunə göstərir, eyni zamanda işi səliqəli həyata keçirmək üçün sözlə də izah edir. Uşaqlar müşahidə edir, eşidir, bunların əsasında təcrübi iş görür. Unutmaq olmaz ki, özünəxidmət vərdişləri birdən-birə yaranmır. Uşaq əl-üz yumaq, qurulamaq, geyinmək kimi vərdişlərə yiyələnmək üçün bu hərəkətləri necə yerinə yetirməyin mahiyyətini bilməlidir. Bununla yanaşı, onlar bu işlərdə məşq etməlidirlər. Ancaq bundan sonra uşaqlarda müəyyən bacarıq və vərdişlər yaranır. Vərdişlərin formalaşmasında tərbiyəçi nümayişlə yanaşı, şifahi izahdan, ümumi

xatırlama metodundan istifadə etməlidir. Məsələn, “Pencəyinin düymələrini mən deyən kmi bağla”, “Yadınıza salın, yeməkdən qabaq nə etmək lazımdır?” və s. Özünəxidmət əməyində ümumi xatırlama metodu uşaqlarda hər hansı işə dair müəyyən vərdiş olduqda həyata keçirilir. Məktəbəqədər yaşlı uşaqların özünəxidmətinin təşkilində pedaqoji kollektiv tərəfindən qoyulan tələblərin vahidliyinin hamıtərəfindən gözlənilməsi vacibdir.

Uşaqları özünəxidmət üzrə tələblərlə tanış etmək məqsədilə məşğələlərdən, ətrafdakı yaşlıların, böyük məktəbəqədər yaşlı uşaqların davranışı üzrə gündəlik müşahidələrdən, kitablarda verilən illüstrasiyalardan, müvafiq bədii əsərlərin oxunmasından, kukla tamaşalarına baxışdan istifadə etmək olar. Özündən kiçiyə qayğı göstərmək, yaşlılara hörmət etmək, yaşıdları ilə ünsiyyət saxlamaq qaydalarına əməl etmək üçün məktəbəqədər yaşlı uşaqlar aşağıda qeyd olunan davranış qaydalarını bilməlidir:

1. Başqası özünəxidmət işində işin öhdəsindən gələ bilməyib sənə müraciət edirsə, ona gücün çatan qədər kömək göstər;
2. Başqalarına qarşı diqqətli ol, kimə kömək göstərmək lazım olduğuna fikir ver;
3. Balacalara, yaşlılara və yaşıdlarına qarşı xeyirxah ol;
4. Hər şeydə müstəqil olmağa çalış, lakin hiss etsən ki, tək işin öhdəsindən gələ bilməyəcəksən, başqasının köməyini təşəkkürlə qəbul et.

6. Məktəbəqədər yaşlı uşaqalrın tərbiyəsində müntəzəmlik və vahidlik prinsipi həlledici rol oynayır. Bu baxımdan məktəbəqədər tərbiyə müəssisələrində aparılan tərbiyə işləri eyni qayda ilə ailədə də davam etdirilməlidir. Əks təqdirdə məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşması pozula bilər.

Müşahidələr göstərir ki, bir çox valideynlər uşağa hədsiz məhəbbəti üzündən onu həyatın bərkindən-boşundan, istisindən-soyuğundan edlə qoruyurlar ki, uşaq müstəqil hərəkət etmək imkanından məhrum olur. Uşaq bir iş görmək istədikdə, “Get öz oyununu oyna, sənin nə vaxtındır ki, iş görəsən, mənə mane olma”sözlərini eşidirlər. Əlbəttə, böyüklər işi daha yaxşı və keyfiyyətlə görə bilərlər, lakin bu heç də o demək deyildir ki, uşağa yaşına və gücünə müvafiq iş

verilməsin. Uşağı kiçik yaşdan əməksevərlik ruhunda tərbiyə etmək üçün ona hər gün gücünə müvafiq iş tapşırılmalıdır. Gücünə uyğun olmayan iş tapşırıldıqda uşaq müvəffəqiyyətsizliyə uğrayır və onda fiziki iş görməyə inamsızlıq yaranır. Lakin bu, heç də o demək deyildir ki, həmişə uşağa yüngül, çox zəhmət tələb etməyən iş verilməlidir. Valideynlər iş zamanı uşağın çətin vəziyyətə düşdüyünü görüb dərhal belə işi onun əlindən almamalıdırlar. Onlar çətinliyin nədən yarandığını dərk etməli və bununla da uşaqlara müstəqil hərəkət etmək imkanı yaratmalıdırlar.

Uşaqlar böyüklərin, xüsusən valideynlərin əmək işlərindən nümunə götürür, onlar kimi əməksevər olmağa çalışırlar. Bunun üçün ata və analar uşaqlara öz əmək fəaliyyətlərindən, peşələrindən tez-tez maraqlı söhbətlər etməli və nümunələr göstərməlidirlər. Unutmaq olmaz ki, uşaqlarda əməksevərlik tərbiyəsini ancaq nəsihətlə, söhbətlə yaratmaq mümkün deyil. Uşaqlara ailədə kiçik də olsa, daimi iş tapşırmaq çox vacibdir. Onlar bilməlidirlər ki, ailədə mənim gündəlik vəzifəm nədir, bu işi görməklə mən nə kimi fayda verirəm. Uşaq lap kiçik də olsa hər gün bir iş görməli, həmin işin icrası üçün məsuliyyət daşıdığını hiss etməlidir.

**5. Ailədə məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin təşkli.**

Lazımi əmək vərdişlərinin planlı və ardıcıl surətdə formalaşdırılması, əmək tərbiyəsi məsələlərinin həyata kecirilməsi uşağın müntəzəm olaraq əmək fəaliyyətinə cəlb olunması şəraitində mümkündür.

Tərbiyəçi uşaqların əməyini əsasən üc formada təşkil edir:

Fərdi, Kollektiv tapşırıq formasında və bütün qrupun eyni zamanda iştirak etdiyi növbətçilik və kollektiv əmək fəaliyyəti.

Uşaqların yaş səviyyəsindən asılı olaraq o, bu və ya digər formaya üstünlük verir. Məsələn, kicik və orta qruplarda daha cox tapşırıq formasından istifadə olunur, böyük qrupda isə əmək əksər halda kollektiv xarakter daşıyır.

Uşaqların əməkdə müntəzəm iştirakı müxtəlif üsullarla əldə edilir:məsələn, uşaqlar yeməkxanada növbə ilə növbətçilik edir və tapıırıqları yerinə yetirirlər ki, bu da onları hər həftə məişət-təsərrüfat əməyinə cəlb ettməyə imkan yaradır. Dirrik və cicəklik üçün secilmiş müəyyən bitkilər uşaqalrın

bitkilərə qulluq etməsi işinə şərait yaradır, təbiət guşəsində heyvanların olması bu zaman hər bir uşağın iştirakını təmin edən növbətçiliyin təşkilinə inmak verir.

Böyük məktəbəqədər yaşlı uşaqlarda özünəxidmət əməyi cox erkən gündəlik vəzifəyə cevrilir. Əl əməyi o vaxt müntəzəm surətdə yerinə yetirilə bilər ki, onun kecirilməsi hər həftə planlaşdırılsın.

## Mövzu-8. Məktəbəqədər yaşlı uşaqların inkişafında əmək və oyun.

**Plan:**

1. Məktəbəqədər kicik yaşlı uşaqların inkişafında əmək və oyun.
2. Məktəbəqədər orta yaşda uşaqların inkişafında əmək və oyun.
3. Məktəbəqədər böyük yaşlı uşaqların inkişafında əmək və oyun.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı-1989.
4. Uşaq bağçası “ Maarif”- Bakı, 1983.
5. R.Mursaqulova. N.Rüstəmova.Məktəbəqədər pedaqogika.Bakı-2012.

Uşaqların oyun proseslərindəki hərəkətləri cox vaxt onların yaşlılarda müşahidə etdikləri bu və ya digər əmək prosesinin, məsələn, yemək hazırlanmasının, qab-qaşıq yuyulmasının, otağın yığışdırılmasının, paltar yuyulmasının təsvirinə yönəldilir. Bütün bunlar uşağın yaşlıları təqlid etmək arzusunu bildirir. Bu arzunu uşaqlar oyun situasiyasında həyata kecirirlər: guya qab yuyur, xörək hazırlayır və s.

Lakin belə anlar olur ki, bu " guya" əmək prosesinin real planına cevrilir. Əmək fəaliyyəti oyundan nə zaman və necə ayrılır və ona xas olan xüsusiyyətlər qəbul edir?

Uşağın əşyalarla fəal hərəkətləri uşaqlıq dövründən yaranır və oyun xarakteri daşıyir. Praktik cəhətdən bir cox zəruri hərəkətlər həm də əşyalarla oyun prosesində formalaşır. Lakin bu oyunla əməyi eyniləşdirmək üçün heç bir əsas vermir. A.S.Makarenkonun " yaxşı oyunun həmişə iş səyi olması" haqqında müddüası ədalətlidir, lakin bununla belə oyun əmək deyildir.

Əmək və oyun öz xarakteri, məzmunu, yaranma səbəbləri və motivlərinə görə müxtəlifdir.

Əmək prosesində həmişə məqsəd qoyulur, ona nail olmaq üçün vasitələr axtarılır,hərəkətlərin ardıcıllığı düşünülür və nəhayət, nəticə əldə edilir. Əmək prosesi realdır, burada güman edilən situasiya yoxdur, cünki uşaq fəaliyyət zamanı dəyişdirə biləcəyi real əşyalarla iş görür.

Oyunda uşaqalr xüsusi yaradılan oyun şəraitində yaşlıların fəaliyyətini və onların arasındakı münasibəti təsvir edirlər. Bu şərait üçün əmək

prosesində yaşlıların istifadə etdikləri, əsl əşyaları əvəz edən müxtəlif oyuncaq əşyalardan istifadə olunması xarakterikdir.

Oyun hec bir zahiri nəticə vermir, lakin uşaqalra sevinc gətirir, ləzzət verir.

Əmək və oyun prosesində pedaqoq və uşaqlar arasındakı qarşılıqlı münasibətlər müxtəlif şəkildə formalaşır.

Oyunu bir fəaliyyət kimi uşaq özü inkişaf etdirir. Pedaqoq oyuna rəhbərlik edərkən uşağın fikri və marağı ilə hesablaşır, özü isə hec də həmişə oyunun iştirakçısı olmur. , onun oyuna bilavasitə müdaxiləsi hec də həmişə lazım deyil.

Burada uşağın fikirinin, ideyasının inkişafı aparıcı əhəmiyyətə malikdir. Səylərin sərf edilməsi, nəticənin əldə edilməsi uşağın arzusu, oyuna olan marağı ilə şərtləşir. Oyun ya fərdi surətdə, ya da başqa uşaqlarla ünsiyyətdə kecir. Bu ünsiyyət ya fikrin vahidliyi, ya da uşaqalrın şəxsi rəğbəti əsasında yaranır.

Əmək prosesində yaşlılar və uşaqlar səylərini ümumi nəticənin əldə edilməsinə yönəldərək birgə calışırlar. Yaşlılar daha təcrübəli və bacarıqlı olduqlarından uşaq üçün nümunə sayılırlar.

Oyun hər bir inkişaf mərhələsində başa çatdırıla bilər,bununla o, öz cazibəsini hec də itirmir, yenidən oyuna qayıtdıqda isə o cox vaxt təzədən başlanır.Əməyin həmişə son nəticəsi odur ki, onun əsas mənası da bundadır.

Uşaq bağçasındakı uşaqların müxtəlif cür təşkil edilmiş əməyi cox vaxt kollektivin tələbatının ödənilməsinə yönəldilir. Hətta uşağa verilən fərdi tapşırıq belə, kollektivə xidmət etmə məqsədi daşıyır.

**Məktəbəqədər kicik yaşlı uşaqlarla** aparılan işdə əmək tərbiyəsi xüsusi olaraq həyata kecirilir. Əməyin əsas məzmunu gündəlik həyatda özünəxidmətdən ibarətdir. Uşaq özünəxidmət vərdişlərinə yiyələnərək özünü daha müstəqil hiss edir, yaşlılardan az asılı olur. Lakin balacalar üçün özünəxidmət xeyli cətinlik törədir, cünki bu onlardan səy, fikrin cəmləşdirilməsini tələb edir. Özünəxidmət vərdişlərinin təlimi prosesində

nadir hallarda oyun situasiyasından istifadə edilir. Bəzən bu və ya digər oyuncaqdan, məsələn, ” uşaqların əl-üzlərini təmiz-təmiz yumasına, paltarlarını stulun basına səliqə ilə asmasına tamaşa edən kicik “ayı” və ya “ kukla” dan istifadə olunur. ”

Bu yaşlı uşaqların əmək və oyunu arasında nə kimi əlaqə yaranmasını izləyək. Əvvəlcə onları özünəxidmət prosesinin özü yox, oyun obrazı maraqlandırır. Oyun vasitəsilə uşaqlar vərdişə yiyələnir. Hərəkətlərindən inam yaranır. Vərdişlər formalaşdıqca özünəxidmət fəaliyyəti formalaşır. Uşaq müstəqil surətdə əl-üzünü yuyur, geyinir, xörəyini yeyir.

Oyun sutiasiyalarına özünəxidmət vərdişlərinin formalaşdırılmasının yeganə və zəruri şərti kimi baxmaq düzgün deyil. Bu, süni, hec bir istənilən nəticəni verə bilməyən oyun priyomlarına gətirib cıxara bilər. Ona görə uşaqların gündəlik özünəxidmətlə əlaqədar ola bilən ilk əmək vərdişlərinin formalaşması prosesində hərəkətin göstərilməsinə, müstəqil surətdə geyinmək, əl-üz yumaq təşəbbüsünün həvəsləndirilməsinə , onların bütün, hətta kicik nailiyyətlərinin belə qeyd edilməsinə, qarşılıqlı kömək təzahürlərinin bəyənilməsinə arxalanmaq zəruridir.

Kicik qrup uşaqlarının oyunu və əməyə arasındakı əlaqəni onların oyun üçün lazım olan işləri yerinə yetirmələri prosesində, məsələn, kukla təsərrüfatının yığışdırılması, oyuncaq qab-qacağın, kukla paltarının yuylması, oyuncaq heyvanlar üçün yaşayış yerinin tikilməsi, tikinti yerinə tikinti materialının gətirilməsi prosesində izləmək olar.

**Məktəbəqədər orta yaşda** da uşaqların müstəqil əmək fəaliyyəti xəttinin hələ o qədər də aydın olmamasına baxmayaraq, ayrı-ayrı halalrda əməyin məzmunu uşaqları oyun fəaliyyətinə gətirib cıxarır. Bunu xüsusilə məişət xarakterli oyunlarda müşahidə etmək olar. Uşaqlar bayrama hazırlaşarkən kukla təsərrüfatını qaydaya salır, kuklalar üçün paltar yuyub ütüləyir, qırılmış düymələri kuklanın palto və ya paltarına tikirlər. bu yaşfda uşaqların oyununda əmək prosesləri epizodik xarakter daşıyır, onlarınoyununda əmək

prosesləri epizodik xarakter daşıyır, onların şəxsi təşəbbüsü ilə yaranır və tərbiyəci tərəfindən bəyənilir.

Uşaqlarda alətlərlə işləmək vərdişlərinin hələ formalaşmadığı, alətdən istifadəyə aid isə aydın göstəriş verilmədiyi hallarda əmək fəaliyyəti deyil oyun fəaliyyəti üstünlük təşkil edir.

Oyundakı hərəkətlərin şərtiliyi həmin yaşlı uşağın hadisələri ümumiləşdirmək, bir əşyada digər əşyanı təsəvvür etmək qabiliyyətini göstərir ki, bu da uşağın oyun fəaliyyətinin inkişafı üçün olduqca mühümdür. Lakin uşaqların əmək fəaliyyəti inkişafının ilk mərhələlərində əmək alətləri və əşyalarına müəyyən qədər oyun münasibəti bəslənirdisə. Gələcəkdə bu, əməyə düzgün münasibətin formalaşmasını tormozlandırır, hərəkətlərin dəqiqliyinin inkişafına, zəruri əmək vərdişlərinin tərbiyəsinə, nəticənin əldə edilməsinə mane olur. Ona görə də uşaqların yalnız oyun fəaliyyəti ilə məşğul olması əmək tərbiyəsini də ləngidir. Pedaqoq yerinə yetiriləcək tap.ırığın xarakterini, məqsədini aydın surətdə onlara izah etməli, material və alətlərdən necə istifadə edilməsi haqqında göstəriş verməlidir.

Uşaqlar alətlərlə işləmə vərdişlərinə yiyələndikcə və materialdan praktik surətdə istifadə etməyi öyrəndikcə prosessual oyun hərəkətləri getdikcə az müşahidə edilir, oyun və əməyin qarşılıqlı münasibəti dəyişir. Uşaqlar alət və materialın xassələrini və əldə etmək istədikləri nəticə arasındakı müəyyən asılılığı təyin etməyə başlayır, əllərindəki alətlə işləyərkən ondan lazımi yerdə istifadə edirlər. əgər uşaq alətlə yalnız oynayırsa, deməli, o, vərdişə yiyələnməmişdir. Bu, pedaqoq üçün siqnal olmalıdır. Deməli, onda lazımi bacarıq tərbiyə etmək üçün yollar axtarmaq lazımdır. Məsələn, uşaqlara qayçı ilə işləməyi öyrətmək üçün belə bir metodik priyomdan istifadə edilir: uşaqlara əriştə düzəltmək-qayçı ilə kağız zolaqlarını kəsmək təklif olunur. Bir neçə dəfə təkrar olunan hərəkət öz nəticəsini verir, yəni uşaqlar qayçını tutma, acıb-bağlama, kəsmə vərdişlərinə yiyələnirlər. Nəticə göz

qabağındadır, gör nə qədər əriştə var, oyunda ondan istifadə etmək, xörək bişirmək, kuklaları qonaq etmək olar.

Beləliklə vərdişin mənimsənilməsi eyni hərəkətlərin dəfələrlə təkrar olunması ilə müşahidə edilir. Pedaqoq bu gür təmrinlərlə oyun xarakteri, oyun məzmunu verir. Buna görə də təmrinlər uşaq üçün adi məşq kimi deyil, oyunun tələbatından irəli gələn hərəkətlər kimi meydana çıxır.

Uşaqlarda əməyə düzgün münasibət tərbiyəsi prosesində müxtəlif metodlar: əmək tapşırığının yerinə yetirilməsində səy üçün həvəsləndirmə, calışqan, təşəbbüskar uşağın işinə uşaq kollektivinin diqqətini cəlb etmə metodları tətbiq edilir.

Tərbiyəçi oyuna əsaslanaraq, uşağın qarşısında qoyduğu vəzifələri inandırıcı surətdə əsaslandıra bilər. Uşaqlar demək olar ki, həmişə onları həvəslə qəbul edirlər.

Bəzi pedaqoq uşaqlarda məişət bilikləri və əmək vərdişlərini möhkəmləndirmək üçün oyundan istifadə edir.

Oyun və əmək prosesləri arasındakı əlaqə əmək prosesinə nüfuz edən oyunun üstünlüyü şəraitində də pozulmur. Uşaqlar oyunu davam etdirmək üçün işi terinə yetirməyə tələsirlər. lazımi oyuncağı düzəltdikdən sonra onlar oyunu daha geniş oyun planı üzrə davam etdirirlər., çünki lazımi oyuncağın olması hərəkətlər dairəsini genişləndirir.

Oyunun ideyasının genişləndirilməsi ədəbi əsərlərin, yaşlıların danışdığı hekayələrin, televiziya və internet məlumatlarının təsiri nəticəsində baş verir.

Əgər oyunun ideyasını, əsasən uşaqların müxtəlif mənbələrdən aldıqları təəsüratlar müəyyən edirsə, ideyanı həyata kecirməyə imkan verən oyun hərəkətlərinin müxtəlifliyi oyuncaqların, əl işlərinin, cihazların rəngarəngliyi ilə əldə edilir, bütün bunlar oyuna yenilik gətirir.

Əmək prosesi realdır, çünki uşaq real əşyalarla iş görür. Oyunda isə uşaqlar yaşlıların əmək işlərini təqlid edirlər. Əmək alətləri uşaqlar tərəfindən oyuncaqlarla əvəz edilir. Oyun, hec bir zahiri nəticə verməsə də,uşaqlar a sevinc gətirir, ləzzət verir. Belə oyunlar, adətən uşaqların özü tərəfindən təşkil edilir. Əmək prosesində isə işin nəticəsi ön plana keçir,hamı işin nəticəsi ilə maraqlanır. Uşaqlarda

ünsiyyət güclənir,fikir vahidliyi yaranır, böyüklərin təcrübəsindən istifadə olunur və belətəcrübə naminə xarakteri daşıyır. Bütün bunlar əməkdə son nəticənin müvəffəqiyyətlə əldə olunmasına yaxından köməklik edir. Əməyin mənası da bu son nəticədədir. Kiçik məktəbəqədər yaşlı uşaqların əməyi özünəxidmət üzərində üurulur. Bu fəaliyyətin inkişafı prosesində uşaqlar özünəxidmət vərdişlərinə maraqla yiyələnir, müstəqil iş görməyəbaşlayırlar. Məktəbəqədər orta yaşda uşaqların əməyinin məzmununu onun fəaliyyətinə gətirib cıxarır. Bu yaşda uşaqların oyununda əmək prosesi epizodoik xarakter daşıyır. Bu, onların şəxsi təşəbbüsü ilə yaranır və tərbiyəçi tərəfindən tənzimlənir. Lakin uşaqların əməyinin həmişə oyunvari həyata kecirməsi səmərəli deyil. Tərbiyəçi uşaq əməyinin növü və xarakterindən asılı olaraq görüləcək işin məzmunu, istifadə olunacaq alətlərin mahiyyəti və onların istifadə qaydaları haqqında uşaqlara metodiki istiqamət verməlidir.

Uşaqlar alətrlərlə işləmək vərdişlərinə yiyələndikcə və materialda praktik surətdə istifadə etməyi öyrəndikcə prosesual oyun hərəkətləri müşahidə edilir, oyun və əməyin qarşılıqlı münasibəti yaranır.

Əgər uşaq alətdən yalnız oyun vasitəsi kimi istifadə edirsə, deməli, o, vərdişə yiyələnməmişdir. Bu, pedaqoq üçün siqnal olmalıdır. Deməli, onda lazimi bacarıq tərbiyə etmək üçün yollar axtarmaq lazımdır. Məsələn, uşaqlara qayçı ilə işləməyi öyrətmək üçün belə bir metodik priyomdan istifadə edilir: uşaqlara əriştə düzəltmək-qayçı ilə işləməyi öyrətmək üçün belə bir metodik priyomdan istifadə edilir: uşaqlara əriştə düzəltmək-qayçı ilə kağız zolaqlarını kəsmək təklif olunur. Bir neçə dəfə təkrar olunan hərəkət öz nəticəsini verir, yəni uşaqlar qayçını tutma, acıb –bağlama, kəsmə vərdişlərinə yiyələnirlər. Nəticə göz qabağındadır, gör nə əriştə var, oyunda ondan istifadə etmək, xörək bişirmək, kuklaları qonaq etmək olar.

Beləliklə, vərdişin mənimsənilməsi eyni hərəkətlərin dəfələrlə təkrar olunması ilə müşahidə edilir. Pedaqoq bu cür təmrinlərə oyun xarakteri, oyun məzmunu verir. Buna görə də təmrinlər uşaq üçün adi məşq kimi deyil, oyunun tələbatından irəli gələn hərəkətlər kimi meydana çıxır.

Əmək və oyunun qarşılıqlı əlaqəsinə əməyə maraq oyatmaqda kömək edən amil kimi baxaraq oyuncaq düzəltdikdə oyun üçün lazım olan əşyalar seçmək, bəzən isə əmək prosesinin özünün təşkilində uşağın oyuna marağı nöqteyi –nəzərindən cıxış etmək lazımdır.
Əmək prosesinin məzmununa daxil edilən oyun alınmış nəticəni əvvəlkindən də əhəmiyyətli edir.
Oyunda bu cür yayınmalar uşağın özünün qoyduğu məqsədə nail olmasına hec də maneçilik törətmir, əksinə belə hallarda məqsədə daha müfəfəqiyyətlə catmaq olur.
Oyun deyil, praktik cəhətdən tətbiq edilən müxtəlif əşyalardan, ağacdan, kağızdan oyuncaq düzəltmə üzrə əmək 5-5,5 yaşlı uşaqlar üçün əvvəlcə o qədər də maraq d oğurmur. Lakin onlar ana üçün, kicik qrup uşaqları, kicik bacı və qardaş üçün bu və ya digər bir işi görmək təklifinə həvəslə qoşulurlar. Bu halda əmək fəaliyyətinə maraq oyun perspektivi, öz oyun niyyətlərini dərhal yerinə yetirmək imkanı ilə deyil, yaxın adamlara və ya digər uşaqlara ləzzət vermək, yəni kicik qrup üçün rəf düzəltmək, ana üçün salfet kəsmək, kicik qardaş üçün qutu düzəltmək cəhdi ilə əldə edilir. Uşağa bu əmək proseslərinin məqsədi aydındır. O bilir ki, əldə etdiyi nəticə lazım olacaq, kimə isə ləzzət verəcək.
Beləliklə, oyun şəraitində keçən oyuncaq düzəltmə üzrə iş uşaqlarda əmək prosesinə maraq oyatmaq, yaxşı nəticə əldə etmək arzusuna imkan yaratmışdır.
Uşaqlarda əməyə düzgün münasibət tərbiyəsi prosesində müxtəlif metodlar: əmək tapşırığının yerinə yetirilməsində səy üçün həvəsləndirmə, calışqan, təşəbbüskar uşağın işinə uşaq kollektivinin diqqətini cəlbetmə metodları tətbiq edilir: “ Uşaqlar, bir baxın, Günəş və Vaqif su daşımaq üçün necə yaxşı fikirləşiblər: vedrəni onlar birgə qaldırır, hərəsinin o biri əlində su ilə dolu susəpən var, ona görə daşımaq da ağır deyil və birdəfəlik coxlu su gətirmək olar. ”

Tərbiyəci oyuna əsaslanaraq, uşağın qarşısında qoyduğu vəzifələri inandırıcı surətdə əsaslandıra bilir. Uşaqlar demək olar ki, həmişə onları həvəslə qəbul edirlər.

Cox vaxt oyun mamaentləri təkcə məktəbəqədər kicik, orta yaşlı uşaqların əməyində deyil, **məktəbəqədər böyük yaşlı uşaqların** da əməyində müşahidə edilir.

Böyük qrup uşaqlarının oyun prosesində fəal əmək fəaliyyətinin inkişafı bu yaşlı uşaqlara xas olan fəallıq və özfəaliyyətə. Onların nə isə öz əlləri ilə quraşdırmaq meylinə, əvvəlki yaş mərhələsinə nisbətən bu yaşda daha aydın surətdə biruzə verilən oyun ideyasının vahid xəttini üzun müddət saxlaya bilmək qabiliyyətinə arxalanır.

Əgər orta qrupda oyundan əmək prosesinə kecid uşaqları oyundan yayındırırsa və onlar cox vaxt öz arzuları ilə bir daha oyuna qayıtmırlarsa , böyük yaşda oyun ideyası uşaqlar üçün öz aktuallığını itirmir. Məsələn, uşaqlar oyuncaq düzəldir, onlar yaxşı bilirlər ki, sonrakı oyunda bundan istifadə edəcəklər.

Oyun və əmək prosesləri arasındakı əlaqə əmək prosesinə nüfuz edən oyunun üstünlüyü şəraitində də pozulmur. Uşaqlar oyunu davam etdirmək üçün işi yerinə yetirməyə tələsirlər. Lazımi oyuncağı düzəltdikdən sonra onlar oyunu daha geniş oyun planı üzrə davam etdirirlər, cünki, lazimi oyuncağın olması hərəkətlər dairəsini genişləndirir.

Oyunun ideyasının genişləndirilməsi ədəbi əsərlərin, yaşlıların danışdığı hekayələrin, televiziya və radio verilişlərinin təsiri nəticəsində baş verir.

Əgər oyun ideyasını, əsasən uşaqların müxtəlif mənbələrdən aldıqları təəsüratlar müəyyən edirsə, ideyanı həyata kecirməyə imkan verən oyun hərəkətlərinin müxtəlifliyi oyuncaqların, əl işlərinin, cihazların rəngarəngliyi ilə əldə edilir, bütün bunlar oyuna yenilik gətirir.

## Mövzu: 9. Məktəbəqədər yaşlı uşaqların inkişafında əmək və məşğələlər.

**Plan:**

1. Məktəbəqədər yaşlı uşaqların təliminin əsasları.
2. Məşğələlərdə uşaqların təlimi və əmək tərbiyəsi.
3. Məşğələlərdə uşaqalrın təlim üsulları.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı-1989.
4. Uşaq bağçası " Maarif"- Bakı, 1983.
5. R.Mursaqulova. N.Rüstəmova. Məktəbəqədər pedaqogika.Bakı-2012.


Məktəbəqədər pedaqogikada təlim uşaqların tərbiyəsinin və hərtərəfli inkişafının üzvi hissəsi və əsas vasitələrindən biri kimi müəyyən edilir. Təlim- tərbiyəci tərəfindən təşkil olunmuş pedaqoji prosesdir; həmin

proses zamanı uşaqlar tərbiyəçinin rəhbərliyi altında bir sıra elementar, dəqiq biliklərə, bacarıq və vərdişlərə yiyələnirlər. Təlim prosesində uşaqlarda əxlaqi. Iradi və esteteik keyfiyyətlər tərbiyə olunur və tədricən zehni əməyə qabiliyyət və maraq formalaşır, təfəkkür və nitq. Diqqət, yaddaş və təxəyyül inkişaf edir.

Təlim, uşaqlara planauyğun, müəyyən sistemdə bilik və vərdişlər vermək məktəbəqədər tərbiyənin vəzifələrinə uyğun olaraq, şəxsiyyətin müəyyən keyfiyyətlərini tərbiyə etməyə imkan yaradır.Təlimi təkcə biliklərin böyük nəsildən kicik nəslə bilavasitə verilməsi işi kimi qiymətləndirmək olmaz. Uşaqlatrın bilikləri mənimsəməsi mürəkkəb psixi prosesdir. Bu proses uşaqlardan diqqəti cəmləşdirmək, yiyələnəcəkləri bilik və vərdişləri başa düşmək, müəyyən təfəkkür müstəqilliyi tələb edir.

Təlim prosesində qarşıda bu vəzifələr əsas götürülür:

a) Biliklərin düzgün qavranılması və zehni iş vərdişlərinin formalaşması;
b) Müxtəlif fəaliyyət növlərində təkrarlar və təmrinlər yolu ilə biliklərin, vərdişlərin möhkəmləndirilməsi;
c) Uşaqlarda mühitə düzgün münasibət tərbiyəsi;
d) Sonrakı məşğələlərdə və müxtəlif fəaliyyət növlərində bilikləri müstəqil tətbiq etmək qabiliyyəti tərbiyəsi

Təlimin əsasını uşaqların dərk etmə fəaliyyəti təşkil edir. Əmək prosesinin təşkilində məşğələlərin yeri məsələsinin aydınlaşdırılması mühüm məsələlərdən biridir. Süfrə salma, bəzi xörəklərin nahara hazırlanması vərdişlərinə yiyələnmə, təbiətdəki müxtəlif əmək prosesləri, ləklərin bellənməsi, soğanın, şitilin, toxumların əkilməsi, hətta suvarma məşğələ formasında həyata kecirilir.

Məşğələ saatlarında frontal əmək proseslərinin təşkili əməyi bir qədər məhdudlaşdırır, cünki məşğələlərdə ciddi reqlamentə əməl olunmalı, məşğələlər idrak məızmunu daşımalı, uşaqlar tərbiyəçinin göstərişlərini dəqiq yerinə yetirməli, tərbiyəşi uşaqlara hər şeyi göstərməli və izah etməlidir.

Uşaqların eyni vaxtda başladıqları işin gedişində bir-birinə kömək göstərmək zərurəti meydana cıxır: biri tutur, digəri mıx vurur.qarşılıqlı kömək, xüsusilə ilk vaxtlar uşaqlar yeşiyin dibi ilə yan tərəflərini mıxlayanda zəruruidir. Əlbir işin gedişində uşaqlar mıxı necə vurmaq, taxtaları daha yaxşı yığmaq üçün onları necə tutmaq haqqında bir-birinə məsləhət verirlər. Lakin vaxtı məhdud olan pedaqoq uşaqların hamısı işi başa catdırmasa da, onlara işi qurtarmağı təklif edir. Məşğələnin gedişində əsl əmək prosesinin müstəqil surətdə dərk olunması, mövcud tərbiyə istinad etmək kimi imkanlar istisna edilirdi.

Bu nə ücün belə olmuşdur? Səbəb. əməklə məşğələlərə eyni nöqteyi-nəzərdən baxmaq cəhdindədir.

Uşaqların məşğələlərdəki təlimi ilə əmək arasında əsaslı fərqlər mövcuddur. Məşğələlərdə uşaqların fəaliyyəti bütövlükdə tərbiyəçi tərəfindən istiqamətləndirilir. O, məşğələnin məzmununu, onun nəticəsini proqrama müvafiq müəyyənləşdirir.

Əmək prosesində pedaqoq və uşaqlar arasında məşğələlərə xas olan qarşılıqlı münasibətlər formalaşır: pedaqoq uşaqları öyrədir. Lakin əməyin bu cür təşkili zamanı pedaqoq və uşaqlar arasında adətən əməkdaşlıq yaranmır.Məsələn, beş yaşlı uşaqlar noxud əkirlər. Onların fəaliyyəti aşağıdakı kimi təşkil edilir: tərbiyəçi əvvəlcədən uşaqların sayına görə ləklərdə cubuqlar basdırır.

Belə təşkil edilmiş, yəni fəaliyyətin bütün ardıcıllığı uşaqların əvəzinə pedaqoq tərəfindən düşünülən, onların isə hec bir səyi lazım olmayan əmək prosesi əmək adlandırıla bilməz. Bu, adi məşğələdir, onun məqsədi isə uşaqlara noxud əkməyi öyrətməkdən ibarət olmuşdur. Gün reyimində uşaqların əməyi ücün kifayət qədər vaxt ayrılır, ona görə də məşğələlərə ayrılan vaxta toxunmağın lüzumu yoxdur.

Bütün uşaqlara göstərilməli olan əmək proseslərini ( ilk dəfə verilən alətlərlə iş, bostanda tərəvəzin əkilməsi və səpini üzrə işin ardıcıllığı, otaq bitkilərinin qələm edilməsi və s.) bütün qrupla eyni vaxtda təşkil etmək məqsədəuyğun olardı. Gələcəkdə buna oxşar işi uşaqların kicik bir dəstəsinə tapşırmaq asanlıqla nəzarət edə

bilər. Əməyin nəticələri, onun keyfiyyəti yüksək olur, bu da uşaqlara sevinc gətirir.

Məşğələlərdə əmək tərbiyəsi prosesində uşaqları yaşlıların əməyi ilə tanış edirlər.

Ölkəmizdə son illərin pedaqoji və psixoloyi tədqiqatları göstərir ki, uşaqlara biliklər müəyyən ardıcıllıqla verildikdə, gercəkliyin bu və ya digər hadisələrinin əsas qanunauygunluqları onlar ücün asan formada işıqlandırıldıqda onların mənəvi və əqli inkişafında əsaslı dəyişikliklər baş verir.

Məşğələlərdə asan formada yaşlıların əməyi ilə məktəbəqədər yaşlı uşaqların tanışlığı yaşlıların müxtəlif əməyi haqqında təsəvvürləri əks etdirən uşaq oyunları məzmununun genişləndirilməsi ücün imkanlar acır. Bu oyunların mənəvi-idrak səviyyəsi yüksəlir: uşaqlarda yaşlılarla birgə əməkdə iştirak etmək arzusu yaranır: öz vəzifələrinin və tap.ırıqların yerinə yetirilməsinəonlar daha məsuliyyətlə yanaşırlar.

Məktəbəqədər böyük yaşlı uşaqlarda onların səviyyəsinə uyğun şəkildə insanların əməyinin ictimai əhəmiyyəti, onun kollektiv xarakteri, əməyə vicdanlı münasibəti haqda təsəvvürlər formalaşdırmaq olar. Məşğələlər sistemoində bu cür təsəvvürlərin formalaşması uşaqların idraki marağını artması, ümumiləşdirmələrə  qabil olduqları və həmçinin onların bu dövr üçün formalaşmış sabit əməli fəaliyyəti ilə izah edilir ki, bu fəaliyyət də uşaq bağçası və ailənin gündəlik həyatında müxtəlif əmək tapşırıqlarını yerinə yetirmə vərdişi və bacarıqlarına istinad edir.

Yaşlıların əməyi haqda təsəvvürlərin formalaşdırılması uşaq şəxsiyyətinin ideya tərbiyəsinə təsir göstərir. Bu zaman belə məsələlərin həllini  təmin edən pedaqoji şərtlərə riayət etmək zəruridir. Pedaqoji proses elə qurulur ki, yaşlıların əməyi haqda təsəvvürlər dairəsinin genişləndirilməsi uşaqların özlərinin aktiv fəaliyyəti ilə uyğunlaşır.

Uşaqların yaşlıların əməyi ilə tanışlığının məzmununu müəyyənləşdirərək insanların əməyinin xarakterik xüsusiyyətlərini göstərmək vacibdir.

Əmək tərbiyəsi prosesində məktəbəqədər yaşlı uşaqların vətənpərvərlik tərbiyəsi həyata kecirilir. Uşaq tədricən yaşlıların əməyinə hörmət etməyin onların əmək məhsullarına qayğılı münasibət bəsləməsinin zəruriliyini dərk edir, o bütün insanlara Vətənimizin nə qədər əziz olduğunu və cicəklənməsi ücün nəyin lazım olduğunu anlamağı başlayır. Məktəbəqədər böyük yaşlı uşaqlar başa düşürlər ki, Vətənə əsl məhəbbət sözdə yox işdə, ümumən xeyrinə yönəldilən əməkdə özünü biruzə verir.

Məktəbəqədər müəssisədə uşaqların əməyi bir fəaliyyət kimi təşkil edilir ki, bu fəaliyyətin də nəticəsi olduqca vacibdir. Tədricən bu fəaliyyət oyundan ayrılır, məşğələlərdən secilir və artıq məktəbəqədər yaşın ilkin mərhələsində müstəqil əhəmiyyət daşıyır.

Əmək tərbiyəsi və uşaqların məktəb təliminə hazırlığının bəzi məsələləri üzrə aparılan tədqiqatlar göstərir ki. fəaliyyətin daha yüksək mərhələsinə- təlimə kecmək ücün uşağın şxsi arzusundan onun əhval ruhiyyəsinin təsadüflərindən asılı olmayaraq onda gücü catan vəzifələri müntəzəm surətdə yerinə yetirmək qabiliyyətinin tərbiyəsi mühüm şərtdir. Məktəbəqədər yaşın sonunda uşaq özünün o qədər də mürəkkəb olmayan işlərinin öhdəsindən yaxşı gəlirsə, hesab etmək olar ki, o, məktəbin onun üzərinə qoyacağı daha mürəkkəb vəzifələri yerinə yetirməyə hazırdır.

Uşaq bağçasında təlim, uşaqları hərtərəfli inkişafın- fiziki, əxlaqi, zehni və estetik inkişafın tədricən daha yüksək pilləsinə qaldırmalıdır. Müxtəlif yaş qruplarında uşaqların mənimsəyəcəkləri bilik və vərdişlərin həcmi tərrbiyənin vəzifələri və hər bir yaşda olan uşaqların inkişaf xüsusiyyətləri ilə müəyyən edilir.

3-dən 4 yaşınadək olan uşaqlar təlim prosesində müxtəlif seylərlə. Onların formasdı, rəngi və vəzifəsi ilə, ev heyvanları və bitkilərlə, əhatə olunduqları təbiətin, məişət və ictimai həyatın ən sadə

hadisələri ilə tanış olur, onlar arasındakı, əlaqə və münasibətləri anlamağa başlayırlar.

Uşaqların biliyinin daha yüksək pilləyə kecməsi onları həyatın xeyli müxtəlif hadisələri ilə tanış etməyə imkan verir. 5-6 yaşlı uşaqları yaşlıların əməyi ilə, bəzi ictimai müəssələrlə (məktəb, kitabxana və s.) səhərin yeni salınmış parkları və görməli yerləri ilə taçış edirlər. Uşaqlarda doğma vətənə, öz xalqına məhəbbət, əməksevərlik, ictimai davranış vərdişləri tərbiyə edirlər.

Məktəbəqədər yaşlı uşaqlar təlim prosesində təbiət haqqında xeyli məlumat alır. Bitki yetişdirmək və heyvanların həyatı haqqında bəzi biliklərə yiyələnirlər. onlarda təbiəti müşahidə etmək qabiliyyəti inkişaf etdirilir və təfəkkürün ilk elementləri tərbiyə olunur. Uşaqların təbiətdə əməyin ən sadə növlərinə alışdırılır, onlarda təbiət gözəlliyini qavramaq və sevmək qabiliyyəti tərbiyə olunur. Uşaqlara, həmçinin yaradıcı fəaliyyətdə istifadə olunan vərdişlər, ən sadə təsviri vərdişlər  öyrədilir, eyni zamanda uşaqlar fəzada əşyaların formasını, rəngini, tənasübünü, bölgüsünü öyrənirlər.

Tərbiyəci təlim və tərbiyəni elə həyata kecirməlidir ki, uşaqlar müəyyən bilik və bacarıqları qavrayarkən, onları öz fəaliyyətlərində tətbiq edə bilsinlər. Məsələn, tərbiyəçi uşaqlara toxumdan bitki yetişdirilməsi üçün nə etmək və necə etmək lazım gəldiyini izah edir və göstərir. Sonra uşaqlar tərbiyəçinin nəzarəti altında torpağı hazırlayır, toxum səpir, suvarır və sonradan cücərtinin, gövdənin, yarpaqların və güllərin necə əmələ gəlməsini izləyirlər.

Yaxşı təşkil olunmuş təlim nəinki uşaqların biliyinin zənginləşməsinə, diqqət, təfəkkür və nitqinin tərbiyəsinə. Həm də onlarda tapşırığı yerinə yetirərkən rast gəldikləri cətinlikləri müstəqil surətdə aradan qaldırmaq qabiliyyətinin formalaşmasına kömək edir. Cətinliklərin aradan qaldırılması, uşaqların öz fəaliyyətinin yaxsı nəticələrini görmək qabiliyyəti onlarda şən emosiyalar, estetik hisslər doğurur və iradi keyfiyyətlər tərbiyə edir.

**Mövzu-10. Məktəbəqədər yaşlı uşaqların yaşlıların əməyi ilə tanış edilməsi.**

**Plan:**

1. Yaşlıların əməyinin uşaqların inkişafına təsiri.
2. Yaşlıların əməyə emosional münasibətinin uşaqlara təsiri.
3. Birgə əməyin uşaqların inkişafına tərbiyəvi təsiri.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı-1989.
4. Uşaq bağçası " Maarif"- Bakı, 1983.
5. R.Mursaqulova. N.Rüstəmova.Məktəbəqədər pedaqogika.Bakı-2012.

Məktəbəqədər yaşlı uşaqlar yaşlıların əməyinə böyük maraq göstərir, oyunda və məişətdə onları təqlid edir və özləri də nə isə quraşdırmağa calışırlar. Yeddi yaşına kimi onlar asanlıqla özünəxidmət, səliqə-səhman saxlamaq, bitkilərə qulluq üzrə sadə əmək bacarıqlarına yiyələnirlər.

Məktəbəqədər yaşlı böyük uşaqlar kollektivə xidmət üzrə sadə vəzifələri müvəffəqiyyətlə yerinə yetirir, tapşırılmış işə görə elementar məsuliyyət daşıyır, işdə rast gələn kicik cətinlikləri aradan qaldıra bilirlər.

Əməyə müsbət münasibət və adətin yaranması üçün ətrafdakı yaşlıların canlı nümunəsi onların əməyi ilə bilavasitə təmasda olmaq mühüm əhəmiyyət kəsb edir. Uşaqların tərbiyəsində yaşlıların nümunəsinin təsiri haqqında N.K,Krupskaya, M.İ.Kalinin, A.S.Makarenko dəfələrlə danışmışlar. Onlar uşağı daima əhatə edən əmək armosferinin böyük əhəmiyyətini qeyd edirdilər.

Lakin uşaqalrda əməyə psixoloji cəhətdən hazırlıq tərbiyə etmək yalnız fəaliyyət prosesində mümkündür. Uşaq bağçalarında yaşlıların məişət əməyinin daha səmərəli təşkili üçün bütün imkanlar vardır. Bu əməkdə onun ictimai xarakteri aydın görünür.Ona görə də elə şərait yaratmaq lazımdır ki, uşaqlar yaşlıların davranışının qüvvətli nümunələrindən istifadə edə bilsinlər.

Burada müxtəlif yollar mövcuddur. Birinci yol uşaqlarla yaşlıların müxtəlif əməyinin nümayişi və bu əməyin əhəmiyyətinin izahından, ikinci yol yaşlılarla uşaqların birgə fəaliyyətinin bilavasitə təşkilindən ibarətdir.

Yaşlıların əməyi ilə tanışlıq uşaqlara əmək haqqında konkret bilik və təsəvvürlər vermək, yaşlıların əməyinə hörmət hissi tərbiyə etmək, onu qiymətləndirməyi öyrətmək, əməyə maraq və məhəbbət oyatmaq məqsədini daşıyır.

Eyni zamanda uşaqların davranışına təsir göstərmək, yəni işləmək, ləyaqətlə, səylə işləmək arzusu doğurmaq məsələsi həll olunur.

**Yaşlıların əməyinin uşaqların inkişafına təsiri.**

Uşaq bağçasının əmək tərbiyəsi üzrə apardığı işin özünün mürəkkəb cəhətləri vardır, cünki yaşlıların əməyinin xüyli hissəsi uşaqların gözü qarşısında kecmir. Ona görə də uşaqları uşaq bağçasında işləyən yaşlıların əməyinə yaxınlaşdırmağın yol və formalarını axtarmaq, uşaqlarda əmək vərdişlərinin formalaşdırılmasına bu əməyin təsirinin fəallaşdırmaq, yaşlıların nümunəsinin hansı şəraitdə daha təsirli olmasını müəyyənləşdirmək, həmcinin yaşlıların uşaqların gözləri qarşısında və yaxud onlarla birgə həyata kecirilən əməyinin məzmununu prinsip və formalarını işləməyib hazırlamaq lazımdır.

Uşaq bağçası işçilərinin əməyinin uşaqlarla yaxınlaşdırılmasının mümkünlüyü, yaşlıların canlınümunələrindən uşaqların istifadə edə bilmələri ücün şərait yaradılması məsələsinin həllində müxtəlif yollar mövcuddur, məsələn, yaşlıların əməyinə uşaqların yaxınlaşdırılmasdı, yaşlıların işinin uşaqlara yaxınlaşdırılması və nəhayət, yaşlıların və uşaqların birgə fəaliyyəti.

Birinci yoldan uşaq bağçasında geniş istifadə edilir.bu yol xüsusi təşkil rdilmiş məşğələlərdə yaşlıların əməyini uşaqlar qarşısında nümayiş etdirilməsi müşahidələr, mətbəxə, anbara, həkimin kabinetinə və s. mütəşəkkil baş cəkmələrdən ibarətdir. Uşaqlara xörəyin hazırlanmasını, paltarın yuiyulmasını, geyimin təmiri və tikilməsini, sahənin yığışdırılmasını, mebel və oyuncaqların təmirini göstərirlər.

Uşaq bağçasında yaşlıların əməyi üzrə müşahidələr uşaqların təsəvvürlərini dəqiqləşdirir, hər seyə həvəs yaşlıların fəaliyyətinə maraq oyadır, onların əməyinə müsbət münasibətin yaranmasına kömək edir.

Əmək üzrə xüsusi müşahidələrin əhəmiyyətini qeyd edərək onları uşağın inkişafına təsir edən daha fəal vasitələrlə  tamamlamaq lazımdır. Yaşlıların əməyini mümkün qədər uşaqlara yaxınlaşdırmaq lazımdır.

Gigiyenik və pedaqoji nöqteyi-nəzərdən hər bir mümkün olan şey yaxşı olardı ki, uşaqların gözləri qarşısında görünsün. Uşaqların gözləri qarşısında sistematik və təbii surətdə baş verən əmək, adətən onların diqqətini cəlb edir, yaşlıları təqlid edərək, uşaqlar özləri hərəkət etməyi arzulayırlar. Yaşlı adam uşaqları işə cəlb rdərək və onu birgə əmək kimi təçkil edərək öz nümunəsini daha da fəallaşdıra bilər.

gUşaqlar qarşısında və hətta onlarla birlikdə yaşlıların əməyinin təşkili nə dərəcədə mümkündür, tərbiyəvi cəhətdən bu bizə nə verir? Yaşlılarla uşaqların bu cür birgə fəaliyyətinin hansı prinsipləri konkret məzmunu və formaları mövcuddur?

Uşaqların yanında yaşlıların əməyi haqqında danışanda biz belə bir işi nəzərdə tuturuq ki, burada ya əməyin nəticəsi-ya da konkret əmək hərəkətləri uşaqlar üçün kifayət qədər əyani olsun.

Birgə iş haqqında söhbət acanda biz yaşlıların uşaqlarla belə bir fəaliyyətini nəzərdə tuturuq ki, burada tərbiyəçi nəinki uşaqların əməyini təşkil edən və istiqamətləndirən şəxs kimi, həm də əmək prosesinin bilavasitə iştirakçısı kimi cıxış etsin.

Yaşlıların məişət əməyinin ( yır-yığış, xörəyin hazırlanması və s.) nümunələri, eləcə də tibb işcilərinin-tibb bacısının, həkimin müxtəlif hərəkətləri uşaqlara, xüsusilə kicik və orta yaşlı uşaqlara güclü təsir göstərir. Bu əmək uşaqlara aydındır. Cünki o, onlkarın şəxsi tələbatlarının ödənilməsinə yönəldilmişdir. Burada coxlu maraqlı hərəkətlər var, onu cox vaxt müşahidə etmək olar. Bu əməkdə uşaqların özlərinin səliqə-səhman saxlamaq, gigiyenik qaydalara riayət etmək, davranışı ilə sıx bağlı olan coxlu momentlər var. Uşaqların oyunları göstərir ki, onlar şəxsi təşəbbüslərinə görə yaşlıların əməyini təqlid edirlər.

Kicik qrupun tərbiyəçisi üçün uşaq bağçasının digər işçilərinin, xüsusən dayənin əmək davranışı nümunəsindən maksimum istifadə etmək vacibdir. Bu, uşaqların qayğısını hər an hiss etdikləri ən yaxın adamdır. Dayənin əməyinin xeylihissəsi uşaqların gözləri qarşısında kecir.

Bu əmək həm hərəkətlərin xarakteri, həm də gözə carpan nəticələri etibarilə əyani və anlaşıqlıdır. O, uşaqlara aşıladığımız vərdişlərə yaxın coxlu elementləri səciyyələnir. Lakin təkcə nümunənin özü kifayət deyildir. əgər dayə qeyri-adi bir iş görürsə , uşaqlar buna fikir verirlər. Lakin bu proseslər bir necə dəfə təkrar olunduqda onlar buna vərdiş edir və daha fikir vermirlər. Ona görə də yaşlının əməyindəki imkanlar uşaqlara gözə carpacaq dərəcədə təsir göstərmir.

3-4 yaşlı uşaqlar hələ özləri ətrafdakıların fəaliyyət nümunəsindən faydalı bir nəticə cıxarmaqda cətinlik cəkirlər. Yaşlılar uşaqlara gücləri catacaq tapş.ırıqlar verərək, elementar əməkdaşlıq yaradaraq, onları əmək prosesinə cəlb edir. 3-4 yaşlı uşağın özünün fəal hərəkət etmək imkanı olduqda o, yaşlıların əməyi haqqında dəqiq və tam təsəvvür alır. Onları təqlid etməyə başlayır.

Məsələn, səhər sil-süpürdən sonra dayə uşaqlara kicik susəpəndə su gətirməyi, yarpaqları və ya oyuncaqları silməyi tapşırır. Dayə uşaq əməyinin təkcə təşkilatcısı kimi cıxış etmir. O, uşaqlarla birgə işləyir, işinin əsas hisəsini, daha mürəkkəb işləri yerinə yetirir. İki-üc uşaq onun yanında işlədiyi üçün dayə onların hərəkətlərini izləyir və eyni zamanda öz işini yerinə yetirir. Beləliklə, dayə şəxsi nümunəsi ilə uşaqlara təsir edir və eyni zamanda uşaqların kicik qrupunun təşkilatcısı kimi cıxış edir, onların özlərini əməyə alışdırır. Bütün uşaqlara vərdişlər aşılamaq, onların işini təçkil etmək və özü də əməkdə iştirak etmək-bütün bunları eyni zamanda yerinə yetirmək tərbiyəçi üçün cətindir.Eyni zamanda bir neçə uşaqla təmasda olan dayə üçün isə bu işi görmək asandır. Lakin bunun üçün onun əlində pedaqoqların müvafiq təlimatı olmalıdır.

Dayənin uşaqlarla əməkdaşlığının nə kimi tərbiyəvi təsiri var və o, hansı şəraitdə daha effektliu olur?

Kiçik qrupda yaşlının əməyinə uşaqların cəlb edilməsi hər seydən əvvəl. Bacarıqların mənimsənilməsində özünü göstərir. Əgər hərəkətlər uşaqlar üçün asandırsa, onlar yaşlının elədiyini tam dəqiqliklə təkrar edirlər. Dayə stolun üstündən cörək qırıntılarını yığır. Uşaqlar da baxıb eynilə onun hərəkətlərini təkrar edirlər. Dayə süfrəni cırpıb yıgır və uşağı da bu işə cəlb edir. O biri süfrəni bu uşaq eynilə dayənin elədiyi kimi artıq başqa uşaqla birgə yığır.

**2.Yaşlıların əməyə emosional münasibətinin uşaqlara təsiri.** Yaşlının əməyə emosional münasibəti uşaqlara böyük təsir göstərir. Dayənin səyini, gümrah, enerjili iş tempini uşaqların təqlid etmələri onlarda əməyə olan müyli xeyli artırır. Səhər dayə nəm əski ilə qapıları, pəncərə altlıqlarını silir. O. Uşaqları cağırıb işini əyani surətdə onlara göstərib, onları həvəsləndirir. Uşaqlar onun göstərişi ilə müəyyən yaş səviyyələrinə uygun işlər icra edirlər.

Bu cür yanaşmada dəyənin işləmək təklifindən hec kəs boyun qacırmır, cox zaman uşaqlar özləri onlara tapşırıq verilməsini xahiş edirlər. İş prosesində bəzi uşaqlar eyni dərəcədə dəyanətli olmur, bəziləri asanlıqla oyundan yayınırlar ki, bu da həmin yaşlı uşaqlara xasdır. Başlıcası odur ki. uşaqlrada işləmək arzusu yaranır.

Dayənin uşaqlara olan təsiri onun əmək mədəniyyəti məcəlləsini ciddi surətdə müydana qoyur. Uşaqlar ən erkən yaşlarından səmərəli təşkil edilmiş iş nümunəsini görməlidirlər. Əvvəllər dayə bir-bir, iki-iki fincanları gətirərək qəhvəni, cayı, kompotu paylayırdı. O vurnuxurdu, artıq vaxt sərf edurdi. Sonralar padnosdan istifadə edərək bir dəfəyə 6-8 fincan götürürdü. Məktəbəqədər yaşlı uşaqlar bu cür priyomdan istifadə edə bilməsələr də onlar düşünülmüş, səmərəli iş nümunəsini görürlər. Əgər dayə boş fincanın qulpundan tutursa uşaqlarda bu mədəni priyomu tezliklə qavrayırlar.

Lakin dayənin ən yaxşı əmək nümunəsi belə, uşaqların davranışına həmişə təsir etmir, cünki onların diqqəti yayğın olur və hələ ən vaciblisini secə bilmirlər. Yaşlıların yerinə yetirdiyi hərəkətlərin xüsusiyyətlərinə uşağın diqqətini cəlb etmək üçün müxtəlif üsullardan istifadə olunur. Burada yaşlının öz hərəkətlərinin şifahi şərhi böyük rol oynayır. Yaşlının sözü hərəkətlərin xarakterini, işin mənasını daha yaxşı başa düşməkdə uşaqlara kömək edir.

Dayə bitkini yuyur. Uşaqlar da onun yanında calışırlar. Onlar oz işlərilə bərk məşğul olduqları üçün dayənin hərəkətlərinə fikir vermirlər. Dayə iş görə-görə danışır: “ yarpağı hər tərəfdən yaxşı silərəm.Bütün yarpaq təmiz olar....İndi də o biri yarpağı götürək. Birini də gözdən qacırmayaq.” Uşaqlar qulaq asır, dayəyə baxır və daha yaxşı işləməyə calışırlar.

Bu cür iş görə-görə danışma balaca uşaqlarla aparılan işdə böyük əhəmiyyət kəsb edir. Lakin cox zaman bu dolayı priyom kifayət etmir. Burada yaşlının yerinə yetirdiyi hərəkətə uşaqların diqətini bilavasitə cəlb etmək zəruridir.

Gündəlik məişət əməyindən başqa uşaqları uşaq bağçasında döşəmə silənin, montyorun əməyi kimi epizodik xarakter daşıyan əməklə tanış etmək lazımdır. Uşaqları xarratın mebel, oyuncaq təmir etdiyini, dərzinin paltar tikdiyini, rəngsazın divarları rənglədiyini, bıcaq itələyənin bıcaq itiladiyiz, süsəsalanın süsə salmasını, və s. göstərmək oılar.

Böyük yaşlı uşaqlar artıq məişət əməyi ilə az maraqlanırlar. Lakin ondan istifadə etmək lazımdır, cünki bu əmək prosesində uşaqların diqqətini onun aşağıdakı cəhətlərinə, məsələn, işin mütəşəkkilliyi, məsuliyyət, kollektiv ahəngdarlıq kimi cəhətlərinə yönəldilir.

Böyük yaşlı uşaqları uşaq bağçasından kənarda baş verən əmək daha cox cəlb edir. Oyunlarda uşaqlar həm inşaatçıların, həm nəqliyyat işcilərinin, həm də kolxozçuların hərəkətlərini təqlid edirlər. Bu əmək üzrə müşahidələrin bacarıqlı təşkili ümumi əmək təmayülünün və uşaqların özlərinin fəaliyyətinin formalaşdırılması üçün böyük əhəmiyyət kəsb edir.

Daim yadda qalan təəssüratlar, yaxın ətrafda baş verən əmək üzrə müşahidələr daha cox təsir göstərir.

Tərəvəz və meyvələrin yetişdirilməsi, ev heyvanlarına qulluq edilməsinə dair əmək üzərində səmərəli təşkil edilmiş müşahidələr uşaqların davranışında əks olunur. Bu və ya digər səciyyəvi olan və cox vaxt uşaqların gözləri qarşısında baş verən əmək belə bir mühit yaradır ki, burda onlar təqlid etmək üçün daim nümunələr götürə bilərlər. Belə bir cəhəti də yaddan cıxartmaq olmaqz ki. bu əməkdə cox vaxt valideynlər və uşaqlara yaxın olan başqa adamlar iştirak edir. Bu, uşaqların uşaq bağçasında aldıqları təəssüratları gücləndirir.

Əməklə tanışlığın tərbiyəvi əhəmiyyəti təkcə hansı əməyin müşahidə edilməsindənz yox, həm də bu uşaqların diqqətinin onun hansı cəhətlərinə yönəldilməsindən asılıdır.

Parniklərə ekskursiya zamanı tərbiyəçi ümumi qayda-qanuna, mükəmməl düşünülmüş işə, günəş şüalarının icəri daxil olması və şitilliyin qızdırılması üçün şüşələrin təmiz yuyulmasına, küləş həsirlərin səliqə ilə yığılmasına, cığırların qumla örtülməsinə fikir verir.

Əmək nəticəsində baş verən qəribə dəyişikliklər uşaqlarda heyranlıq hissi yaratmalıdır: boz kələ-kötür şalbanın hamar, parlayan tirə cevrilməsini, köhnə,

cirkli divarların rənglənməsini və bunun da nəticəsində gözəl, cazibədar olmasını, qarla örtülmüş kücənin təmizləndikdən sonra nəqliyyat və piyadaların sərbəst hərəkəti üçün yenidən öz geniş qoynunu acması nı, dərzinin əlində parcanın geyim predmetinə cevrilməsini və s. gördükdə onlar laqeyd olmamalıdırlar.

Beləliklə, uşaqlar tədricən əməyin mənasdını başa düşməyə başlayır, onun şövqü ilə vəcdə gəlirlər.

Məktəbəqədər böyük yaşda uşaqlarda əmək vərdişləri və bacarıqlarının tərbiyəsi üçün imkanlar xeyli artır. Beş yaşlı uşaqlar artıq bir cox vərdişlərə yiyələnir, onlar özünəxidmətdə və qrup üzrə elementar vəzifələrin yerinə yetirilməsində müstəqildirlər.

Uşaqların əmək fəaliyyətinə olan marağı getdikcə artır və bu fəaliyyət tədricən oyundan ayrılaraq onların həyatında daha böyük yer tutmağa başlayır. Bu zaman yaşlıların nümunəsinin əhəmiyyəti daha da artır. Məktəbəqədər kicik və orta yaşlı uşaqlara nisbətən bu nümunə böyük yaşlı uşaqlara daha güclü təsir göstərir. Məktəbəqədər böyük yaşlı uşaqları bağça işçilərinin əməyinin bir cox növləri ilə taçış etmək və onları gücü catacaq dərəcədə bu əməkdə iştirak etməyə cəlb etmək olar. Beş-altı yaşlı uşaqların qarşılıqlı kollektiv münasibətləri o qədər möhkəm olur ki, bu vaxt yaşlıların və uşaqların birgə fəaliyyətinin təşkilinin müxtəlif formaları ücün imkan yaranır.

Məktəbəqədər böyük yaşlı uşaqlar daha işgüzar və fəaldırlar. Onlar yaşlıların əməyini müşahidə edərək həmişə az da olsa bu əməkdə iştirak etməyə calışırlar. Ona görə də böyük qrupları nəzərdə tutaraq, uşaqların gözü qarşısında baş verən yaşlıların əməyindən deyil, uşaqların müxtəlif dərəcədə iştirakı ilə birgə fəaliyyətdən danışmaq lazımdır. Böyük qruplarda tərbiyəçinin təşkilatçılıq rolu azlmır, əksinə artır, cünki əməkl daha da mürəkkəbləşir və bu əməkdə etni zamanda xeyli uşaq iştirak edir. Uşaqlar daha bacarıqlı, müstəqil, mütəşəkkil olduqları üçün tərbiyəçi onların əmək prosesini nəinki istiqamətləndirməyə hətta özü də bu əməkdə fəal istirak etməyə imkan tapır.

Məktəbəqədər müəssələrdə uşaqlar müntəzəm olaraq müxtəlif işləri yerinə yetirirlər, yaşlılar isə uşaqların qarşısında əməklə az məşğul olurlar. Materialın məşğələlər üçün hazırlanması. Oyuncaq və vəsaitlərin təmiri, mebel və alt paltarların xırda təmiri kimi işlər, bir qayda olaraq, uşaqların olmadığı vaxtda kecirilir. Uşaq bağçalarında qrup müntəzəm olaraq kollektiv surətdə yığışdırılır, xırda seylər yuiyulur, bəzi xörəklərin hazırlanması nəzərdə tutulur.

Birgə əmək uşaqların inkişafına nə kimi tərbiyəvi təsir göstərir, uşaq bağçasında həyata kecirilən əmək tərbiyəsi sistemində nə kimi yer tutur? Yaşlıların və

uşaqların birgə işinin təsiri əmək bacarıqlarının uşaqlar tərəfindən mənimsənilməsində ozünü acıq-aydın büruzə vermişdir. Xüsusən orta və böyük qruplarda bacarıqların. əmək mədəniyyətinin mənimsənilməsi daha aydın görünür. Məsələn paltar yuyulyn zaman bir cox uşaqlr paltarı sıxmağı bacarmaırlar, izahatlar isə düzgün priyomları mənimsəməkdə onlara az kömək edir. Lakin yaşlının əməyi üzrə müşahidə və onu təqlid etmə uşaqlara bacarıq və vərdişlərin mənimsənilməsində daha cox kömək edir. Uşaqlar paltarlartı sərməzdən qabaq cırpma priyomundan hec də hər vaxt istifadə etmirlər. Yaşlılar isə adət etdikləri üçün uşaqlarla birgə paltar yuduqda bu priyomdan istifadə edirlər. Uşaqlar bunun bununnə ücün belə edildiyini dəqiqləşdirir, və özləri də nəm paltarları çırpırlar.

Uşaqların gözləri qarşısında yaşlıların təbiivə dəfələrlə baş verən hərəkətləri onlarda fəal təqlidetmə döğurur. Belə bir şəraitdə uşaqlar nə etmək tələb olunduğunu asanlıqla dərk edir, bacarığı tez qavrayırlar.

Ətrafla tanışlıq üzrə məşğələlərin məzmununun bacarıqla secilməsi məktəbəqədər yaşlı uşaqlarda müsbət əmək istiqamətinin yaradılması üçün mühüm amildir.

Belə halda bu məzmunun uşaqların şüuruna necə çatdırılması, tərbiyəçinin hansı priyomlardan istifadə etməsi mühüm əhəmiyyət kəsb edir.

Canlı obrazlar, yaşlıların əsl əmək nümunələri daha anlaşıqlı və inandırıcıdır. Həyati əyanilik təsəvvürlərin daha cox aydınlığını, uşaqların əldə etdikləri biliklərin yüksək dərəcədə təsirliliyini təmin edir.

Yaşlıların əməyi ilə uşaqları tanış edərkən tərbiyəçilər, bir qayda olaraq əyani metodlardan istifadə edirlər ki, bunları da onlar şifahi metodlarla bacarıqla uyğunlaşdırırlar, böyük yaşlı uşaqlarla aparılan işdə axırıncıların rolu arta bilər. Şifahi metodlar arasında uşaq bədii ədəbiyyatdan istifadə edilməsi xüsusi yer tutur.

Uşaqların əmək istiqamətinin formalaşdırılmasında bədii əsərlərin mütaliəsi mühüm rol oynayır.

Uşaqların yaşlıların əməyi ilə tanış edilməsinin daha təsirli üsulları müşahidə və ekskursiyalardır. Möşahidələr üçün elə iş növü secmək vacibdir ki, onlar tərbiyəvi cəhərdən qiymətli, məzmunlu, uşaqların başa düşməsi üçün asan olsun, onlarda yaşlıların əmək davranışını təqlid etmək arzusu yaratsın.

Uşaqları əməklə tanış edərkən məlumatların genişləndirilməsində tədriciliyi gözləmək vacibdir. Nəzərə almaq lazımdır ki, təəssüratların coxluğu o yerə gətirib cıxarır ki, uşaqlar əməyə düzgün münasibətin formalaşdırılmasına, əmək vərdişi və bacarıqlarının yaradılmasına az təsir edən natamam, səthi məlumatlar alırlar.

Müşahidə prosesində az həcmli məlumatlar verərək tədricən köhnə biliyi möhkəmləndirmək , məlum olan yeni biliklərlə tamamlamaq, onları genişləndirib dərinləşdirmək lazımdır. Uşaqları dərk edilən hadisəyə yalnız belə, tədricən dəırindən daxil etməklə onlarda əmək haqqında düzgün təsəvvür, ona qarşı düzgün münasibət yaratmaq mümkündür.

Yşlıların əməyi haqqında uşaqların biliklərinin tədricən genişləndirilməsi və dərinləşdirilməsi uşaqlarla birlikdə yaşayış evinin inşasının dəfələrlə müşahidəsi nümunəsində izləmək olar. İlk dəfə uşaqlar bənnanın işini:divarların hörülməsini, kərpicin daşınmasını müşahidə etmişdilər. Sonrakı ekskursiya zamanı uşaqlar tikindidəki irəliləyişi görmüşdülər –ev " ucaltmışdılar."

Təsəvvürlərin tədricən müntəzəm surətdə genişləndirilməsi kənd yerlərindəki, eləcə də yay mövsümündə istirahətə gedən şəhər uşaq bağçalarının işində istifadə etmək xüsusilə vacibdir. Baharın sonunda, yayda, payızın əvvəlində çölə, çəmənə, heyvandarlıq fermalarına ardıcıl surətdə bir sıra ekskursiyalar təşkil edirlər. Uşaqlar inəklərin sağılmasını, südün bidonlara doldurulmasını, xamanın düzəldilməsini, südün süd zavoduna yollanmasını müşahidə edirlər, tərbiyəçilər yağın, pendirin necə alınması haqda uşaqlarla söhbət aparırlar.

Məzmunun bu cür mürəkkəbləşdirilməsi nəinki idrakı materialın həcminin artmasında, həm də onun xarakterinin tədricən dəyişilməsində, müşahidə edilən hadisələrin mahiyyətinə daha dərindən müdaxilə edilməsində ifadə olunması olduqca vacibdir. Əvvəlcə uşaqları əməyin xarici cəhəti- adamların gözə carpan hərəkətləri , əmək alətləri, materiallar cəlb edir. Əməkçinin özü, onun işə olan münasibəti, digər adamlarla qarşılıqlı münasibətləri, adətən , uşaqların diqqətindən yayınmır.

Müşahidə prosesində uşaqların diqqətini yaşlıların əməyinin elə cəhətlərinə cəlb etmək lazımdır ki, uşaqlarda əməyə düzgün münasibət tərbiyəsi, şəxsi əmək davranışının formalaşdırılması üçün onların əhəmiyyəti daha mühüm olsun. Yaşlıların əməyi üzrə müşahidələr o halda xüsusilə təsirlidir ki, idraki material emosional cəhətdən dolgun olsun, əmək gözəlliyini işıqlandırsın, uşaqlarda heyranlıq hissi yaratsın.

Uşaqlarda yaşlıların müşahidə olunan əməyinə maraq xüsusilə o zaman artır ki. onlar bu əməkdə azacıq da olsa iştirak edə bilsinlər. Əmək səyinin sevincini öz hərəkətlərinin nəticələrini hiss edərkən onlar sonra da uşaq bağcasında və ailədə. Öz kicik vəzifələrini yerinə yetirdikdə xüsusi bir həvəslə işləməyi davam edirlər.

Məktəbəqədər böyük yaş mərhələsində uşaqlar artıq öz əməyinin ictimai faydasını elementar şəkildə dərk etməyə qabildirlər. Onlar yaşlılarla birgə əməyə cəlb olunduqlarından fəxr edir və uşaq bağçasının ümumi təsərrüfatına gücləri catacaq dərəcədə paylarını daxil etdiklərindən, yaşlılara kömək göstərdiklərindən zövq alırlar. Əmək prosesindən zövq alan, həm də özləri və başqaları üçün, ümumi iş üçün onun faydasını hiss edən uşaqlar yaşlı

## Mövzu-11.Yaşlıların əməyi ilə tanışlıq prosesində uşaqların vətənpərvərlik tərbiyəsinin pedaqoji əsasları

**Plan:**

1. Məktəbəqədər yaşlı uşaqlarda vətənpərlik hissinin formalaşdırılması.
2. Yaşlıların əməyi ilə tanışlıq prosesində böyük bağça yaşlı uşaqların vətənpərvərlik tərbiyəsi.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı-1989.
4. Uşaq bağçası “ Maarif”- Bakı, 1983.
5. R.Mursaqulova. N.Rüstəmova. Məktəbəqədər pedaqogika.Bakı-2012.

Vətənpərvərlik hissi –insanın doğulduğu yerə, ətraf təbiətə, öz xalqına, ana dilinə. Zəhmətkeş insanların əməyi ilə mədəni və mənəvi mədəniyyət sahəsində yaradılan bütün zənginliklərə bəslədiyi bağlılıq və sevgi hissidir. Bu hiss insanı səmərəli fəaliyyətə və böyük mübarizələrə ruhlandırır, bununla da onun ümumi inkişaf və yetkinləşməsində olduqca mühüm rol oynayır.

Uşaqlarda vətənə məhəbbət hissinin inki.afınma düzgün istiqamət vermək üçün hər bir tərbiyəçi vətənpərvərlik vəzifələrini aydın dərk etməli və onları müntəzəm həyata kecirməyə calışmalıdır. Məktəbəqədər tərbiyə müəssəsində vətənpərvərlik tərbiyəsinin vəzifələrini müəyyənləşdirərkən belə bir cəhətə xüsusi diqqət yetirmək lazımdır.

Bağçada vətənpərvərlik tərbiyəsinin vəzifələrini müəyyənləşdirərkən belə bir cəhətə xüsusi diqqət yetirmək lazımdır. Vətənpərvərlik tərbiyəsi əxlaqi tərbiyənin mühüm tərkib hissəsidir. Məhz buna görə də vətənpərvərlik tərbiyəsinin vəzifələri, hər seydən əvvəl, böyüməkdə olan nəslin əxlaq tərbiyəsinin əqsəd və vəzifələri ilə müəyyən edilir.

**Gəncə şəhərində 31 saylı körpələr evi –uşaq bağçasında -26** uşaqla kecirilən müsahibə göstərdi ki. hec bi ruşaq nəinki başqalarına zərər gətirici arzu ifadə etməmiş, onların hamısı xalqa xidmət etmək arzusubda olduqlarını bildirmişlər. cavablar mühazirə mətnimizdə qeyd edilən kimi olmuşdur:

**Pərvanə adlı uşaq: ( 6-yaş)** " Mən sülh istəyirəm. Mən həkim olub xəstələri müalicə edəcəyəm, onları xəstələnməyə qoymayacağam. Əynimdə ağ xalatınm olacaq. "

**Kamil adlı uşaq: (5-yaş 8 aylıq.)** " Mən qardaşım kimi mühəndis olacam. Uca binalar, evlər, əyləncə mərkəzləri tikəcəm. Mən əsgər olub Vətənimizi qoruyacam. "

Rəsul adlı uşaq: ( 5-yaş 7 aylıq ) " Mən təyyarəçi olacam, göydə ucacağam. Calışacağam ki, müharibə olmasın. Bunu mənə atam öyrədib."

**Nigar adlı uşaq: ( 6-yaş)** " Mən müəllim olacağam, balaca uşaqlara çoxlu şer, nağıl və hekayələr öyrədəcəyəm."

Digər uşaqlar isə bunları qeyd edirlər: " Bizim üçün bu gözəl bağçaları ulu öndərimiz Heydər babamız və İlham Əliyev yüksək səviyyədə təmir elətdirib. Biz onları sevir və həmişə alqışlayırıq."

Bütün cavablar hamısı belə gozəl məzmunlu və dolgundur. Əgər uşaq : "Həkim olmaq istəyirəm"-deyirsə, bunun arxasında " "Xəstələri əziyyətdən qorumaq", onları " tezliklə sağaltmaq", " ata-anasını müalicə edib sağaltmaq" kimi humanist fikirlər durur.

Hissiyatın vətənpərvərlik tərbiyəsindəki rolunu əsas götürərək calışmaq lazımdır ki. uşaqlarda oyanmış hisslər qeyri-fəal olmasın, onları Vətən yolunda xidmət etməyə təhrik etsin.

Vətəni sevmək kimi yüksək əxlaqi hiss, hər şeydən əvvəl, məktəbəqədər yaşlı uşaqlarda Vətən və vətənpərvərlik haqqındakı təsəvvürlərə yiyələnmə prosesində təşəkkül tapır. Buna görə də vətənpərvərlik tərbiyəsində uşaqların şüuruna təsir göstərmək onların Vətən və vətənpərvərlik haqqında düzgün təsəvvürlərə

yiyələnmələrinə nail olmaq lazımdır. Lakin uşaqlarda vətənpərvərlik tərbiyəsini yalnız şüura təsir etməklə məhdudlaşdırmaq səhv olardı. Uşaqlarda “ Vətən” və “ vətənpərvərlik” haqqında təsəvvür yaradarkən onların hisslərinə də təsir göstərmək və bu istiqamətdə fəaliyyətlərini təşkil etmək zəruridir.

Uşaqlar hələ bağça yaşından bilməlidirlər ki, Vətəni sevmək ancaq sözdə deyil, işdə, əməli həyatda özünü göstərməlidir. Bu məqsədlə tərbiyəçi calışmalıdır ki. inandırma üsulunu alışdırma üsulu ilə yanaşı tətbiq etsin. Uşaqları yaşlıların əməyi ilə taçış etməklə bərabər, onları ictimai-faydalı əməkdə ( xalqa fayda verən əməkdə) qüvvələrinə müvafiq müntəzəm calışdırmaq mühüm şərtdir. Xüsusən bu yaşda uşaqlarda dözüm, uzun sürən cətinlikləri aradan qaldırmaq bacarığı tələb edən əməli davranış tərbiyə etmək lazımdır.

Əməli fəaliyyət nəticəsində əmələ gəlmiş vətənpərvərlik hissləri davranış prosesində daha da möhkəmlənir və tədricən dərinləşir. Uşaqları həqiqi vətənpərvər kimi yetişdirmək üçün onlara hərtərəfli təsir etmək Vətənə məhəbbət hissi aşılamaq, omların şüur, hiss və iradəsinə təsir edən müxtəlif vasitələrdən istifadə etmək lazımdır.

Vətənə məhəbbət hissi adamlarımızı yeni-yeni əmək qəhrəmanlıqlarına ruhlandırır. Böyük vətən müharibəsi illərində ağlasığmaz cətin günlərində və qələbədən sonrakı dinc quruculuq illərində , elm və mədəniyyətin yüksəlişində göstərdiyi tarixdə

misli görünməmiş qəhrəmanlıqlar öz gücünü vətənpərvərlikdən alır.

Bu gün isə yenə də doğma Ana Vətənimizdə quruculuq işləri: Cocuq Mərcanlıda quruculuq işlərinin aaprılması daha böyük bir vətənpərlik hissinin elə gənc nəsillərə aşılanmasının bariz nümunəsidir.

Bağça yaşlı uşaqların vətənpərvərlik tərbiyəsini onların psixi proseslərinin inkişafı ilə əlaqələndirmək mühüm şərtdir.

Uşaqların vətənpərvərlik tərbiyəsində onların təfəkkür və nitqlərinin formalaşması müstəsna əhəmiyyət kəsb edir.

Məlumdur ki, 6-7 yaşlı uşaqlarda təfəkkür sürətlə inkişaf edir. Onlar gördükləri, esitdikləri seylər haqqında düşünür, onlarla maraqlanırlar. Bu yaşda uşaqlar əşyalar arasındakı əlaqəni öyrənməyə səy edir, mühitdə gördükləri fakt və hadisəni izah etməyə calışırlar.

Uşağın təfəkkürünü inkişaf etdirmək məqsədi ilə onu ətraf aləmlə tanış edərkən, təbiət və cəmiyyət hadisələri haqqında dolğun məlumat verilməlidir. Nəzərə almaq lazımdır ki, bağçayaşlı uşağın həyat təcrübəsi cox məhdud, təfəkkürü isə konkret xarakter daşıyır: Buna görə uşağa verilən hər bir izahat, xüsusilə vətənpərvərlik haqında anlayış müəyyən konkret material əsasında olmalıdır.

Tərbiyəçi bilməlidir ki, uşağa sadəcə olaraq məlumat vermək, ayri-ayrı faktları yadında saxlamasına nail olmaq hələ təfəkkürün düzgün inkişafını təmin etmir.

6-7 yaşlı uşaqlarda əxlaqi hisslər də sürətlə inkişaf edir. Onlar gördüklərini təqlid etməyə calışırlar. Lakin bu yaşlı uşaqların

təqlidi  sırf mexaniki xarakter daşımır. Onlar bəzən müşahidə etdikləri sey və hadisəyə öz münasibətlərini bildirir, yaxşını pisdən ayıra bilir, adamların hərəkətlərində nəzərə  çarpan mənfiliklərə öz münasibətlərini göstərir və etirazlarını bildirirlər. Böyük qrupa mənsub uşaqlar bağçada tərbiyəçinin sözündən cox, hərəkətlərinə fikir veririlər. Ailədə, həyatda zəhmət adamlarını gördükcə, uşaqlarda əməyə meyl daha da artır. 6-7 yaşlı uşaqlar fiziki və psixi cəhətdən müəyyən inkişaf mərhələsinə catırlar. Belə ki, onlar hər seyi bilməyə, öyrənməyə həvəs göstərir, tapşırılmış iş üçün məsuliyyət hiss edir, qoyulmuş qaydaya tabe olmağa calışırlar. Onlar tədricən mücərrəd bilikləri kəsb edir,nitqlərində söz ehtiyyatı artır və fəaliyyətlərində ixtiyari diqqət daha geniş yer tutur.

Bunu nəzərə alaraq məktəbəqədər yaşlı uşaqların tərbiyəsində nümunə, xüsusilə tərbiyəçinin və valideynin şəxsi nümunəsi ciddi rol oynayır.

A.S.Makarenko deyirdi ki, " uşaqları və gəncləri hər sey- insanlar, cisimlər, lakin hər seydən əvvəl və hamıdan cox insanlarZ, xüsusilə valideynlər, müəllimlər, tərbiyəçilər tərbiyə edir. Onlar, şəxsi nümunələri və öz davranışları ilə daim uşaqlara, yeniyetmələrə təsir göstərirlər."

Lazımi bilikləri və həyati təcrübələri olmayan uşaqlar, xüsusilə məktəbəqədər yaşlı uşaqlar ətraf adamların işlərinə və hərəkətlərinə baxır, onları təqlid edir və onlara oxşamağa calışırlar. Buna görə də valideynlər öz hərəkətləri, əməlləri, geyimləri,

adamlara yanaşmaları ilə uşaqlara daim təsir etdiklərini unutmamalıdırlar.

Uşaqlarda öz xalqına, öz vətəninə, dogma yerlərə, dogma təbiətə olan məhəbbət onların yaşına və anlaq səviyyəsinə uyğun tədbirlər və məşğələlərin kecirilməsi prosesində aşılanır.

6-7 yaşlı uşaqlarda vətənpərvərlik hissi. Öz doğma kənd və şəhərinə məhəbbət formasında təzahür edir. Bu prosesdə aşağıdakı xüsusiyyət mühüm rol oynayır.

Uşağın “ ictimai” əlaqələri yalnız onun yaxın adamlara olan münasibətləri ilə məhdudlaşmır. Uşaq müxtəlif adamlarla, müxtəlif ailələrlə, qohumların, qonşuların həyatı ilə tanış olur. Bu zaman o öz anası ilə qonşu qadını, öz evləri ilə qonşu evini, öz kəndləri ilə qonşu kəndi fərqləndirməyə başlayır.

6-7 yaşlı uşaqda öz evinə, öz kəndinə münasibət. Hər şeydən əvvəl, müxtəlif adamlar. Ailələr, qohumlar haqqındakı təsəvvürlər əsasında yaranır.

Tarixi bayramlar, tarixi günlər, görkəmli şəxsiyyətlərinhəyat və fəaliyyəti ilə tanışlıq, habelə ölkəmizdə müxtəlif peşə günlərinin ( “ neftçilər günü”, “ Rabitəçilər günü” “ müəllimlər günü”, və s. ) bayram edilməsi uşaqların vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Belə ictimai hadisələr uşaqlarda həm də ictimai hisslər yaradır.

Uşaqların vətənpərlik tərbiyəsində təbiətdə tanışlıq da mühüm əhəmiyyət kəsb edir. Bu cəhətdən tanınmış görkəmli şəxsiyyət M.İ. Kalinin belə demişdir:

“ Adamda Vətənə məhəbbət, doğma ye rlərə, şəhərinə, kəndinə”, həyətindəki ağcaqayın ağacına, doğma kəndinin ətrafını bürüyən dağlara olan məhəbbətdən başlayır.”
Yaşlıların əməyi ilə tanışlıq prosesində uşaqlarda vətənpərvərlik hissinin formalaşmasında duyğu, qavrayış, hafizə və s. psixi proseslərin müəyyən rolu vardır.

Uşaqlarda ətraf mühit haqqında bilik və anlayışlarını dürüstləşdirməkdə onlarda müşahidəçilik qabiliyyətini inkişaf etdirmək müstəsna əhəmiyyət kəsb edir. Şüurun müəyyən bir obyekt üzərinə yönəldilməsi diqqətlə sıx bağlıdır. Bunu nəzərə alaraq əmək adamlarının işinin müşahidəsi üçün elə obyektlər secmək lazımdır ki, onlar uşaqların diqqətini özünə cəlb etsin, onlarda yüksək əxlaqi hisslər, xüsusilə Vətənə məhəbbət hissi tərbiyə etsin.

Vətənpərvərlik tərbiyəsində iradi keyfiyyətlər, maraq və meyllər,temperament və xarakterin bir cox xüsusiyyətləri də mühüm əhəmiyyət kəcb edir. Bunların icərisində hisslərin mövqeyi müstəsnadır.

Uşaq bağçasında tərbiyə işi uşaqlarda əxlaqi təsəvvür və hisslərin genişlənməsinə, daha sabit və dərin olmasına yönəldilməlidir. Bununla əlaqədar tərbiyəçilər qarşısında bir sıra vəzifələr durur:

1. Uşaqların sinir sistemininvə analizatorlarının normol inkişafını təmin edən şərait yaratmaq və uşaqları əməli

fəaliyyətlər haqqında konkret təsəvvürlər verən fakt və hadisələrlə qarşılaşdırmaq.

2. Uşaqların həyat təcrübələrinə daha cox istinad etmək və onların fəal lüğət fondunun zənginləşdirilməsi qeydinə qalmaq.
3. Uşaqlarda əməyin hazır məhsullarına; yaşlıların əməyinə emosional –müsbət münasibət formalaşdırmaq, yaşlıların əməyində iştirak etmək meyli aşılamaq.
4. Yaşlıların əməyinin ictimai xarakterini uşaqlara dərk etdirmək.

**Mövzu: 12. Vətənpərvərlik tərbiyəsində yaşlıların əməyi ilə tanışlıq başlıca amillərdəndir.**

**Plan:**

1. Məktəbəqədər yaşlı uşaqların Vətənə məhəbbət hissi tərbiyəsində yaşlıların əməyi ilə tanışlıq.
2. Məşğələlər vasitəsilə uşaqların vətənpərvərlik tərbiyəsi.
3. Bağçada uşaqların ictimai işlərinin səmərəli formaları.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.

3. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı-1989.
4. Uşaq bağçası “ Maarif”- Bakı, 1983.
5. R.Mursaqulova. N.Rüstəmova. Məktəbəqədər pedaqogika.Bakı-2012.

Məktəbəqədər yaşlı uşaqların Vətənə məhəbbət hissi tərbiyəsində yaşlıların əməyi ilə tanışlıq müstəsna əhəmiyyət kəsb edir. Həmişə bütün cəmiyyətdə şan-şöhrət və şərəf işi hesab edilən əmək hər bir insanın başlıca fəaliyyət sahəsidir. Öz yaradıcı əməyilə təbiəti dəyişdirən, misilsiz xarüqələr yaradan , cevik insanların əməksevərlilik kimi mühüm əxlaqi keyfiyyəti, gənc nəslin tərbiyəsində ciddi təsir qüvvəsinə malikdir. Uşaqlar kicik yaşlardan ata-analarının, qohum və tanışlarının əməyini müşahidə etdikcə, onlarda zəhmət adamlarına rəğbət gündən –günə güclənir. Onlar başa düşürlər ki, hər şey doğma yurdun, doğma Vətənin cicəklənməsi, tərəqqisi naminə edilir. Hər il, hətta hər ay salınan yeni-yeni coxmərtəbəli binalar, bağlar, park və xiyabanlar uşaqlarda fərəh hissini gücləndirir., onlarda doğulduöu kücəyə, şəhərə və kəndə məhəbbəti artırır.Onlar 6-7 yaşdan “ Bu bizim Bakıdır”, “ Bu bizim kəndimizdir”,” Mən bu məktəbdə oxuyacam”, “ Məktəbi təzəcə tikiblər”, və s. mühakimələr yürüdür və get-gedə anlayırlar ki, hamı Vətənimizin, xalqımızın xeyrinə işləyir.

Bizim ölkəmizdə hər bir adamın cəmiyyətdəki mövqeyini onun maddi vəziyyətini, milli mənsubiyyətini, cinsi, xidməti vəzifəsi deyil, şəxsi qabiliyyət və əməyi müəyyən edir.

6-7 yaşlı uşaqlar artıq bilməlidirlər ki, bizim Vətənimizdə bütün əmək növləri yaxşı və faydalıdır,o xalqın xeyrinədir, dövlətimiz respublikanın əhalisinin yaxşı yaşaması üçün ildən ilə əmək haqını artırır. Bizim üçün bu gün əmək qəhrəmanlıq və şərəf işidir. Sadə adamları ucaldan, onlara şöhrət qazandıran yaradıcı əməkdir.

Uşaqları hər tərəfli əməyə hazırlamaq, bu və ya digər üsullarla onların hiss və şüuruna təsir göstərmək, zəhmət adamlarının əməyinə hörmət, vətənə məhəbbət tərbiyəsinin əsasaını təşkil edir.

Aparılan tədqiqatlar və qabaqcıl uşaq bağçalarının təcrübəsi göstərir ki, vətənpərvərlik hissini uşaqlar o vaxt yaxşı dərk edirlər ki, o digər hisslərin tərbiyəsilə sıx bağlı olsun; elə ki, uşaqlarda bu hiss- insanları sevmək, onlara hörmət göstərmək, xeyirxah olmaq, adamalrın hər cür əməyinə hörmət etmək, ana təbiəti, doğma xalqı, onun ənənəsini sevmək, kollektivdəki birgə əməkdən sevinmək və s. yüksək hisslərlə əlaqələndirilməlidir.

Uşaqların vətənpərvərlik tərbiyəsində şəhər uşaqlarının kənd, Kənd uşaqlarının isə şəhər həyatı ilə tanış olmasına böyük əhəmiyyəti vardır.

Respublikamızda uşaqların müşahidə etdikləri gündəlik hadisələr onlarda Vətənə məhəbbəti gücləndirir, qəhrəmanlara hüsn-rəğbət hissini artırır, kicik yaşdan əməksevər, cəsur olmaq kimi yüksək əxlaqi keyfiyyətlər yaradır. Bu işdə tərbiyəçinin məşğələlərdə uşaqların bilik səviyyəsinə uyğun bədii ədəbiyyatdan, əmək adamlarından gətirdiyi nümunələrin böyük əhəmiyyəti vardır. Həqiqətən nümunə qədər uşaq xarakterinə təsir göstərən ikinci amil yoxdur. Canlı, həyati nümunələr, bədii ədəbiyyatdan gətirilmiş misallar uşaqların şüurunda, hafizəsində möhkəm həkk olunur.

Uşaqlarda Vətənə məhəbbət hissini aşılamaq üçün uşaq bağçalarında müxtəlif yol və vasitələrdən istifadə olunur. Bağçada təlim-tərbiyənin əsas təşkilat forması məşğələdir. Məşğələlər vasitəsilə uşaqlar müntəzəm olaraq müəyyən biliklərə, bacarıq və vərdişlərə yiyələnirlər. Müntəzəm şəkildə aparılan məşğələlər uşaqların əqlini inkişaf etdirməklə yanaşı, onlarda nəcib əxlaqi

keyfiyyətlərin təşəkkülünə şərait yaradır. Hər bir məşğələ düzgün təşkil edildikdə, ona düzgün istiqamət verildikdə, uşaqlarda Vətənə məhəbbət, düşmənə nifrət hissi oyadır. Bu cəhətdən ana dili məşğələsi müstəsna təsir qüvvəsinə malikdir.

Uşaqlar kicik yaşlardan ata-analarının, qohum və tanışlarının əməyini müşahidə etdikcə, onlarda zəhmət adamlarına rəğbət gündən-günə güclənir. Onlar başa düşürlər ki, hər şüy doğma yurdun, doğma vətənin cicəklənməsi, tərəqqisi naminə edilir. Hər il, hətta hər ay salınan yeni-yeni coxmərtəbəli binalar. Bağlar, park və xiyabanlar uşaqlrada fərəh hissini gücləndirir, onlarda doğulduğu kücəyə, şəhərə və kəndə məhəbbəti artırır.

**Məşğələlər vasitəsilə uşaqların vətənpərvərlik tərbiyəsi.** Ana dili məşğələsi tərbiyəsinin qüdrətli vasitəsidir. Bu məşğələ uşaqların təfəkkürünün və idrak qabiliyyətlərinin inkişafı ilə sıx surətdə bağlıdır. Ana dili məşğələlərində tərbiyəcilər oxunan və nağıl edilən materialı anlamağı uşaqlara öyrətməklə yanaşı, onların nitqini formalaşdırır, eyni zamanda onlarda gözəl tərbiyəsinə xas olan düzlük, doğruculuq, Vətənə, xalqa xidmət və sairə əxlaqi sifətləri tərbiyə edirlər.

Ana dili məşğələsi uşaqların inkişafında, nitq və təfəkkürünün formalaşmasında əvəzedilməz vasitəsidir. Vətən və dil anlayışları bir-birilə qırılmaz surətdə bağlıdır. Cünki uşaqlar hiss və həyacanlarını əsasən dil vasitəsilə ifadə edirlər. Bu məşğələlər uşaqların lüğət ehtiyatını zənginləşdirməklə yanaşı, onların dünyagörüşünü də formalaşdırır. Ana dili uşaqlara ətraf mühiti dərk etdirir.

Görkəmli rus pedaqoqu K.D.Uşinski ana dilinin uşaq həyatında oynadığı böyük roldan danışarkən deyirdi:" Uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir. O eyni zamanda ana dilinin doğma döşündən mənəvi və qüvvət icir. Ana dili təbiəti ona hec bir tərbiyəçinin izah edə bilmədiyi bir şəkildə izah edir."

Ana dili məşğələlərində uşaqlar öyrənirlər ki, azad və cicəklənən Vətənimizdə xalqımız böyük əmək xarüqələri göstərir, kəndin, şəhərin siması gündən-günə dəyişir, yeni-yeni möhtəşəm

binalar, uşaq bağçaları, məktəblər, xəstəxanalar, yaşayış binaları tikilir, hamı Vətənimizin gözəlləşməsi naminə var qüvvə ilə işləyir.

Məşğələlər düzgün təşkil edildikdə uşaqlarda əlbir işləmək, mehribanlıq, mütəşəkkillik, xeyirxahlıq, əməyi sevmək, Vətənin xeyrinə iş görmək inamı təşəkkül tapır. Məşğələlərdə oxunan müxtəlif mətnlər, hekayələr vasitəsilə uşaqlar öyrənirlər ki, dövlət vətənpərvərliyi fəal vətənpərvərlikdir, o hər kəsdən öz gücünə görə Vətənə xeyir verməyi tələb edir. Bundan başqa onlar Vətən və insan əməyi haqqında təsəvvürə malik olurlar.

Uşaqları ictimai hadisələrlə vaxtında tanış etməkdə, tarixi günləri təntənə ilə kecirməkdə ana dili məşğələsinin müstəsna əhəmiyyəti vardır. Məşğələləri uşaqların təəssürat və məlumatları ilə əlaqələndirməyin tərbiyə işində böyük əhəmiyyəti vardır. Maraqlı odur ki, uşaqlar müvafiq mövzu ilə əlaqədar işə təhrik olunsun.

Uşaq oyunlarının təhlili göstərir ki, oyunda uşaq ətraf mühit, əmək və ictimai hadisələrlə daha yaxından tanış olur. Uşaqların yaşına və bilik səviyyəsinə uyğun təşkil edilmiş oyunlar onlarda Vətənə, onun adət və ənənələrinə dərin maraq və həvəs oyadır. Oyun xalqımızın əmək və ənənələrini dərk etməkdə, doğma yurdla yaxından tanış olmaqda məktəbəqədər yaşlı uşaqlar üçün əvəzedilməz vasitədir.

Uşaq bağçasında musiqi məşğələləri vasitəsilə də uşaqlarda vətənpərvərlik hissi aaşılanır. Bu məşğələlər uşaqlarda estetik zövq, yüksək emosionallıq tərbiyə etməklə yanaşı, həm də onlarda müsbət əxlaqi keyfiyyətlər tərbiyə edir. Mahnıların məzmunu uşaqlar tərəfindən tez  qavranılır, eyni zamanda Vətənə məhəbbət hissi də yaranır. Mahnının təsir gücü insanları mübarizəyə ruhlandırır. Azərbaycan dövlətimizin himhi uşaqlarda böyük Vətənimizə məhəbbət hissini və Vətən qürurunu gücləndirir.

Kicik yaşlarından uşaqlarda Vətənə məhəbbət hissi aşılamaq sahəsində uşaq bağçalarında musiqi məşğələlərindən geniş istifadə edilməlidir.

Uşaqların vətənpərvərlik tərbiyəsində əmək məşğələlərinin də rolu böyükdür. Əmək məşğələləri uşaqlarda mütəşəkkillik, kollektivçilik, qayğıkeşlik, səmimilik və mehribanlıq, habelə Vətənə məhəbbət hissi tərbiyəsi üçün cox faydalıdır.

Yaşlarına və bilik səviyyələrinə uyğun əmək işlərinə cəlb olunması və əmək motivli oyunlar uşaqlarda yaşlılara məhəbbət hissini gücləndirdiyi kimi, onların bir-birinə qayğı ilə yanaşmalarına, valideynlərinə, onların əməyinə hörmət və məhəbbət ruhunda tərbiyə olunmalarına kömək edir. Buradan da uşaqlarda oyuncaqlara, uşaq bağçası işçilərinə, ailədə ata-anasına, onların zəhmətinə məhəbbət artır.

Əl əməyi məşğələsi iradə, xarakter və əməyə dərin münasibəti tərbiyəsinə ciddi kömək edir ki, bunlar da vətənpərvərlik tərbiyəsi ilə sıx əlaqədədır.

Uşaqların ən sadə əmək işləri belə onları birgə yaşayıb işləməyə öyrətməlidir.

Bağçada uşaqların ictimai işlərinin səmərəli formaları aşağıdakılardır: qrupun səliqəyə salınması, yaşıllaşdırma işlərində iştirak etmək;bağçanı sahədə və təbiət guşəsində ağaclara qulluq, gülləri becərmək, sınmış oyuncaqları kicik yaşlı uşaqlar üçün düzəltmək, cırılmış kitabın səhifələrini yapışdırmaq, kolleksiya hazırlamaq üçün toxum yığmaq və s.

Əmək işi uşaq bağçalarında təlim-tərbiyə vəzifələrinə tabe olmalıdır. Tədriclə uşaqların, hər birinin qüvvə və imkanları, maraq və tələbləri nəzərə alınmaqla əməyə cəlb edilmələri tərbiyəvi cəhətdən cox mühümdür. Tərbiyəçilərin məşğələlər zamanı uşaqlara verdikləri sadə biliklər, onlarda başqa əxlaqi keyfiyyətlərlə yanaşı milli vətənpərvərlik tərbiyəsinə xidmət etməlidir.

Uşaq marağı coxcəhətli olduğundan, məşğələlərdən kənar tərbiyə işləri də aparmaq zəruridir. Uşaq bağçalarının məşğələdə həyata kecirdiyi tərbiyə vəzifələri əslində eyni məqsəd daşıyır. Hər iki halda məqsəd uşaqlara dünya görüşü və əxlaqın əsaslarını aşılamaqdan, gənc nəsli vətənə sədaqət ruhunda tərbiyə etməkdən

ibarətdir.Fərq həmin vəzifələri yerinə yetirmənin təşkilati-metodik cəhətində özünü göstərir.

Məşğələ bütün uşaqlar üçün məcburi olan dövlət proqramı üzrə aparıldığı halda, məşğələdənkənar iş uşaqların marağına, arzu və müstəqilliyinə istinad etməlidir. Məşğələdənkənar işlərin öz forma və üsulları vardır. Buraya, gəzintilər, ekskursiyalar, səhərciklər və s. daxildir.

**Mövzu-13. Məktəbəqədər yaşlı uşaqların özünəxidmət əməyinin məzmunu.**

**Plan:**

1. Məktəbəqədər yaşlı uşaqların özünəxidmət əməyi haqqında**.**
2. Pedaqoji prosesdə özünəxidmət əməyinin düzgün təşkili**.**
3. Özünəxidmət vərdişlərinin formalaşdırılması metodları.

**ƏDƏBİYYAT:**


**1.** Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000

**2.** Məktəbəqədər pedaqogika.“Maarif”, Bakı, 1964.

**3.** A.Həsənov. Kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsi. Bakı- 1987

**4.** A.Həsənov. Məktəbəqədər pedaqogika. Bakı- 2000.

**5.** A.Həsənov. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi (tədris-metodik vəsait) Bakı- 1993.

**6.** Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.

Məktəbəqədər yaşlı uşaqlarda həyatda zəruri olan vərdişlərin formalaşması əhəmiyyətli dərəcədə gündəlik şəxsi tələbatın ödənilməsinə yönəldilən fəaliyyətlə bağlıdır. Kicik uşaqların əmək tərbiyəsi özünəxidmətdən başlayır. Əl-üz yumaq, geyinmə və s. yalnız şərti olaraq əmək tərbiyəsinin məzmununa daxil ola bilər. Lakin uşaqların özünəxidmət prosesində əldə etdikləri vərdişlərin böyük tərbiyəvi əhəmiyyətli və həyati zəruriliyi onu mühüm əmək növlərindən biri kimi irəli sürür. Özünəxidmət böyük yeksənəkliklə səciyyələnən sadə əməliyyatlarla bağlıdır ki, bu da əl-üz yumaq, geyinmək üzrə hərəkətlərin yerinə yetirilməsini asanlaşdırır.

Pedaqoji proses düzgün təşkil edildikdə özünəxidmət əməyinin gündəliyi bütün başqa əmək növlərinə nisbətən uşağın lazımi vərdişləri fəal surətdə mənimsəməsi, davranışında müstəqillik əldə etməsi ücün daha əlverişli şərait yaradır. Bu hazır ki, əmək növünün daha cox uşaq bağçasının kicik qruplarında istifadə edilməsi səbəblərindən biridir.

Özünəxidmətin tərbiyəvi əhəmiyyətinə qiymət verərkən, hər şeydən əvvəl, onun həyati zəruriliyini uşağın gündəlik şəxsi tələbatının ödənilməsinə yönəldilməsini qeyd etmək lazımdır. Elementar əmək tapşırıqlarının hər gün yerinə yetirilməsi uşaqları müntəzəm əməyə alışdırır. Uşaqlar dərk edirlər ki. hamı gündəlik həyati tələbatla bağlı olan müəyyən əmək vəzifələri daşıyır. Bu isə bekarçılıq və tənbəlliyi qarşı mənfi münasibət tərbiyə etməyə kömək edir.

Əgər uşaqlar özünəxidmət üzrə elementar əmək vəzifələrini yerinə yetirirlərsə, onlar özlərini uşaq cəmiyyətinin və ailə kollektivinin bərabər hüquqlu üzvləri və bu kollektivin bir hissəsi kimi hiss edirlər. Məhz özünəxidmət vasitəsi ilə uşaq ilk dəfə ətrafdakı adamlarla məlum münasibətlər yaradır, onların müqabilində öz vəzifələrini dərk edir. Bu yolla uşaq özünə qayğı göstərməyin qədrini bilir, həmçinin özünün yaxın adamlarına və qohumlarına fəal surətdə qayğı göstərmək bacarığı əldə edir. Ona görə də özünəxidmət üzrə əmək müəyyən dərəcədə uşağın daxili mədəniyyətini tamamlayır, yəni uşaq çalışır ki, fayda versin, ətrafdakıları əzaba salmasın, böyük və kicik işlərdə öz qüvvəsi ilə onlara kömək etsin.

Özünəxidmət –bədənin təmizliyi, paltarın səliqəliliyi haqqında daimi qayğı, bunun üçün hər bir lazımi işi görmək və kənardan tələb olunmadan, daxili tələbata görə hazırlıq, gigiyenik qaydalara riayət etmək deməkdir. Aydındır ki, uşaqların özünəxidmət əməyinə bu cür münasibətini yalnız uşaq bağçası və ailənin səbirli, sistematik işi vasitəsilə əldə etmək olar.

Özünəxidmətdə uşağın qarşısında ona aydın və zəruri olan konkret məqsəd qoyulur. Özünəxidmətdə əldə etdiyi nəticə göz qabağındadır və o, uşağın gələcək fəaliyyəti üçün geniş perspektivlər acır, yəni geyindikcə, gəzintiyə getmək, oyuncaqları yığışdırdınsa, işlə məşğul olmaq olar. Uşaq özünə xidmət edərək müəyyən fiziki və əqli səy göstərir. O nə qədər kicik olsa və müstəqil geyinmə, əl-üz yuma, yemək vərdişlərinə nə qədər az yiyələnmiş olsa, onun fəaliyyətində bu səyləri bir o qədər gözə çarpar.

Üç yaşlı uşaq üçün bu proseslərin hər biri cəlbedicidir, cünki müstəqilliyə imkan verir, onun fəaliyyətə olan tələbatını ödəyir və özü tərəfindən həll edilməli məsələ kimi meydana cıxır, yəni ayaqqabını geyinmək, bağlarını düzəltmək, rezini möhkəmlətmək kimi hərəkətləri yerinə yetirdikdə uşağın iradəsi gərginləşir, onun bütün diqqəti bu proseslərə cəlb edilir.

Orta qrupun uşaqları özlərini tamam başqa cür aparırlar. Onlar geyinərkən öz aralarında söhbət edir, başqalarının nə edəcəklərinə göz qoyurlar.

6-7 yaşlı uşaqlar məişət proseslərində iştirak edərək özlərini cox sərbəst hiss edirlər. Belə ki, Murad fikrini yayındırmadan cəld özü geyinir və kicik bacısına geyinməyə kömək edərək deyir:" hər seyi özün etməlisən. Sən daha böyük oğlansan. Paltarını, bax belə geyin. Yaxasını isə qabaqdan bağlamalısan. Düzdür. " Onun hərəkətləri cəld, düşünülmüş, vərdişləri möhkəmdir.

Özünəxidmət kicik uşağın əməyinin əsas növlərindəndir. Uşaqları özləri geyinməyə, əl-üzlərini yumağa, yeməyə, oyuncaqları oyundan sonra yerinə yığmağa alışdırma onlarda müstəqillik, yaşlılardan asılı olmamaq, öz qüvvəsinə inam və maneələri aradan qaldırmaq arzusu və bacarığını formalaşdırır. Kicik məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin əsas məzmunu olan özünəxidmət tədricən öz yerini əməyin digər növlərinə verir, lakin məktəbəqədər böyük yaş mərhələsində də onun əhəmiyyəti böyükdür.

**3. Özünəxidmət vərdişlərinin formalaşdırılması metodları.** Uşaq bağçasında özünəxidmətin təşkili və onun tərbiyəvi nəticələri düzgün pedaqoji rəhbərlikdən asılıdır.Axı məhz yaşlılar özünəxidməti elə təşkil edirlər ki, onda bütün uşaqlar iştirak etsin, əmək vəzifələri tədricən mürəkkəbləşsin, uşaqlar böyüdükcə özünəxidmətin məzmunu təkminləşsin, bu əmək növü həqiqətən məktəbəqədər yaşlı uşaqların tərbiyəvi vasitəsinə cevrilsin. Bunun üçün uşaqlara xidmətedici əmək vərdişlərinin aşılanması, onun daha düzgün təşkili metodlarına yiyələnməsi, müsbət keyfiyyət və adətlərin: qənaətcillik, səliqəlilik, müstəqillik, əməksevərlilik, fəallıq və s. bu kimi keyfiyyətlərin tərbiyəsi üzrə ciddi, inadlı iş aparmaq lazımdır. Uşaqların həqiqi imkanlarını nəzərə alaraq onları müntəzəm və ardıcıl olaraq bütün yuxarıda qeyd edilinlərə alısdırmaq, praktik fəaliyyətə o vaxta kimi cəlb etmək lazımdır ki, hər bir uşaq özünə xidmət edə bilsin, öz xarici görüşünə fikir versin. Lakin bu da əlbəttə, o demək deyil ki, uşaq bağçasında

özünəxidmətə rəhbərlik bununla bitir. Sonrakı nəzarət, fəaliyyətin planlaşdırılması zəruridir.

Vərdişlərin formalaşdırılmasının əsas metodik priyomu hər bir elementar hərəkətin və onun ardıcıllığının yerinə yetirilməsini göstərməkdən ibarətdir.

Özünəxidmət üzrə əmək vəzifələrini uşaqların işdə bilavasitə iştirakı şərti ilə necə yerinə yetirilməsi haqda ətraflı nümayiş və izahat onları hərəkətlərin zəruri üsullarına dəqiq riayət etməyə, yəni icracılığa öyrədər.

Geyinmə, əl-üz yuma, oyuncaq və materialların yığışdırılması priyomlarının təlimi zamanı eyni üsuldan istifadə etmək, hərəkətlərin eyni ardıcıllığını saxlamaq vacibdir. Bu, özünəxidmət üzrə oxşar vəzifənin yerinə yetirilməsində bütün uşaqlara eyni tələblər verməyə imkan yaradır və eyni zamanda möhkəm vərdişin formalaşmasının tezliyini təmin edir. Bu tezliyi eyni hərəkətləri müəyyən ardıcıllıqla dəfələrlə təkrar etmək yolu ilə də əldə etmək olar. Təkrardan qorxmaq lazım deyil.

İş burasındadır ki, özünəxidmət vərdişləri başqa vərdişlər kimi birdən yaranmır. Uşaqlar əl-üz yumağı, geyinməyi düzgün və yaxşı öyrənmək ücün, hər seydən əvvəl, bunu necə etmək lazım olduğunu yaxşı öyrənmək üçün, hər şeydən əvvəl, bunu necə etmək lazım olduğunu yaxşı dərk etməlidirlər. Bundan əlavə, onlar bu işdə daim məşq etməlidirlər. Bir necə vaxtdan sonra lazımi vərdiş, möhkəm bacarıq yaranır. Bəzi uşaqlara bu və ya digər bacarığa yiyələnmək üçün az vaxt, digərlərinə isə daha cox vaxt tələb olunur.

Vərdişlər formalaşdıqca tərbiyəçi tədricən nümayişdən ətraflı şifahi izahatlara kecir. Belə izahatlar vərdişlərin möhkəmləndirilməsinə. Dəqiq hərəkətlərin yaranmasına kömək edir, tərbiyəçinin hər bir sözünə müvafiq hərəkət etməyə imkan yaradır. Daha sonra yaşlı öz izahatına ümumi xarakter verə bilər.

Özünəxidmət prosesində uşaqların diqqət, qayöı, köməkgöstərm ələrinə daim çalışan tərbiyəçilər düzgün hərəkət edirlər. Bəzən belə olur ki, uşaq cəld və yaxşı geyinməyi bacarır, lakin bu işdə hec

kəsə kömək etmək istəmir.Çalışmaq lazımdır ki, uşaqlar ən erkən yaşlarından uşaq bağçasında nəinki təmizli8k və qayda-qanuna olan şəxsi tələblərinin ödənməsi naminə işləsinlər, hətta bir-birinə həvəslə kömək etsinlər.

Əgər tərbiyəçilər uşaqların iş nəticələri ilə maraqlanmırlarsa özünəxidmət prosesində onların düzgün tərbiyəsi mümkün deyil. Bu halda uşaqların əl-üz yuma və soyunmaya marağı itir. Yaşlılar uşaqların necə işləməsinə diqqətlə yanaşmalı, onlarla birgə nəyin yaxşı, nəyin pis və nə üçün pis olduğunu aydınlaşdırmalıdırlar. Belə olduqda uşaqlar öz səhvlərini tez başa düşür və gələn dəfə işi daha yaxşı görməyə səy göstərərlər.

Özünəxidmət üzrə əmək qeyri-mürəkkəb, lakin dəqiq təşkil edilmə tələb edir. Əmək prosesinin özü şəxsi tələblərin ödənilməsi ilə bağlı olan vəzifələrin yerinə yetirilməsində uşaqların gündəlik, uzun müddətli müntəzəm iştirak kimi təşkili formasını diktə edir.

Özünəxidmətin təşkilində uşaqların həyatında zəruri olan rejimə edilməsi, əl-üz yumaq, geyinmək, yemək kimi məişət proseslərinin ardıcıl surətdə həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Həyatın dəqiq, düzgün nizam qaydası uşaqlarda ən erkən yaşlarından tərbiyə edilməsi mədəni verlişlərdən biridir.

Xüsusi maddi mühitin yaradılması özünəxidmət vərdişlərinin mökəmləndirməsinə kömək edir. Qrup və soyunma otaqlarınıln rahat yerində səliqə səhman yaratmaq ücün uşağa lazım olan əşyalar yerləşdirilməlidir. Məktəbəqədər böyük yaşlı uşaqların daim istifadəsi üçün müxtəlif rəngli və ölcülü düymə yığımı, rəngbərəng saplar, ayaqqabı kremi, paltar üçün şotka olan qutu qoyulmalıdır.

Tərbiyəçi özünəxidmət üzrə əməyi normallaşdırmalıdır. Özünəxidmət və müstəqillik vərdişlərinin formalaşmasına uşaqlarla bütün təlim-tərbiyə sistemi böyük təsir höstərir.

Uşaqları özünəxidmət üzrə tələblərlə tanış etmək məqsədilə məşğələlərdən, ətrafdakı yaşlıların, böyük məktəbəqədər yaşlı uşaqların davranışı üzrə günəlik müşahidələrdən, kitablarda verilən

illüstrasiyaların gözdən keçirilməsindən, bədii əsərlərin mütaliəsindən, kukla tamaşalarına baxışdan istifadə edilir. Yaşlılar daim onu qeyd edirlər ki. paltarı, ayaqqabını təkcə səliqəli görünmək üçün deyil, hə də bu seyləri alan valideynlərə minnətdarlıq hissinə görə qorumaq lazımdır.Uşaqlarda indsan əməyinin nəticələrinə, sonralar isə ictimai əmlaka qyğılı münasibət tərbiyəsi bundan başlanır.

Özünəxidmət üzrə əmək uşaqlarda fəaliyyətin bu növünə marağı, hər şeyi ğzü kömək arzusunu möhkəmlədir, təşəbbüskarlıq, işgüzarlıq yaradır.

## Mövzu: 14. Usaqların təbiətdə əməyi.

**Plan:**

1. Uşaqların təbiətdə əməyinin fiziki inkişaf üçün əlverişli olması.
2. Orta qrupda uşaqların müstəqil surətdə əmək tapşırıqlarını yerinə yetirmələri.
3. Məktəbəqədər böyük yaşlı ( 5-7 yaşında) uşaqları ilin bütün fəsillərində işləməyə alışdırmaq.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı-1989.

**4.** Uşaq bağçası " Maarif"- Bakı, 1983.

**5.** R.Mursaqulova. N.Rüstəmova.Məktəbəqədər pedaqogika.Bakı-2012.

Uşaqların təbiətdə əməyi fiziki inkişaf üçün əlverişli şərait yaradır, hərəkətləri kamilləşdirir, müxtəlif orqanların fəaliyyətini fəallaşdırır, əsəb sistemini möhkəmləndirir. Bu əməkdə hec bir başqa əməkdə olmadığı kimi əqli və iradi səylər uyğunlaşır. Təbiətdə əmək uşaqların əqli və sensor inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Bu və ya digər əmək hərəkətlərini yerinə yetirərkən uşaqlar torpaq və bitkilərin müxtəlif xassələri ilə qarşılaşır və bu xassələri öyrənirlər. Torpaq və bitkiləri tədqiq edərkən, gözdən kecirərkən, heyvanların davranışını müşahidə edərkən, u.aqlar onların elə əlamətlərini, adətlərinisecirlər ki, bunlar lazım olan əmək hərəkətlərinin yerinə yetirilməsi ücün vacibdir. Torpaq və bitki xassələrini araşdırmaq bacarığı fiziki səylərin sərf edilməsini düzgün tənzimləməyə, müvafiq əmək alətlərini secməyə, öz hərəkətlərini uyğunlaşdırmaq üçün müəyyən bacarıq əldə etməyə imkan verir. Məsələn, alaq etmə zamanı mədəni bitkilərin xarici əlamətlərini alaq otlarının xarici əlamətlərindən fərqləndirmək bacarığı, alaqları əl ilə düzgün tutma vərdişi yaradır.

Təbiətdə əmək uşaqların görüş dairəsini genişləndirir,torpaq, əkmə materialı, əmək prosesləri, əmək alətləri haqda onların dərk edə biləcəyi biliklərin əldə edilməsi üçün imkan yaradır. Şəxsi təcrübəsi əsasında uşaq əyani surətdə canlı orqanizmlərin nəyə təlabat hiss etdiyini görür. Məsələn, uşaqlar öyrənirlər ki, su qida mənbəyidir, o, bitkiləri müəyyən həyati fəallıq halında saxlayır. Uşaqlar orqanizmin mühitdən asılılığını, bitki və heyvanların artma və inkişaf ardıcıllığını dərk etməyə başlayır, əmək prosesində təbiətdəki qanunauyğunluqları və əlaqələri müəyyənləşdirirlər. Bu, materialist dünya görüşü elementlərinin formalaşmasına kömək edir. Uşaqları aşağıdakı əsas nəticəyə gətirib cıxarırlar: insan canlı orqanizmlərin tələbatını öyrənərək onların artma və inkişafına təsir göstərə bilir, yəni uşaqlar təbiətin idarə edilməsində insanın rolunu görürlər.

Sistematik kollektiv uşaqları birləşdirir, onlarda əməksevərlik və tapşırılmış işə görə məsuliyyət hissi tərbiyə edir, onlara sevinc və ləzzət verir. Sahədə və yaxud təbiət guşəsində işləyərkən uşaqlar kənd təsərrüfatı avadanlığından sadə, praktikcəhətdən istifadə etmək vərdişlərinə yiyələnir, bitkilərə qulluq priyomlarını mənimsəyir, onların inkişafı haqqında coxlu məlumat alırlar.

Təbiətdə əmək uşaqlarda müşahidəçilik hər şeylə maraqlanmaq qabiliyyətini də inkişaf etdirməyə kömək edir. Onlarda kənd təsərrüfatı əməyinə maraq və bu əməklə məşğul olan adamlara hörmət hissi aşılamağa kömək edir. Təbiəti sevmək- Vətənimizin sərvətini daha da artırmaq, hər bir canlıya, əmək nəticələrinə ehtiyatla yanaşmaq deməkdir.

İnsanların estetik tələbatlarının ödənilməsinə yönəldilən təbiətdəki əmək məzmunu, mədəniyyət və estetika tələblərinə müvafiq əmək prosesinin təşkili praktik tələbatlar və şən estetik emosiyaların ödənilməsi üçün əmək nəticələrinin istifadə edilməsi vasitəsilə uşaqların esteteik tərbiyəsi həyata kecirilir.

Ətrafdakıların əməyi üzrə müşahidələrlə yanaşı, uşağın şəxsi əmək fəaliyyəti böyük yer tutur. Məktəbəqədər müəssələrdə uşaqların işləyə biləcəkləri təbiət guşələri, bostanlar, güllüklər, meyvə-giləmeyvə sahələri mövcuddur.Təbiət guşələrində dələlər, quşlar yaşayır, icərisində balıq olan akvariumlar qoyulur. Bütün bunlar bitki və heyvanların həyatı və onlara qulluq üzrə vərdişlərin mənimsənilməsi üçün imkan yaradır.

Həmin vərdişlərin formalaşdırılmasının və bu əmək növündə məktəbəqədər müxtəlif yaşlı uşaqların tərbiyəsinin proqram vəzifələrini gözdən kecirək:

**Məktəbəqədər kicik yaşlı** uşağa yaşlıların sadə tapşırıqlarını yerinə yetirməyi: tərbiyəçinin köməyilə balıqları, quşları, ev dovşanlarını yedizdirməyi, otaq bitkilərini sulamağı, iri yarpaqları silməyi, güllərin, iri toxumlarını, soğanı əkməyi, ləklərdəki bitkiləri suvarmağı, tərəvəzi yığmağı öyrədirlər.

**Orta qrupda uşaqlar** müstəqil surətdə əmək tapşırıqlarını yerinə yetirir, bitki və heyvanlara qayğı göstərirlər, təbiət guşəsində bitkiləri sulayır, iri qalın yarpaqları silir. Torpağı yumşaldır, heyvanları yedizdirir,onların suyunu dəyişdirirlər. sahədə yaşlılarla birgə tərəvəz , gül yetişdirirlər.

Bu zaman onlarda məqsədə nail olmaq üçün inadcılllıq və əmək səyi göstərməyə, adət, qeyri-mürəkkəb kollektiv iş vərdişləri tərbiyə edirlər. Bu yaşlı uşaqları adətən bitkilərin həyatı və böyüməsi üçün əlverişli şərait yaratmaq lazım gəldiyini dərk etməyə hazırlamaq vacibdir. Bu zaman calışmaq lazımdır ki, balaca uşaqlar əməkdən ləzzət alsınlar.

**Məktəbəqədər böyük yaşlı (5-7 yaşından ) uşaqları** ilin bütün fəsillərində işləməyə alışdırmaq lazımdır. Payızda uşaqlar öz sahələrində tərəvəz, toxum yığır, bitkilərin soğanaqlarını cıxarır, yarpaqları yandırmaq üçün yığır, tağları calaya daşıyır, təbiət guşəsində yenidən əkmək ücün bitkilərin **soganaqlarını cıxarır,** yarpaqları yandırmaq üçün yığır, təbiət guşəsində təzədən əkmək ücün bitkilərin torpaqdan cıxarılmasında, ləklərin bellənməsində,ağac və kolların əkilməsində, heyvan və quşlar üçün və quşlar üçün yem, qışda ev ücün tərəvəz və meyvə tədarükündə gücləri catacaq iştirak edirlər. Uşaqlarda tərbiyəcinin təklifi ilə yox, şəxsi təşəbbüsü ilə işləmək, işi səy və səliqə ilə yerinə yetirmək, materialları və əmək predmetlərini qoruya bilmək, onları işdən sonra yerinə yığmaq adəti, xoşagəlməz işdən baş qacırmayaraq başqaları ilə bərabər birgə əmək fəaliyyətində iştirak etmək hazırlığı, razılığa gəlmək, işi yerinə yetirməkücün vəzifə bölgüsü aparmaq, bir-birlərinə kömək edərək mehriban işləmək, işi keyfiyyətlə yerinə yetirmək bacarığı tərbiyə etmək zəruridir. Bu zaman uşaqların bitki və heyvanlara qulluq etmək haqqında təsəvvürlərini daha da genişləndirmək lazımdır.

Təbiətdə əməyin öz xüsusiyyəti var. Bu, məktəbəqədər yaşlı uşaqların gücləri catacaq yeganə məhsuldar əmək növüdür. Son məqsəd giləmeyvəni, tərəvəzi, gülləri yetişdirməkdən ibarətdir. Əmək nəticələri uşaq ücün konkret və aydındır,lakin bu nəticələri tez, əl əməyində olduğu kimi əldə etmək cətindir. Məqsəd vaxt etibarilə uzaqdır və uşaqdan uzun müddət fiziki və əqli səy, gündəlik gərgin iş tələb edir.

Uşaqlarda gündəlik, yeksənəq, lakin olduqca vacib işə davamlı müsbət münasibəti necə yaratmalı?

Hər bir işin effektiv şərtlərindən biri əməyin düzgün təşkilidir. A.S.Makarenko deyirdi ki, yalnız işin yaxşı təşkili zamanı uşaq əməkdən ləzzət alır.

Uşaq fəaliyyətinin təşkilinin müxtəlif formaları mövcuddur. Məşğələ formasında aparılan frontal əmək proseslərinin təşkili təcrübədə geniş yayaılmışdır.

Məşğələlər təbiət guşəsində, bostanda  və güllükdə kecirilir. Burada uşaqlar torpağı yenidən belləyir, yumşaldır,cicək ləkləri düzəldir, əkinə, bostana və güllüklərə qulluq edir və məhsul yığırlar.

Biliklərin  mənimsənilməsi, əmək vərdişlərinin və bacarıqlarının formalaşması təkcə xüsusi təşkil edilmiş məşğələlkərdə deyil, əksər hallarda gündəlik əməkdə baş verməlidir. Tərbiyəci uşaqlarla birlikdə işləyərək, onların qarşısında konkret vəzifə qoyur, nə kimi nəticə ala biləcəklərini qeyd edir, lazım gəldikdə zəruri priyomları göstərir,işin gedişində bilik verir. Məsələn, bitkilərə qulluq etməyi uşaqlara öyrədərkən, onlarda əməksevərliktərbiyə edərkən, pedaqoq tədricən bitkilərin böyüməsi ücün qulluğun əhəmiyyətini də izah edir, bu haqda məlumat verir, lakin bütün bunları əsas vəzifə kimi qoymur.

Uşaqlara bitki və heyvanlara qulluq etməyi öyrətmək prosesində uşaq və yaşlının birgə əməyi böyük yer tutmalıdır. Bu işləri  o zaman həyata kecirmək olar ki, yaşlı lap əvvəldən müəyyən iş sahəsi olan uşaqların kicik bir qrupu ilə işləsin Daimi tapşırığı olan uşaq məlum səy göstərir, cətinlikləri aradan qaldırmağı ğyrənir.

Uşaq o zaman əməyin faydasını hiss edər ki, o, fəal surətdə bütün əmək proseslərindən kecsin və nəhayət, lazımi nəticə əldə etsin, məsələn toxumlardan gül yetişdirsin və cicəklərdən yenidən toxum alsın.

Tərbiyə məsələlərinin həlli ücün ən əlverişli formalar əməyin müxtəlif, məsələn, fərdi, qrup tap.ırıqları formasında təşkili hesab edilə bilər. Bu tap.ırıqlar uşaqdan konkret vəzifənin yerinə yetirilməsini tələb edir və ona müəyyən əmək vərdişləri və bacarıqlarını əldə etməyə, tərbiyəciyə isə işin düzgünlüyünə, nəticənin əldə edilməsinə, uşağın münasibətinə nəzarət etməyə imkan verir. Bu tapşırıqlar uzun müddətli, sistematik, qısa müddətli və ya epizodik ola bilər.

Bu yaşlı uşaqlarda əşya və təbiət  hadisələrinə dəririn maraq, bitkilərin yetişdirilməsi və heyvanlara qulluq üzrə əməyə daha şüurlu münasibət tərbiyə edilir. Uşaqlar təbiət hadisələrini müşahidə edərkən tanış əşyaları səciyyəvi əlamətlərinə görə müqayisə etməyi və qruplaşdırmağı öyrənirlər. Hələ ilin əvvəlindən tərbiyəci müntəzəm surətdə uşaqları

bitkilərin suvarılmasına , torpağın yumşaldılmasına, heyvanların yemləndirilməsinə cəlb edir. Belə əmək prosesində pedaqoq bu və ya digər əmək hərəkətinin vaxtını bilmək və dərk etmək bacarığını formalaşdırır. Əvvəlcə işə uşaqların öz arzuları ilə 2-3 nəfər cəlb edilir, sonra isə onlar növbə ilə işləyirlər.

Tapşırıq verərkən uşaqların xüsusiyyətlərini nəzərə almaq lazımdır: diqqəti yayğın olan uşaqlara yüngül tapşırıq verilməlidir. Başlanmış işi axıra catdıran  uşaqlara isə daha mürəkkəb tapşırıqlar verilir. Bəzən uşaqlara fərdi tapşırıqlar verilir: onlardan birinə qulluq etmək ücün bitki,bostanda bir necə lək ayrılır. Fərdi tapşırıqların yerinə yetirilməsi uşaqların müstəqilliyini artırır, əldə edilmiş bilik və bacarıqlardan istifadə edilməsində onlarda təşəbbüskarlıq tərbiyə edir. Buna uşaqların yaşıdları qarşısında heyvan və bitkilərə qulluq üzrə nəyi necə, nə ücün və nə zaman edəcəkləri barədə hesabatları da kömək edir.

Uşaq  həyatının beşinci ilində suvarma texnikasının təlimini davam etdirirlər. Bitkini ancaq lazım gəldikdə otaq tempraturlr su ilə suvarmaq, susəpəni torpağın səthinə yaxın tutaraq  bütün torpağı eyni dərəcədə nəmləndirmək lazımdır, bu zaman hansı bitkiyə -kicik və ya böyük bitkiyə daha cox su lazım olduğunu aydınlaşdırırlar. Onlar belə bir nəticəyə gəlirlər ki, bitki nə qədər böyük olsa onu o qədər cox suvarmaq lazım gəlir. Uşaqlara həmcinin torpağın suya olan təlabatını əl ilə müəyyənləşdirməyi öyrədirlər. Uşaqlar bilməlidirlər ki, quru torpaq bərk olur, tez səpələnir, yaş torpaq isə qara, tünd olur. Müvafiq təcrübə qazanaraq, uşaqlar özləri bitkilərin xarici görünüşünə istinad edərək suvarmanın zəruriliyini təyin etməyə calışırlar. Bitkilərin baharda daha da tez böyüməsi, yeni, cavan budaqların, yarpaqların, cicəklərin əmələ gəlməsi, onların tez-tez suvarılması haqqında uşaqlarla söhbət aparmaq da faydalıdır.

Bu yaşda şüurluluq, müstəqillik, qoyulmuş məqsədin yerinə yetirilməsində həvəs artır. Uşaqların təcrübəsinə istinad etmək onların əməyinin məzmun və məqsədini daha yaxşı dərk etməyə imkan verir.

Burada əməyin son məqsədini xatırlatmağa lüzum yoxdur. Uşaqlar tərbiyəçi ilə birgə yulafın və soğanın səpilməsi və əkilməsi ücün yararlı olan torpağı hazırlayır, yeşik və qutulara doldurur, toxumu səpir və soğanağı əkib suvarırlar. İş prosesində tərbiyəçi işin səliqə ilə yerinə yetirilməsini, qaydalara riayət etməyi xatırladır, uşaqlara bir-birindən öyrənməyi təklif edir, hər birinin səliqəli işini qeyd edir.

Məktəbəqədər  orta yaşlı uşağın əməyə istiqamətləndirilməsinin inkişafında bir necə mərhələ müşahidə olunur.Əvvəlcə bir cox uşaqlarda əməyə maraq olmur ki, bu da onların işdən imtina etmələrində özünü büruzə verir, lakin prosessual hərəkətlərə uşaqların marağı daha artıq olur.Sonralar tədricən əmək hərəkətlərinə maraq daha da artır və oyun proseslərinin əmək prosesləri ilə növbələşməsi müşahidə olunur. Daha sonra oyun hərəkətləri ilə qırılmayan məqsədi və nəticəsi aydın olan əmək fəaliyyətinin özü müydana cıxır. Təbiət guşəsinin bitkilərinə qulluq üzrə uşaqların əldə etdikləri vərdişlər sahədə gördükləri işdə tətbiq edilmir.

Uşaqları sözün əsl mənasında, əmək prosesi ilə maraqlandırmaq üçün onlara tərbiyəçinin uşaqlarla birgə yerinə yetirdiyi hər hansı əməyin nəticəsini göstərmək lazımdır. Üç nəfərdən ibarət olan qrupla birgə işləyən tərbiyəçinin hər bir uşağa konkret əmək tapşırıqlarının nəticələrini, yəni sahənin düzgün qazılmış hissəsini, qəşəng düzəldilmiş ləkləri. Yaxşı yumşaldılmış torpağı, tərəvəz və cicəklərin sadə cücərtilərini göstərməyə imkan var.

əyani surətdə əmək nəticəsini görən uşaqlar yaşlılar kimi sözün tam mənasında işləmək istəyirlər. Lakin bu işlərdə  də uşağı ilk növbədə hələ fəaliyyət nəticəsi deyil, əmək hərəkətləri prosesinin özü maraqlandırır və qane edir. Uşaqlar uzun müddət torpağı eyni yerdən yumşalda, eyni ləki gün ərzində bir necə dəfə suvara bilərlər. Onlar artıq yaşlının tapşırığını sakitcə dinləyir, onun hərəkətlərinə göz qoyur və şüurlu surətdə təqlid etməyə calışır, düzgün priyomları göstərməyə xahiş edir.

Əmək proseslərinə marağın daha da artırılmasında tapşırıqlar böyük əhəmiyyət  kəsb edir. İşi elə qurmaq lazımdır ki, hər bir uşaq hansı

konkret vəzifəni yerinə yerinə yetirməli olduğunu aydın təsəvvür edə bilsin. Orta qrupun uşağına verilən tapşırığı ciddi surətdə fikirləşmək, onun həcmini müəyyənləşdirmək lazımdır ki, uşaqlar yorulmadan yaxşı yerinə yetirilmiş birgə işdən həzz alsınlar.

**Məktəbəqədər böyük yaşlı ( 5-7 yaşında) uşaqları ilin bütün fəsillərində işləməyə alışdırmaq. T**əbiətdə əməyin öz xüsusiyyəti var. Bu, məktəbəqədər yaşlı uşaqların gücləri catacaq yeganə məhsuldar əmək növüdür. Son məqsəd tərəvəzi, giləmüyvəni, gülləri yetişdirməkdən ibarətdir. əmək nəticələri uşaq ücün konkret və aydındır, lakin bu nəticələri tez, əl əməyində olduğu kimi əldə etmək cətindir. Məqsəd vaxt etibarilə uzaqdır və uşaqdan uzun müddət fiziki və əqli səy, gündəlik gərgin iş tələb edir.

Uşaqlarda gündəlik, yeksənək, lakin olduqca vacib işə davamlı müsbət münasibəti necə yaratmalı?

Hər bir işin effektiv şərtlərindən biriəməyin düzgün təşkilidir. A.S.Makarenko deyirdi ki, yalnız işin yaxşı təşkili zamanı uşaq əməkdən ləzzət alır.

Uşaq fəaliyyətinin təşkilinin müxtəlif formaları mövcuddur. Məşğələ formasında aparılan frontal əmək proseslərinin təşkili təcrübədə geniş yayılmışdır.

Biliklərin mənimsənilməsi, əmək vərdişi və bacarıqlarının formalaşması təkcə xüsusi təşkil edilmiş məşğələlərdə deyil, əksər hallarda gündəlik əməkdə baş verməlidir. Tərbiyəçi uşaqlarla birlikdə işləyərək, onların qarşısında konkret vəzifə qoyur, nə kimi nəticə ala biləcəklərini qeyd edir, lazım gəldikdə zəruri priyomları göstərir, işin gedişində bilik verir.

Uşaq o zaman əməyin faydasını hiss edir ki, o, fəal surətdə bütün əmək proseslərindən kecsin və nəhayət, lazımi nəticə əldə etsin, məsələn. Toxumlardan gül yetişdirsin və cicəklərdən yenidən toxum alsın. Tərbiyə məsələlərinin həlli üçün ən əlverişli formalar əməyin müxtəlif, məsələn, fərdi, qrup tapşırıqları formasında təşkili hesab edilə bilər. Bu tapşırıqlar uşaqdan konkret vəzifənin yerinə yetirilməsini tələb edir və ona müəyyən əmək vərdişləri və bacarıqlarını əldə etməyə. Tərbiyəçi isə işin düzgünlüyünə , nəticənin əldə edilməsinə, uşağın münasibətinə nəzarət etməyəimkan verir.. Bu tapşırıqlar uzun müddətli, sistematik, qısa müddətli və ya epizodik ola bilər.

Mövzu: 15. Uşaq şəxsiyyətinin formalaşmasdında əl əməyinin əhəmiyyəti.

Plan:

1. Oyuncaqların düzəldilməsi əməyin digər növü kimi.
2. Müxtəlif materiallardan oyuncaqların hazırlanması
3. 4-5 yaşlı uşaqların özləri ən sadə oyuncaqları düzəldə bilmələri.

Ədəbiyyat:


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.

2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.

3. Məktəbəqədər yaşlı uşağın əməkdə tərbiyəsi. Bakı-1989.

4. Uşaq bağçası " Maarif"- Bakı, 1983.

5. R.Mursaqulova. N.Rüstəmova. Məktəbəqədər pedaqogika.Bakı-2012.


Müxtəlif materialdan uşaqların oyuncaq və əşyalar düzəltməsi məktəbəqədər yaşlı uşaqların, xüsusən böyük qrup uşaqlarının əmək tərbiyəsinin mühüm cəhətlərindən biridir. əməyin bu növü onların qarşısında geniş yaradıcılıq perspektivləri acır. Əl əməyinin məzmunu quraşdırma ilə sıx əlaqədardır.

Oyuncaqların düzəldilməsi əməyin digər növlərinə nisbətən daha artıq dərəcədə politexnik təhsilə ilk addımlar acır. Bu əməkdə məktəbəqədər yaşlı uşaqlar ətrafdakı predmetlər haqqında öz təsəvvürlərini dəqiqləşdirir, texnikanın cazibəli aləminə ilk addımlar atırlar ki, bunun da onların gələcək inkişafı üçün böyük əhəmiyyəti var.

Əl əməyi uşaqların quraşdırma qabiliyyətinin, faydaları əməli vərdişi və oriyentasiyasını inkişaf etdirir,işə maraq,onu yerinə yetirmək hazırlığı,öz imkanlarını qiymətləndirmək bacarığı,işi mümkün qədər yaxşı yerinə yetirmək meyli formalaşdırır.Uşaqlar təcrübədə materialların müxtəlif xassələri haqqında elementar təsəvvürlər əldə edirlər.Onlar öyrənillər ki,material müxtəlif çevrilmələrə məruz qalir,bu və ya digər alətlərin,hissələrin birləşmə üsularını tətbiq edərək ondan müxtəlif əşyalar düzəltmək olar.Təbii materiallarla-

yarpaqlarla,palıd qozaları,saman və qabıqla aparılan iş tərbiyəçiyə bu materialın zəngin xassələri:rəngi,forması,möhkəmliyi ilə uşaqları tanış etməyə imkan verir.Oyun və məişət üçün müxtəlif əşyaların hazırlanması üzrə əvvəlcə planlı surətdə istiqamətləndirilən,sonra isə uşaq tərəfindən müstəqil surətdə yerinə yetirilən əmək böyük tərbiyəvi əhəmiyyətə malik olub,uşaqlarda məqsəd qoyma bacarığını,onu əldə edilməsində inadçılıq,çətinlikləri aradan qaldırmaq meylini inkişaf etdirir.Uşaqlar qoyulmuş məqsədin həyata keçirilməsi yollarını araşdırmağı,hərəkətlərin ardıcıllıqlarını,materialın emal edilməsini,onun hissələrinin birləşmə üsullarını fikirləşib tapmağı öyrənirlər.Pedaqoq uşaqların fikirləşdiyi konstruksiyaların əsas hissələrini əvvəlcədən seçməkdə,birləşmə prosesini düşünməkdə onlara kömək edir.İşin əvvəlcədən düşünülməsi əmək prosesinin özünde usağa konstruksiyanin mürəkkəbləşməsinə öz qüvvəsini yönətməyə,onu mükəmməl düzəltməyə,həmçinin lazımi nəticəni tez əldə etməyə imkan verir.

Bacarıqların vaxtında təlimi yaradıcı fəaliyyətin xarakterində xeyli dəyişiklər törədir.Uşaqlarla iş apararkən onlara öz planlarını həyata keçirməyə,yaradıcılıq göstərməyə imkan vermək lazımdır.Müşahidəçilik qabiliyyətini,predmetin səciyyəvi xüsusiyyətlərini görmək,onları yadda saxlamaq və iş prosesində bərpa etmək bacarıqlarının inkişafı tərbiyəçinin mühüm vəzifələrindəndir.Predmet haqqında aydın təsəvvür ideyanın həyata keçirilməsinə,işin yerinə yetirmə keyfiyyətinə müsbət təsir göstərir.Məsələn,gəminin qurlaşdırılması üzərində işlərkən uşaqlar onun quruluşunu yada salmağa çalışır,öz işlərinə qane olmayaraq işi yenidən başlayır,illustrasiyanı göstərməyi xahiş edir,pedaqoqdan soruşur,bir-biriləri ilə məshələtləşirlər.

## Müxtəlif materiallardan oyuncaqların hazırlanması

Oyuncaqların hazırlanması ilə məşğul olaraq uşaqlar çoxlu yeni bilik və bacarıq əldə edir,müxtəlif predmetlərin quruluşu üzərində fikirləşir,uşaq bağçasında və həmçinin evdə boş vaxtlarını faydalı keçirirlər.

O uşaq bağçasında ki,tərbiyəçi bu əmək növünü sevir və özü də çox şeyi düzəltməyi bacarır,orada oyuncaqların hazırlanması üzrə iş böyük tərbiyəvi əhəmiyyət kəsb edir.Əvvəlcə uşaqlar tərbiyəçinin onların gözləri qarşısında adi kibrit qutusunu məharətlə qatara,divana və ya yazı masasına çevirməsini müşahidə edirlər.Onlar görürlər ki,bu iş o qədər də mürəkkəb deyil və özləri də

əvvəlcə tərbiyəçiyə kömək etməyə,sonra müstəqil surətdə hər hansı bir yüngül oyuncağı quraşdırmağa çalışırlar.

Aydındır ki,oyuncaqların hazırlanması üçün əl altında daim lazımi material:müxtəlif ölçülü və formalı qutular,çarxlar,əlvan kağız,karton,məftil qırıqları və s. olmalıdır. Böyük və məktəbə hazırlıq qruplarında qayçı,qısa,kiçik biz, yapışqan, həmçinin lazım gəldikdə tərbiyəçinin hazırlayacağı xarrat yapışqanı olmalıdır. 4-5 yaşlı uşaqlar özləri ən sadə oyuncaqları bilərlər. Qoyulmuş vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəlmək uşaqlara asanlıqla birləşdirilə bilən əvvəlcədən hazırlanmış hissələr vermək lazımdır.Kağızların qatlanması və kəsilməsi yolu ilə çoxlu oyuncaqlar düzəltmək olar. Bəzi oyuncaqlar yapışqanın köməyi ilə,bəziləri isə yapışqansız düzəldilir. Məsələn,uşaqlar kvadratdan yapışqanın köməyi ilə kiçik zənbillər düzəldirlər. Bu zənbillərə uşaqlar “mağazaya”,”meşəyə”,”giləmeyvə” ,”göbələk” yığmağa gedirlər. 5-6 yaşlı uşaqlarla kağızdan fırlanğıclar,çadırlar,evciklər,gəmilər,kiçik qayıqlar düzəltmək olar.

Böyük və məktəbə hazırlıq qrupları üçün məsləhət görülən işin kollektiv forması maketlərin hazırlanmasından ibarətdir.İl ərzində uşaqlarla bir neçə müxtəlif maketlər hazırlamaq olar.Oğlanlar məmnuniyyətlə “futbol” ,”xokkey” oyununun maketinin hazırlanmasında iştirak edirlər.Oyuncaqların hazırlanması üzrə bir çox işlər uşaqların kiçik qrupları ilə sahədə və ya otaqda oyuna ayrılan saatlarda keçirilir.Bütün qrupla iş yalnız ayrı-ayrı hallarda təşkil edilir(yolka oyuncaqlarının, 8 Mart günü hədiyyələrin hazırlanması).Kiçik qrup uşaqlarının işinə rəhbərlik edərək onların düzəltdiyi əl işlərinə verilən estetik tələblərə daha çox diqqət yetirilməli,çətinlik çəkən uşaqlara köməklik göstərilməlidir.Bəzi niyyətlər kollektiv xarakter daşıyır.Ümumi oyuncağın ,faydalı əşyanın yaradılması üzərində çalışarkən uşaqlar kollektiv surətdə işləməyə alışırlar,işin əvvəlində razılığa gəlmək,bir-birinə kömək etmək,hərəkətləri,iş üslublarını uyğunlaşdırmaq.

Yaradıcı birgə əmək uşaqların dostluğunu möhkəmlədir.Pedaqoq bütün iştirakçıların təşəbbüsünün inkişafını və onların müstəqilliyini nəzərə almalı və daha cəsarətli uşağın cəsarətsizin ideyasına təzyiq göstərməsinə yol verməlidir,həçinin başqalarına nibətən ləng işləyən və tapşırığı hamı ilə eyni vaxtda yerinə yetirə bilməyən uşaqları diqqətlə müşahidə etməlidir.Böyük uşaqların kiçiklər üçün əldəqayırma oyuncaqlar hazırlaması tərbiyəvi əhəmiyyətə malikdir.Uşaqlar böyük məmnuniyyətlə onlar üçün fırlanğıclar,kürəklər,yolka oyuncaqları,bahar əkini üçün yeşiklər və s.düzəltməyə çalışırlar.

Ağac üzərində iş

Yeddi yaşlı uşaqlara çəkic,mismar,kəlbətin və yasdı ağız kəlbətindən istifadə etməyi öyrətmək lazımdır.Belə vərdişləri hər hansı bir lazımi əşyanın praktik olaraq hazırlanması yolu ilə tərbiyə etmək mümkündür.

Müxtəlif alətlərdən istifadə olunmaqla,ağac üzərində aparılan iş yeniliyi ilə uşaqları cəlb edir.6 xüsusən 7 yaşlı oğlan uşaqları üçün elə fəaliyyət növü xüsusilə vacibdir ki,onlar həqiqi alətlərlə iş zamanı ,ağac emalından,adi taxta və ya kötükdən müxtəlif əşyalar düzəltməkdə öz fiziki qüvvələrindən istifadə etsinlər,müəyyən səriştəyə malik olsunlar.Bacarıq,fəaliyyət,təşəbbüs,fikrini həyata keçirmək üçün çıxış yolu axtarmaq,qarşılıqlı kömək,gözəl və möhkəm oyuncaqlar düzəltməyə çalışmaq kimi keyfiyyətlər yaranır ki,bu da uşaqların məktəbə hazırlanmasında xüsusilə əhəmiyyətlidir.Ağac üzərində işin,məsələn,kağız və ya karton üzərində işə nisbətən müəyyən çətinlikləri vardır.Bu cür iş uşaqda inadlılığın,dözümlülüyün və iradəliliyin inkişafı üçün ondan fiziki qüvvə tələb edir.Belə fəaliyyət üçün çox şey verir.İşin tərbiyəvi nəticəsi ona başlayandan 2 -3 ay sonra hiss olunur.Bu işin uşaqların inkişafına effektiv təsir göstərən əlamətlərindən biri də onlarda fikir durğunluğunun dəyişməsidir.

Ağac üzərində iş zamanı əsas didaktik prinsiplərə: işin sadədən mürəkkəbə doğru aparılmasına,konstruksiyanı seçərkən çətinlik dərəcəsinin ardıcıllığının gözlənilməsinə riayət olunmalıdır.Yeni xırda şeylərin hazırlanmasında hərəkətlərin təkrar olunması vacibdir,bu zaman əvvəlki konstruksiyanın hazırlanmasında tələb olunan bacarıqdan istifadə edilməlidir.Ağac üzərində işə rəhbərlik edərkən əyanilikdən geniş istifadə olunması vacibdir.Uşaqlara vərdiş aşılayarkən iş üsullarını göstərmək lazımdır.Uşaqların düzəldəcəyi konstruksiyaların hissələri qabaqcadan hazırlanmalıdır.Məsələn,kiçik skamya düzəltmək üçün uşağa eyni ölçüdə iki kubik və taxta vermək lazımdır(5,5-6 yaşlı uşaqlar kiçik skamya düzəldə bilərlər).Sonra isə onu rəngləmək olar və ondan uşaq bağçasının sahəsində uşaqların oyununda istifadə edilə bilər.Bir neçə vaxtdan sonra həmin konstruksiyanı mürəkkəbləşdirmək-bağa qoymaq üçün söykənəcəkli bağça skamyası düzəltmək olar.

Ağac üzərində işi bütün qrupla aparmaq məqsədə uyğun deyil.İş frontal şəkildə aparıldıqda çox səs-küy yaranır,hər şeyə eyni vaxtda rəhbərlik etmək tərbiyəçi üçün çətin olur,onun hər bir uşağa ayrıca diqqət yetirməyə və konkret kömək göstərməyə imkanı olmur.Odur ki,bu cür iş aparаrkən qrupu 7-8 nəfər olmaqla 2- 3 yarımqrupa bölmək məqsədəuyğundur.Bu zaman uşaqlardan kimin kimlə işləmək istəməsi barədə razılaşmaları da mühüm məsələdir.Ağac üzərində iş

qarşılıqlı kömək tələb etdiyindən (taxtanı tutub saxlamaq,yapışqanı vermək və s.)uşaqların cüt işləməsini təşkil etmək çox münasibdir.

İşi yekunlaşdırarkən tərbiyəçi əvvəllər işi bacarmayan uşaqların indi müvəffəqiyyət qazandığını qeyd etməlidir.Onun belə diqqətli olması və görülən işləri bəyənməsi uşaqların nəinki öz işlərinin nəticələrinə,hətta yoldaşlarının da etdikləri nəaliyətlərə sevinməyi alışdırır.Pedaqoji prosesdə uşaqların kağız yaxud ağacdan quraşdırma ,rəsm çəkmə və ya yapmaya aid fikir yürütməsi mühüm məsələdir.Uşaqlar çox zaman öz fikirlərini düşünmədən yerinə yetirməyə cəhd edirlər.Onlara əvvəlcə düşünüb sonra işə başlamağı,məsələn,kukla çarpayısını düzəltmək üçün münasib materialları və iş yeribdə lazım olan bütün şeyləri: alətləri,mıxları,yapışqanı,məmulatı,ağac hissələrini,materialı seçib hazırlamağı öyrətmək lazımdır.

Əmək fəaliyyətinə pedaqoji rəhbərlikdə tərbiyəçi iş yerini qaydaya salmağı,ölçüb düzəldəcəkləri əşyaları aydın təsəvvür etməyi uşaqlara öyrətməlidir.Böyük yaşlı,eləcə də məktəbə hazırlıq qruplarının uşaqları ilə aparılan planlı iş,xüsusən məqsəd konkret və vaxt baxımından yaxşı olduğu təqdirdə,onlarda qabaqcadan plantutma bacarığını inkişaf etdirir.

Beləliklə,böyük yaşlı və məktəbə hazırlıq qrupunun uşaqlarında öz qarşılarına məqsəd qoymaq ,işin gedişini sadə şəkildə planlaşdırmaq,materialdan səmərəli istifadə etmək və iş üsullarını məqsədəuyğun olaraq tərtib etmək bacarığı inlişaf edir.Bütün bunlar yaradıcılıq fəaliyyətinin inkişafı üçün yeni imkanlar açır.